RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 225 (9680) 13 oktyabr 2024-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Prezident İlham Əliyev İspaniya Kralını təbrik etdi

### İspaniyanın Kralı Əlahəzrət VI Felipeyə

Əlahəzrət!

İspaniya Krallığının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İspaniya xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 oktyabr 2024-cü il*

## Azərbaycana təzyiq etmək əbəsdir

### İlham ƏLİYEV: "Qafqazda aparıcı dövlət bizik və bizimlə hər kəs hesablaşmalıdır"

Rusiya XİN-in rəsmisi vurğulayıb ki, Azərbaycana təzyiq etmək əbəsdir. Müxtəlif məsələlərlə bağlı Azərbaycana dəfələrlə təzyiqlər göstərilib. Söhbət təkcə suveren dövlətlərə təzyiqin yolverilməzliyi ilə bağlı prinsipial mövqedən getmir, həm də ondan gedir ki, bu mövzu real olaraq mütəxəssislərin cəlb olunmasını tələb edir. Bu, ABŞ-nin, sadəcə olaraq, özünə faydalı olan bir qərarı qəbul etdirmək məqsədilə hər kəsin başına vuracağı növbəti siyasi "dəyənək" olmamalıdır. Ortaya atılmış bu cür xəbərlərdən iqlim dəyişmələri ilə bağlı populyar mövzu ətrafında süni şəkildə ajiotaj yaratmaq üçün istifadə olunur. M.Zaxarovanın fikrincə, reallıqda ABŞ və Qərb ölkələri iqlimin maliyyələşdirilməsi sahəsində yeni kollektiv kəmiyyət məqsədinə dair razılaşmanı, həmçinin beynəlxalq karbon vahidləri bazarının yaradılması məsələsi üzrə konsensusa nail olunmasını faktiki olaraq sabotaj edirlər.

Bütün bunların fonunda görünür ki, Ermənistan, başda Fransa olmaqla Qərb ölkələri, eləcə də ABŞ-nin dəstəyi ilə Cənubi Qafqazda yenidən xaos yaratmaq istəyirlər. Onların əsas niyyəti Azərbaycanın artan nüfuzuna xələl yetirmək və əldə etdiyi tarixi hərbi-siyasi Zəfərə kölgə salmaqdır.

→ 5

## Martinikdə etirazlar səngimir

### İqtisadi, sosial və irqi bərabərsizlik əhalini qəzəbləndirir

Neçə gündür ki, Martinikdə nümayişlər davam edir və qiymətlərin artması ilə bağlı təşkil olunan bu etirazlar iğtişaşlara çevrilir. Nümayişçilərin polis məntəqəsini, avtomobilləri və yollardakı təkər istehkamlarını yandırması və polislə toqquşması nəticəsində azı bir nəfər həlak olub. Yaralılar və saxlanılanlar barədə dəqiq məlumat verilmir.

Etirazçılar adanın paytaxtı Fort-de-Fransdakı hava limanının ərazisinə daxil olublar. Sosial şəbəkələrdə yayılan videoya görə, onlar yüzlərlə sərnişinin sığındığı əsas girişə keçməyə çalışıblar.

Girişi qoruyan polis nümayişçilərə qarşı gözyaşardıcı qazdan istifadə edib. Uçuşlar dayandırılıb. Martinikin yerli prefekturasından verilən açıqlamada deyilir ki, təxminən 1000 sərnişini daşıyan üç təyyarə qonşu Qvadelupa adasına yönəldilib. Xəbərdə deyilir ki, həmin reyslərə minməli olan daha 500 sərnişin Fort-de-Frans hava limanında qapalı şəraitdə qalıb.

→ 12



# Azərbaycan hibrid təhdidlərə qarşı savaşa başlayır

## Erməni təəssübünü çəkənlərin məkrli planları hər zaman olduğu kimi, iflasa məhkumdur

Prezident İlham Əliyev sentyabrın 23-də VII çağırış Azərbaycan Milli Məclisinin ilk iclasında bununla bağlı deyib: "Ermənistanın arxasında dayanan ölkələr, onların fəaliyyəti, onların qəbul etdikləri qərarlar, qətnamələr, açıqlamalar - bütün bunlar onu göstərir ki, bizə qarşı bu çirkin oyun hələ bitməyib. Bizim qələbəmizi həzm edə bilməyən xarici dairələr bizə qarşı yeni planlar hazırlayır. Bu barədə geniş danışmağa ehtiyac yoxdur. Ancaq əldə edilmiş məlumatlar bunu göstərir. Media kampaniyasının, qarayaxma, iftira, böhtan kampaniyalarının da məqsədi məhz budur - bu mövzunu daim gündəlikdə saxlamaq və ümidlə yaşamaq ki, nə vaxtsa Azərbaycan büdrəsə, zəifləsə, yenidən bizə qarşı bu çirkin hərəkətlər başlasın. Yəni biz bunu bilməliyik. Azərbaycan iqtidarı bunu bilir, ictimaiyyət də bunu bilməlidir. Ona görə bizim arxayınlaşmağa heç cür haqqımız yoxdur".

Bu məsələ VII çağırış Azərbaycan Milli Məclisinin payız sessiyasının ilk plenar iclasında müzakirə olundu. Həmin iclasda qəbul edilən qərarlardan biri Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyasının yaradılması oldu. Məsələ ilə bağlı çıxış edən Milli Məclisin Sədri Sahibə Qafarova bildirdi ki, ideoloji təhlükəsizlik məsələləri dövlətimizin ərazi bütövlüyü və suverenliyi bərpa edildikdən sonra xüsusi aktuallıq kəsb etmişdir: "Xalqımızın tarixi qələbəsi ilə barışa bilməyən qüvvələr Cənubi Qafqaz bölgəsinə daxil olmaq və burada möhkəmlənmək, Azərbaycanın işlərinə qarışmaq cəhdlərindən əl çəkmirlər. Bu səbəbdən ölkəmiz mürəkkəb xarakterli təhlükələr ilə üzləşir. Ənənəvi çağırışların qalmaqda davam etdiyi bir şəraitdə yeni, daha məkrli müdaxilə formaları da ortaya çıxır".

Bütün bunlar Azərbaycanın milli maraqlarına xələl gətirməyə, müstəqilliyimizi və ictimai-siyasi sabitliyimizi təhlükə altına almağa yönəlib. Milli Məclis Sədrinin qeyd etdiyi kimi, bir sıra hallarda biz üstüörtülü təhdidlər və müdaxilələr ilə qarşılaşırıq, cəmiyyətimiz və dövlətimiz ilə manipulyasiya etmək cəhdləri çoxgedişli təbliğat kampaniyaları, saxta şüarlar ilə pərdələnir.

Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyanın vəzifə və səlahiyyətləri məlumdur. Bunlar "Azərbaycan Respublikası Milli Məclisinin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyasının yaradılması haqqında" Milli Məclisin qərarında öz əksini tapıb.

→ 3

## Azərbaycanda "yaşıl memarlıq" erası başlayır

### Beynəlxalq Maliyyə Korporasiyası ilə əməkdaşlıq bu prosesi daha da sürətləndirəcək

"Yaşıl binalar" enerji səmərəliliyi, ətraf mühitin mühafizəsi və insan sağlamlığına təsir edən tikililərdir. Belə tikililərin inşası müasir şəhərsalma anlayışında önəmli yer tutur. Yol xəritəsi enerji istehlakını azaltmağı, su qaynaqlarını qorumağı və ekoloji tarazlığı təmin etməyi hədəfləyir. Bu yanaşma Azərbaycanın infrastruktur layihələrinin davamlılığını artıracaq və şəhər mühitini daha yaşıl və sağlam edəcək. Yol xəritəsi müvafiq normativlərin və texniki standartların hazırlanmasını nəzərdə tutur ki, bu da "yaşıl binalar"ın inşasını və istismarını asanlaşdıracaq. Çünki kütləvi şəkildə belə tipli inşaatın ərsəyə gəlməsi, yaşayış massivlərinin salınması bahalı prosesdir.

→ 6



## İstefalar Ermənistanı yeni xaosa sürükləyir

### Revanşist keşişin başçılıq etdiyi etirazlar istənilən effekti vermir

Ermənistanda istefa zəncirinin növbəti halqası isə iqtisadiyyat nazirinin müavini Narek Teryan olub. Teryan da tutduğu vəzifədən istefa ərizəsi yazıb. Teryan 2021-ci ilin aprelində baş nazir Nikol Paşinyanın qərarı ilə iqtisadiyyat nazirinin müavini təyin edilib. Bu günlərdə həmçinin Ermənistan parlamentində elektrik təchizatı ilə bağlı dinləmələr keçirilib və bu sektora cavabdeh şəxslər kəskin tənqid edilib.

Erməni analitik Manvel Levonyan istefalar fonunda hesab edir ki, Paşinyan və komandasının həll etməsi vacib olan ciddi problemlər var: "Müharibədəki məğlubiyyətdən sonra Paşinyanı çevriliş yolu ilə hakimiyyətə gətirən cəmiyyət ondan inqilabi islahatlar və Ermənistanı böhran bataqlığının içindən çıxarmağı gözləyir. Lakin erməni ekspertlər bu barədə pessimistdirlər.

→ 12

## Laçın - Müstəqil Dövlətlər Birliyinin mədəniyyət paytaxtı

### Bu tarixi qərar Azərbaycanın regiondakı mədəni əhəmiyyətini artırmaqla yanaşı, beynəlxalq nüfuzunu da möhkəmləndirir

Laçın rayonunun timsalında biz dirçələn Azərbaycanı, dirçələn torpaqlarımızı görürük. İnsanlarımızın qayıdışı ilə doğma torpaqlarımızda başlanan yeni həyat, yurda dönmüş həmvətənlərimizin burada qürurla yaşaması, Şuşada, Laçında qurulan toy-büsat öz torpaqlarında haqq-ədalət uğrunda mübarizə aparan, ədalətli müharibədə qalib gələn, bütün çətinliklərə, keşməkeşlərə baxmayaraq, öz haqqını, özünə aid olanı almağı bacaran Azərbaycanın zəfərinin təntənəsidir. Dövlət başçısının da bəyan etdiyi kimi, bizim başqa ölkələrin torpağında gözümüz yoxdur, ancaq öz torpağımızı da heç kimə verən deyilik.

→ 10



# Niderland Krallığı Parlamentinin Nümayəndələr Palatasının 2024-cü il 10 oktyabr tarixli qətnamələrinə Azərbaycan Respublikası Milli Məclisinin münasibəti

**Azərbaycan Respublikasının Milli Məclisi 2024-cü il oktyabrın 10-da Niderland Krallığı Parlamenti Nümayəndələr Palatasının qəbul etdiyi iki qətnaməni Azərbaycanı əsassız olaraq hədəf alan və Cənubi Qafqaz regionunda real vəziyyəti təhrif edən qərəzli siyasi aktlar kimi qətiyyətlə rədd edir və pisləyir.**



Yalan və saxta məlumatlar üzərində qurulan bu qətnamələr heç də sülhə, sabitliyə və konstruktiv dialoqa kömək göstərmir, əksinə, yaxın tarixə və bu günümüzə aid faktları, beynəlxalq hüquq normalarını və prinsiplərini, regionda qalmaqda olan çağırışları gözardı edən qeyri-obyektiv və birtərəfli yanaşmanı ortaya qoyur. Azərbaycan ərazisində ağır cinayətlər törətməkdə, o cümlədən terrorizm, separatizm, qəsdən adam öldürmə əməllərində və beynəlxalq humanitar hüququn digər ağır pozuntularında təqsirləndirilən şəxslərin "erməni hərbi əsirləri" kimi qələmə verilərək azadlığa buraxılmasının tələb edilməsi qanunun aliliyi prinsipinə açıq hörmətsizlikdən başqa bir şey deyildir və terrorizmin kökünün kəsilməsi, sülh və insanlıq əleyhinə cinayətlər törətmiş şəxslərin məsuliyyətə cəlb edilməsi səylərini sarsıdır.

Erməni mədəni irsinin guya talan edilməsi barədə saxta ittihamların irəli sürülməsi isə Azərbaycan torpaqlarının Ermənistan tərəfindən 30 illik işğalı dövründə xalqımızın mədəni, dini və tarixi sərvətlərinin dağıdılmasına və mənimsənilməsinə göz yumulması və bunların ört-basdır edilməsi kampaniyasının tərkib hissəsi və davamıdır. Azərbaycan mədəni irsinin sistemli şəkildə məhv edilməsinə səssiz qalan Niderland Parlamenti Nümayəndələr Palatasının Azərbaycana qarşı həyata keçirdiyi növbəti ədalətsiz siyasi aksiya dərin təəssüf doğurur.

Azərbaycan Respublikasının Milli Məclisi bunu da bildirməyi zəruri sayır ki, sözügedən qərəzli qətnamələrin Niderlandın xarici işlər naziri Kaspar Veldkamp tərəfindən rəğbətlə qarşılanması və müdafiə edilməsi Niderland hökumətinin Cənubi Qafqaz dövlətləri barəsində siyasətində seçmə yanaşmaya əsaslandığını nümayiş etdirir, doğma yurdları işğal edilmiş, etnik təmizləməyə, insanlıq əleyhinə cinayətlərə, o cümlədən soyqırımı aktlarına məruz qoyulmuş azərbaycanlıların əzablarını etiraf etmək əvəzinə Ermənistan Respublikasının Azərbaycana qarşı ərazi iddialarına etinasızlıq göstərilməsindən və bu iddiaların üstüörtlü şəkildə dəstəklənməsindən ibarət olan dövlət siyasəti yeritdiyini bir daha açığa çıxarır. Əslində, bu bizim üçün təəccüblü deyildir. Niderlandın müstəmləkəçilik keçmişi Asiya, Afrika və Amerikanın çoxsaylı xalqlarının əsarət altına alınması və istismar edilməsi, onlara qarşı törədilən cinayət faktları ilə zəngindir. Müstəmləkə imperiyasını qəddar taktikanın köməyi ilə genişləndirən Niderland həmişə mənfəəti insan hüquqlarından üstün tutmuşdur. Niderlandın inkişafında müstəmləkə əsarətində olan ölkələrin milli sərvətlərinin talan edilməsinin böyük payı olmuşdur. Bu gün də dünyanın müxtəlif xalqlarını asılı vəziyyətdə saxlayan Niderlandın öz müstəmləkəçilik tarixinin ağır nəticələrinin aradan qaldırılmasına səy göstərdiyini bəyan etməsi riyakarlıq kimi qiymətləndirilməlidir.

Azərbaycan Respublikasının Milli Məclisi Niderland Parlamentinin Nümayəndələr Palatasını, eləcə də bu ölkənin rəhbər vəzifəli şəxslərini Cənubi Qafqaz bölgəsində sülh və sabitlik yaradılması səylərinə mane olan hərəkətlərə son qoymağa çağırır. Biz Niderland Krallığı da daxil olmaqla, bütün dövlətlərlə konstruktiv dialoqu və əməkdaşlığı dəstəkləyirik, lakin bu cür dialoq və əməkdaşlıq qarşılıqlı hörmətə və faktların vicdanlı etirafına əsaslanmalıdır.

# Malayziyada Azərbaycanın diaspor siyasəti və uğurları haqqında məlumat verilib

**Malayziyada səfərdə olan Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov bu ölkənin milli birlik nazirinin müavini xanım senator Sarasvati Kandasami ilə görüşüb.**






Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, nazir müavini bu səfəri iki ölkə arasında münasibətlərin artan xətt üzrə inkişafının göstəricisi kimi qiymətləndirib, Malayziya Birlik Nazirliyinin tarixi və fəaliyyət istiqamətləri haqqında məlumat verib.

Fuad Muradov əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən Azərbaycan dövlətinin diaspor siyasəti, komitənin fəaliyyəti, xaricdə yaşayan soydaşlarımızın milli kimliklərini unutmaması üçün həyata keçirilən layihələr barədə ətraflı məlumat verib.

Malayziya Tərcümə və Kitab İnstitutunda (Malaysian Institute of Translation & Books) keçirilən görüşdə qurumun rəhbəri Nur Amin Əhməd Diasporla İş üzrə Dövlət Komitəsi və Azərbaycanın Malayziyadakı səfirliyi ilə sıx əməkdaşlıqdan məmnun olduğunu bildirib. Bu günlərdə çapdan çıxan və Azərbaycan ədiblərinin əsərlərindən ibarət olan "Ürəkdə yazı" adlı kitabı üçtərəfli əməkdaşlığın səmərəli nəticəsi adlandırıb.

Komitənin fəaliyyət istiqamətlərindən birinin də Azərbaycana dost xalqlarla münasibətlərin inkişafı olduğunu deyən sədr il ərzində müxtəlif dillərdə kitabların çapını dəstəklədiklərini söyləyib.

Bundan başqa, Türkiyənin Malayziyadakı səfiri Əmir Salim Yüksəl və Yunus Əmrə İnstitutunun Malayziyadakı nümayəndəliyinin rəhbəri Ömər Altunla da görüşlər keçirilib.

Səfər çərçivəsində komitə sədri Malayziyanın Dövlət Teleradiosuna və Cənub-Şərqi Asiya regionunun nüfuzlu "Awani Global" televiziyasına müsahibə verib. Azərbaycan-Malayziya münasibətlərinin hazırkı səviyyəsi və inkişaf perspektivləri, COP29, Avropanın enerji təhlükəsizliyində Azərbaycanın rolu, Qarabağ münaqişəsi, rəsmi Bakının Cənubi Qafqazda sülh və təhlükəsizlik naminə planlarından bəhs edib.

Daha bir görüş Malaya Universitetinin və Putra Malaya Universitetinin professor və müəllim heyəti ilə olub, Azərbaycan haqqında təqdimatlar edilib. Qarabağ münaqişəsi, Azərbaycan torpaqlarının 30 illik işğaldan Prezident İlham Əliyevin rəhbərliyi ilə cəmi 44 gün ərzində azad olunması, rəsmi Bakının sülh gündəliyi professor və müəllim heyətinin diqqətini çəkib. Malaya Universitetinin professoru Roy Antoni Rocers Azərbaycanın işğaldan azad olunmuş torpaqlarına səfər etdiyini, ermənilər tərəfindən dağıdılmış məscidləri və tarixi-mədəni abidələri öz gözləri ilə gördüyünü bildirib.

Növbəti görüşlər Selanqor Xalq Kitabxanası Korporasiyasında və Malayziya Milli Kitabxanasında olub. Xalqları yaxınlaşdırmağın ən sınanmış yolunun mədəniyyət olduğu, Azərbaycan-Malayziya münasibətlərinin inkişaf etdirilməsində kitab mübadiləsinin və kitabxanalararası əməkdaşlığın da öz payı olduğu vurğulanıb, bu səbəbdən komitənin hər il müxtəlif dillərdə onlarla kitabın çapına dəstək olduğu qeyd edilib.

Görüşlərin sonunda universitetlərə və kitabxanalara Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə çap olunmuş Azərbaycan haqqında kitablar hədiyyə olunub.

# "Şuşa şəhərinin islam memarlıq irsi" adlı simpoziumun ikinci gününə yekun vurulub















**Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin təşkilatçılığı, ICESCO-nun dəstəyi ilə Şuşa şəhərində keçirilən "Şuşa şəhərinin islam memarlıq irsi" adlı simpoziumun ikinci günü başa çatıb.**

AZƏRTAC xəbər verir ki, oktyabrın 13-dək davam edəcək simpoziumda Azərbaycan, Türkiyə, Misir, BƏƏ, Tunis, Keniya, İordaniya, İtaliya, Mərakeş, Səudiyyə Ərəbistanı və Böyük Britaniyadan olan 80-dən çox memar iştirak edir.

Simpoziumun açılış mərasimində Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Aydın Kərimov, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müavini İlqar İsbatov, UNESCO-nun nümayəndəsi Pietro Laureano, ICESCO rəsmisi Bilal Çələbi çıxış edərək, Şuşa memarlığının özəlliyindən danışıb, islam dünyası memarlığının tarixi və önəmi baxımından bu tədbirin memarlıq sahəsinin inkişafı üçün böyük töhfə olacağını bildiriblər.

Rəsmi hissədən sonra simpozium panel müzakirələrlə işini davam etdirib. Panel sessiyalarda "Tarixi şəhər toxumasının regenerasiyası", "Abidələrin müasir həyatı" mövzularında təqdimatlar, moderator və auditoriya müzakirələri olub. Memarlar təcrübələrini bölüşərək, fikir mübadiləsi aparıblar.

Qeyd edək ki, oktyabrın 11-də işə başlayan simpozium Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə əlaqədar hazırlanan tədbirlər planı çərçivəsində keçirilir.

Simpoziumun ilk günü Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin icraçı direktoru Tural Novruzov və qoruğun memarları qonaqları Şuşa şəhərinin tarixi-memarlıq abidələri, bərpa olunan məscidləri, qala divarları ilə yaxından tanış ediblər. Qədim tarixi mədəniyyət abidələri ilə zəngin olan Şuşa şəhərinin bərpası istiqamətində həyata keçirilən genişmiqyaslı infrastruktur layihələri və abadlıq, quruculuq, yenidənqurma işlərinin davam etdirilməsi barədə məlumat verilib, şəhər gəzintisi təşkil edilib.

# "Yüksəliş" qalibləri Qarabağ Universitetinin tələbələrinə təlim keçiblər

**"Yüksəliş" müsabiqəsinin qalibləri Qarabağ Universitetinin tələbələrinə təlim keçiblər.**





Müsabiqənin işçi qrupundan AZƏRTAC-a bildirilib ki, ikinci "Yüksəliş" müsabiqəsinin qalibi Nərgiz İsmayılova tələbələrə şəxsi və ünsiyyət bacarıqları, strateji baxış, müstəqil özünüifadə üsulları və digər həyati bacarıqların inkişaf etdirilməsi barədə məlumat və tövsiyələr verib.

Təlimdə çıxış edən birinci "Yüksəliş" müsabiqəsinin qalibi Ruslan Mirzəliyev isə tələbələri şəxsi inkişaf sahəsində əhəmiyyətli addımlar atmaq barədə məlumatlandırıb.

Sonda qaliblər tələbələrin suallarını ətraflı şəkildə cavablandırıb, mövzular ətrafında müzakirə aparıblar.

# Keçmiş məcburi köçkünlər gələn ildən Turşsuya qayıdacaqlar

**Dövlət başçısının iştirakı ilə təməli qoyulan Turşsu qəsəbəsində işlər davam etdirilir.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu barədə jurnalistlərə açıqlamasında Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Aydın Kərimov məlumat verib.

Onun sözlərinə görə, Turşsuda hazırda yeni konsepsiyaya uyğun olaraq ilk 50 evin inşası aparılır və əsas infrastruktur tamamilə yenidən qurulur. Həmçinin bu kənddə də turizm infrastrukturu olacaq.

"Düşünürəm ki, gələn il artıq Turşsuya keçmiş məcburi köçkünlərin qayıtmasını təmin etməyə başlayacağıq", - deyə o əlavə edib.



# Azərbaycan hibrid təhdidlərə qarşı savaşa başlayır

## Erməni təəssübünü çəkənlərin məkrli planları hər zaman olduğu kimi, iflasa məhkumdur

**Torpaqlarımızın işğaldan azad edilməsi, Qarabağda erməni separatizminə son qoyulması Azərbaycanın tək müasir deyil, son bir neçə əsri əhatə edən tarixinin mühüm hadisələridir. Həm Vətən müharibəsində qazanılan Zəfər, həm də antiterror əməliyyatlarının nəticələri xalqımızı qürurlandırdı, dostlarımızı sevindirdi.**

### İlham ƏLİYEV: "Arxayınlaşmağa heç cür haqqımız yoxdur"

Böyük məmnunluqla vurğulayaq ki, Azərbaycanın ərazi bütövlüyünü təmin etməsi beynəlxalq ictimaiyyət tərəfindən qəbul edilir. Amma qələbəmizi həzm edə bilməyənlər də var və Fransa başda olmaqla dünya erməniliyinin ölkəmizə qarşı ortaya qoyduqları riyakarlıq bunu təsdiq edir. Amerika Birləşmiş Ştatlarının bir qrup konqresmeninin bir neçə gün əvvəl bu ölkənin Dövlət katibi Entoni Blinkenə yazdıqları məktub da bu qəbildəndir. ABŞ konqresmenlərinin ABŞ hökumətinə Azərbaycana qarşı sanksiyaların tətbiq olunması ilə bağlı müraciət etmələri riyakarlıqdır. Əlbəttə, onların nə demələrinin, nə qərarlar qəbul etməsinin heç bir əhəmiyyəti yoxdur və olmayacaqda. Azərbaycanı hansısa sanksiya ilə öz yolundan döndərmək mümkün deyil.

Amma bütün bunlar göstərir ki, müxtəlif formalarda Azərbaycanın qələbəsinə, uğurlarına kölgə salmaq, ölkəmizə qarşı çirkin oyunlar oynamaq, Ermənistanın revanşizm niyyətinə dəstək vermək cəhdləri var. Xarici KİV-də dərc olunan məqalələr, Ermənistanın təəssübünü çəkən dövlətlərin rəsmi şəxslərinin açıqlamaları da bundan xəbər verir. Bu niyyətlə müxtəlif sosial şəbəkələrin imkanlarından istifadə edərək dövlətimizə və uğurlarımıza qara yaxmağa çalışırlar.

Prezident İlham Əliyev sentyabrın 23-də VII çağırış Azərbaycan Milli Məclisinin ilk iclasında bununla bağlı deyib: "Ermənistanın arxasında dayanan ölkələr, onların fəaliyyəti, onların qəbul etdikləri qərarlar, qətnamələr, açıqlamalar - bütün bunlar onu göstərir ki, bizə qarşı bu çirkin oyun hələ bitməyib. Bizim qələbəmizi həzm edə bilməyən xarici dairələr bizə qarşı yeni planlar hazırlayır. Bu barədə geniş danışmağa ehtiyac yoxdur. Ancaq əldə edilmiş məlumatlar bunu göstərir. Media kampaniyasının, qarayaxma, iftira, böhtan kampaniyalarının da məqsədi məhz budur - bu mövzunu daim gündəlikdə saxlamaq və ümidlə yaşamaq ki, nə vaxtsa Azərbaycan büdrəsə, zəifləsə, yenidən bizə qarşı bu çirkin hərəkətlər başlasın. Yəni biz bunu bilməliyik. Azərbaycan iqtidarı bunu bilir, ictimaiyyət də bunu bilməlidir. Ona görə bizim arxayınlaşmağa heç cür haqqımız yoxdur".

### Mübarizə imkanlarından səmərəli istifadə edilir

Bu məsələ VII çağırış Azərbaycan Milli Məclisinin payız sessiyasının ilk plenar iclasında müzakirə olundu. Həmin iclasda qəbul edilən qərarlardan biri Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyasının yaradılması oldu.

Məsələ ilə bağlı çıxış edən Milli Məclisin Sədri Sahibə Qafarova bildirdi ki, ideoloji təhlükəsizlik məsələləri dövlətimizin ərazi bütövlüyü və suverenliyi bərpa edildikdən sonra xüsusi aktuallıq kəsb etmişdir: "Xalqımızın tarixi qələbəsi ilə barışa bilməyən qüvvələr Cənubi Qafqaz bölgəsinə daxil olmaq və burada möhkəmlənmək, Azərbaycanın işlərinə qarışmaq cəhdlərindən əl çəkmirlər. Bu səbəbdən ölkəmiz mürəkkəb xarakterli təhlükələr ilə üzləşir. Ənənəvi çağırışların qalmaqda davam etdiyi bir şəraitdə yeni, daha məkrli müdaxilə formaları da ortaya çıxır".

Bütün bunlar Azərbaycanın milli maraqlarına xələl gətirməyə, müstəqilliyimizi və ictimai-siyasi sabitliyimizi təhlükə altına almağa yönəlib. Milli Məclis Sədrinin qeyd etdiyi kimi, bir sıra hallarda biz üstüörtülü təhdidlər və müdaxilələr ilə qarşılaşırıq, cəmiyyətimiz və dövlətimiz ilə manipulyasiya etmək cəhdləri çoxgedişli təbliğat kampaniyaları, saxta şüarlar ilə pərdələnir.

Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyanın vəzifə və səlahiyyətləri məlumdur. Bunlar "Azərbaycan Respublikası Milli Məclisinin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyasının yaradılması haqqında" Milli Məclisin qərarında öz əksini tapıb. Komissiyanın fəaliyyətinə Milli Məclisin və ya Milli Məclis Sədrinin tapşırığı ilə xarici müdaxilələr və hibrid təhdidlər ilə bağlı hallara dair hesabatların hazırlanması, xarici müdaxilələr və hibrid təhdidlər ilə bağlı önləyici addımlara dair təkliflərin hazırlanması, Milli Məclisin və ya Milli Məclis Sədrinin tapşırığı ilə xarici müdaxilələr və hibrid təhdidlər barədə ictimaiyyətin məlumatlandırılması məqsədilə bəyanatların verilməsi, Milli Məclisin və ya Milli Məclis Sədrinin tapşırığı ilə zəruri hallarda müvafiq istiqamətlər üzrə ictimai dinləmələrin keçirilməsi, aidiyyəti icra hakimiyyəti və məhkəmə hakimiyyəti orqanları ilə əməkdaşlıq əlaqələrinin qurulması, qanunvericiliyin xarici müdaxilələr və hibrid təhdidlər baxımından araşdırılması, təhlil edilməsi və bununla bağlı Milli Məclisə təkliflərin verilməsi, Milli Məclisin və ya Milli Məclis Sədrinin tapşırığı ilə zəruri hallarda komitələrin qanun layihələrinə dair müvafiq müzakirələrində iştirak edilməsi, hibrid təhdidlər üzrə beynəlxalq əməkdaşlıq, Milli Məclisin beynəlxalq parlament təşkilatlarında nümayəndələri ilə əlaqələndirilmiş fəaliyyət göstərilməsi kimi məsələlər daxildir.

Bütün bu qeyd olunanlar göstərir ki, komissiyanın fəaliyyəti çevik, aktiv və preventiv olacaq. Ümumilikdə isə bu komissiyanın yaradılması göstərir ki, Azərbaycan hibrid təhdidlərə qarşı mübarizədə imkanlardan səmərəli istifadə edir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Hərbi gücümüzün və döyüş imkanımızın artırılması, peşəkar kadr hazırlığı başlıca məqsədimizdir

**Oktyabrın 12-də müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə Müdafiə Nazirliyində xidməti müşavirə keçirilib.**



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, videobağlantı formatında keçirilən müşavirəyə nazir müavinləri, qoşun (qüvvə) növü komandanları və müavinləri, Əlahiddə Ümumqoşun Ordunun rəhbər heyəti, baş idarə, idarə rəisləri, hərbi birlik və birləşmə komandirləri, həmçinin Milli Müdafiə Universitetinin və tabeliyində olan xüsusi təyinatlı təhsil müəssisələrinin rektorları cəlb olunub.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi naminə şəhid olan soydaşlarımızın xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Çıxış edən müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları çatdırıb.

Ali Baş Komandanın yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında və digər çıxışlarında səsləndirdiyi fikirləri müşavirə iştirakçılarının diqqətinə çatdıran müdafiə naziri hərbi gücümüzün və döyüş imkanımızın artırılmasının, eləcə də peşəkar kadr hazırlığının başlıca məqsədimiz olduğunu xüsusi vurğulayıb. Nazir qoşunların xidməti-döyüş fəaliyyətində dövlət başçısının fikirlərindən irəli gələn tapşırıqların icrasının daim diqqət mərkəzində saxlanmasının əhəmiyyətini qeyd edib.

Müşavirədə şərti sərhəddə əməliyyat şəraiti və qoşunlarda bölmələrin gündəlik fəaliyyəti təhlil edilib, mövcud vəziyyətlə bağlı məruzələr dinlənilib.

Müdafiə naziri qoşunların döyüş qabiliyyətinin daim yüksək səviyyədə saxlanılması, ayıq-sayıqlığın artırılması, eləcə də revanşist qüvvələrin şərti sərhəddə ehtimal olunan bütün təxribatlarına qarşı preventiv tədbirlərin görülməsinə hazır olmaqla bağlı aidiyyəti üzrə konkret tapşırıqlar verib.

General-polkovnik Z.Həsənov cari il sentyabrın 24-26-da "Bakı-Ekspo" Mərkəzində keçirilən "ADEX" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisinin təşkilatçılığını, ölkəmizdə və digər qabaqcıl dövlətlərdə istehsal edilən müasir silah-texnika nümunələrinin stendlərdə nümayiş etdirilməsini yüksək qiymətləndirib.

Azərbaycan Ordusunun arsenalına daxil edilən yeni silah, texnika və hava hücum vasitələrinin imkanlarının, düzgün istismarının, həmçinin gecə və gündüz şəraitində effektiv döyüş tətbiqinin keçirilən təlimlərdə dərindən öyrənilməsinin əsas tələblərdən biri olduğu müşavirə iştirakçılarının nəzərinə çatdırılıb.

Hərbi hissələrdə qoşun xidmətinin effektiv təşkili, digər dövlət qurumları ilə qarşılıqlı fəaliyyətdə ərazilərimizin mina və partlamamış döyüş sursatlarından təmizlənməsi, kəskin relyef və sərt iqlim şəraitində yerləşən mövqelərin mühəndis-istehkam cəhətdən yaxşılaşdırılmasının, təminat yollarının daim işlək vəziyyətdə saxlanılmasının vacibliyi vurğulanıb.

Dövlət rəhbərliyinin diqqət və qayğısı nəticəsində hərbi qulluqçuların sosial-məişət şəraitinin və mənəvi-psixoloji vəziyyətinin yüksək səviyyədə olduğunu qeyd edən nazir, xüsusilə qış dövründə bölmələrin maddi-texniki və tibb təminatı məsələlərinə diqqət yetirilməsinin zəruriliyini bildirib.

Sonda mütəmadi olaraq müxtəlif mövzularda maarifləndirici tədbirlərin keçirilməsi, şəxsi heyət tərəfindən təhlükəsizlik və nizam-intizam qaydalarına riayət edilməsi, təlim-tədris və təhsil prosesində keyfiyyət göstəricilərinin nəzarətdə saxlanılması barədə əlavə göstərişlər verilib.

# "Hərbi əməliyyatların idarə olunmasında beynəlxalq qaydalar üzrə yüksəksəviyyəli seminar" başa çatıb



**Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycan nümayəndəliyinin birgə təşkilatçılığı ilə Bakıda keçirilən "Hərbi əməliyyatların idarə olunmasında beynəlxalq qaydalar üzrə yüksəksəviyyəli seminar" (SWIRMO) başa çatıb.**



Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, sonuncu gün yekun müzakirələr aparılıb və ümumilikdə seminar təhlil olunub.

BQXK-nin əhəmiyyətli tədbirlərindən biri hesab olunan, 70-dən çox ölkədən yüksəkrütbəli zabitlərin iştirak etdiyi seminarın bağlanış mərasimində iştirakçılara sertifikatlar verilib.

Seminar hərbi əməliyyatların idarə olunmasına dair beynəlxalq qaydaların anlaşılmasını dərinləşdirmək, müasir döyüş meydanında beynəlxalq humanitar hüququn tətbiqi ilə bağlı problemləri araşdırmaq, bu hüququ hərbi planlaşdırma, əməliyyatların aparılması və əxlaqi dəyərlərin gücləndirilməsinə inteqrasiya etmək, həmçinin eyni məkanda çalışan hərbçilərlə BQXK arasında qarşılıqlı anlaşmanı inkişaf etdirmək məqsədilə keçirilib.

# *Gürcü politoloq:* "Qərb ölkələri Cənubi Qafqazda inkişaf etmiş dövlətlərin olmasını istəmirlər"

**"ABŞ və Qərb ölkələri Cənubi Qafqazda inkişaf etmiş, güclü, demokratik dövlətlərin olmasını istəmirlər. Onlara müstəqil, suveren, güclü dövlətlər deyil, onlardan asılı, əmrlərini sözsüz yerinə yetirən ölkələr və bu ölkələrin də başında duracaq siyasətçilər lazımdır. Bu gün Gürcüstana edilən təzyiqlər, tətbiq olunan sanksiyalar bunu bir daha sübut edir".**



Bu sözləri AZƏRTAC-a müsahibəsində gürcü politoloq Levan Mamaladze deyib.

Onun sözlərinə görə, ABŞ və Qərb ölkələrinin Gürcüstana təzyiqi oktyabrın 26-da keçiriləcək seçkilərlə bağlıdır. Onlar bu cür addımlarla Gürcüstanda keçiriləcək seçkilərə təsir etmək, hakimiyyətə öz adamlarını gətirmək niyyətindədirlər. Bu, Gürcüstanın daxili siyasətinə birbaşa müdaxilədir. Onlar düşünürlər ki, belə addımlar atmaqla Qərb və ABŞ tərəfdən dəstəklənən şəxslər seçkilərdə qalib gələcək. Başa düşürük ki, Gürcüstan ABŞ-nin yanında kiçik ölkədir, amma buna baxmayaraq, indiki zamanda müstəqil siyasət aparır. Bu meqagüc isə Gürcüstanın daxili siyasətini məhv edib onların sözü ilə oturub-duranları hakimiyyətə gətirmək istəyir.

Politoloq deyir ki, ABŞ və Qərbin Cənubi Qafqazda söz sahibi olmaq niyyəti təkcə Gürcüstana təzyiq göstərməklə bitmir. Onlar Azərbaycana da eyni cür təzyiq edirlər. Azərbaycanın torpaqları işğal altında olanda yalnız quru bəyanatlar verməklə kifayətlənən bu güclər Azərbaycan öz torpaqlarını işğaldan azad etdikdən sonra yenidən əsl simalarını göstərməyə başladılar. Yəni bu gün Azərbaycan da sanksiyalara, təzyiqlərə məruz qalan ölkədir. Lakin Azərbaycan heç kimə baş əymədən müstəqil siyasət yürüdür, inkişaf edir. Gürcüstan da bu yolu tutub, sübut etməyə çalışır ki, müstəqil dövlətdir və özü öz ayaqları üstündə durmağı bacarır.

L.Mamaladze hesab edir ki, burada maraqlar kəsişir və Gürcüstan da bu kəsişmənin tən ortasındadır. Amma gürcü xalqı hansı addımı atacağını bilir. Gürcü xalqı milli maraqlarını qoruyacaq.

O hesab edir ki, ABŞ-ın bunu etməkdə daha bir məqsədi Gürcüstanın böyük layihələrin tərkib hissəsi olmağının qarşısını almaqdır.

"Böyük dövlətlər Gürcüstanın Çinlə münasibətlərinin düzəlməsini və böyük layihələr həyata keçirməsini, qədim İpək yolunun işə düşməsini istəmirlər. Amma onlar əmin olsunlar ki, Gürcüstan öz suverenliyini qoruyur və bundan sonra da qoruyacaq", - deyə L.Mamaladze vurğulayıb.

# Azərbaycan Daşkənddə turizmin inkişafına həsr edilən konfransda təmsil olunub

**Azərbaycan nümayəndələri "İpək yolu: turizm prizmasından əməkdaşlığın perspektivləri" mövzusunda Daşkənddə keçirilən beynəlxalq elmi konfransda iştirak ediblər.**



AZƏRTAC Özbəkistan mediasına istinadla xəbər verir ki, turizm sektorunda "yaşıl texnologiya"ların tətbiqi və ekoloji təhlükəsizlik mövzularının diqqət mərkəzində olduğu tədbirdə Azərbaycan, Özbəkistan, Rusiya, Misir, Hindistan Qazaxıstan, Çin, Qırğızıstan və başqa ölkələrdən olan 250-dən çox mütəxəssis böyük İpək yolu üzərində yerləşən ölkələrdə turizmin inkişafı sahəsində əlaqələrin inkişafı perspektivlərini müzakirə ediblər.

Konfransda təqdim olunan elmi məruzələrdə Avrasiya məkanında erkən dövlətlərdən böyük imperiyalara qədər formalaşmış tarixi proseslər, tarixi-mədəni irs, eləcə də turizm potensialının inkişaf perspektivlərindən bəhs edilib. Məruzəçilər vurğulayıblar ki, turizmin inkişafı tarix-mədəniyyət abidələrinin qorunması, bərpası və təbliği, habelə təbiət qoruqlarında ekoloji standartlara əməl olunması, ən müasir "yaşıl texnologiya"ların tətbiqi ilə sıx şəkildə əlaqəlidir.

# "Ermənistanın baş nazirinin iddiaları reallıqların təhrif olunması cəhdidir"

**Ermənistan baş nazirinin oktyabrın 12-də "Sülh qovşağı: təhlükəsizlik və demokratiyanın vəhdəti" adlı forumda çıxışı zamanı 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatla bağlı səsləndirdiyi iddialar reallıqların təhrif olunması cəhdidir.**

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycanın Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Ermənistanın baş nazirinin çıxışı zamanı Azərbaycana qarşı səsləndirdiyi fikirlərə dair şərhində bildirib.

O qeyd edib ki, üçtərəfli Bəyanata istinadən kommunikasiyaların açılması məsələsində Ermənistan baş nazirinin açıqlaması bu ölkənin rəhbərliyinin üzərinə götürdüyü öhdəliklərə dair etinasızlığını növbəti dəfə nümayiş etdirir. Üçtərəfli Bəyanatın 9-cu bəndində Ermənistanın kommunikasiyaların açılması xüsusunda hansı öhdəliklərinin olduğu, nəqliyyat əlaqəsi üzrə nəzarətin hansı formada təşkil olunacağı açıq-aydın təsvir olunub.

"Ümumiyyətlə, Ermənistanın üçtərəfli Bəyanatdan irəli gələn digər öhdəlikləri pozan fəaliyyətlərinə nəzər salsaq, ilk növbədə, İrəvanın 2023-cü ilin sentyabr ayınadək öz qanunsuz silahlı birləşmələrini Azərbaycanın Qarabağ bölgəsindən çıxarmaması, humanitar məqsədlər üçün nəzərdə tutulmuş Laçın dəhlizi vasitəsilə Azərbaycan ərazilərinə əlavə silah-sursat, hərbi texnika, minalar ötürməsi, ölkəmizə qarşı mina terrorunu davam etdirməsi xatırlanmalıdır.

Üzdə Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan edən Ermənistan tərəfinin Azərbaycan ərazilərində saxladığı qondarma rejimin təbliğatını aparması və Ermənistan baş nazirinin 2023-cü il sentyabrın 2-də qondarma "müstəqillik" ilə bağlı separatçı xunta rejiminə təbriklərini çatdırdığını heç kəs unutmayıb. Bu baxımdan Ermənistan baş nazirinin Laçın dəhlizinin fəaliyyəti, qaçqın və məcburi köçkünlərin qayıdışına dair ritorik sualları yalnız təəccüb və istehza doğurur", - deyə Ayxan Hacızadə bildirib.

Mətbuat katibi, həmçinin əlavə edib ki, Ermənistan tərəfinin hərbi əsirlərin qaytarılmadığını iddia etməsi gülüncdür. Azərbaycan indiyə qədər humanizm prinsipinə sadiq qalaraq bütün hərbi əsirləri Ermənistan tərəfinə təhvil verib. Erməniəsilli hərbi cinayətkarların və separatçı xunta rejiminin nümayəndələrinin azad edilməsi barədə isə Azərbaycan hər hansı bir öhdəliyə malik deyil.

"Sonda bir daha Azərbaycanın tarixi və beynəlxalq hüquqi çərçivədə mövcud olan ərazilərinə qarşı əsassız iddialarından, tarixin saxtalaşdırılmasından əl çəkməyən, beynəlxalq hüququn prinsiplərini kobudcasına pozan, yürütdüyü təcavüz siyasəti səbəbindən düşdüyü vəziyyətdən nəticə çıxarmayan Ermənistan rəhbərliyini heç bir çərçivəyə sığmayan, reallıqları təhrif edən və nəticə etibarilə beynəlxalq ictimaiyyəti yanıltmağa yönələn açıqlamalardan çəkinməyə çağırırıq", - deyə XİN-in rəsmisi vurğulayıb.

# Dmitri SAVELYEV: "Rusiya-Azərbaycan əməkdaşlığının bütün səviyyələrdə inkişafına böyük diqqət göstərilir"

**Bu günlərdə Kremldə MDB Dövlət Başçıları Şurasının iclası çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevlə Rusiya Prezidenti Vladimir Putin arasında növbəti görüş keçirilib. Rusiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri, Dövlət Dumasının deputatı Dmitri Savelyev AZƏRTAC-ın müxbiri ilə söhbətində bu danışıqları və iki ölkə arasında münasibətlərin müsbət dinamikasını şərh edib.**



*- Dmitri İvanoviç, Rusiya və Azərbaycan liderlərinin bu yaxınlarda keçirilən görüşü artıq bu il dördüncü oldu. Bu gün ölkələrimiz arasında əməkdaşlığın hansı aspektləri belə yüksək səviyyədə müntəzəm qarşılıqlı fəaliyyəti zəruri edir?*

- Bu görüşlə bağlı razılıq Vladimir Putinin bu ilin avqustunda Azərbaycana dövlət səfəri zamanı əldə olunub. Sonra hökumətlərimiz tam tərkibdə toplandı, çoxlu fundamental qərarlar qəbul edildi, Rusiya ilə Azərbaycan arasında əməkdaşlığın bütün sahələrdə genişləndirilməsi istiqamətində qarşıya çoxlu vəzifələr qoyuldu. Bu günlərdə Kremldə Vladimir Putin bir daha ölkələrimiz arasında əlaqələrin dinamik və müsbət inkişaf etdiyini qeyd edərək, infrastruktur və enerji, ticarət və investisiya sahələri də daxil olmaqla bütün böyük birgə layihələri qarşılıqlı maraq doğuran, perspektivli, real və canlı adlandırdı. Öz növbəsində, İlham Əliyev yüksəksəviyyəli qərarların hər birinin icrasının daimi nəzarətdə olduğunu, bütün razılaşmaların yerinə yetirilməsi üçün konkret addımların hazırlandığını xüsusi vurğuladı. Həmin məsələlər xüsusən də bu yaxınlarda MDB Dövlət Başçıları Şurasının iclası çərçivəsində liderlərimizin görüşünün əsas mövzusu oldu. Rusiya ilə Azərbaycan arasında bütün səviyyələrdə və sahələrdə əməkdaşlığın inkişafına belə bir yüksək diqqəti qiymətləndirməmək olmaz.

Əlbəttə, unutmaq olmaz ki, ölkələrimizin prezidentləri arasında səmimi, zamanın sınağından keçmiş dostluq münasibətləri var. Beləliklə, son görüşdə İlham Heydər oğlu fürsətdən istifadə edərək Vladimir Vladimiroviçi keçmiş doğum günü münasibətilə təbrik etdi. Dövlət başçılarının istənilən görüşü, şübhəsiz ki, həm də qeyri-rəsmi ünsiyyət anlarını ehtiva edir, çox vaxt üzbəüz olur və bu, liderlərimiz və xalqlarımız arasında qarşılıqlı anlaşmanın dərinləşməsinə, Rusiya ilə Azərbaycan arasında mehriban qonşuluq, həqiqi müttəfiqlik münasibətlərinin mühüm sütunlarından birinin möhkəmləndirilməsinə kömək edir.

*- Sizcə, MDB Dövlət Başçıları Şurasının iclasında irəli sürülən hansı təşəbbüslər və qəbul olunan qərarlar Rusiya-Azərbaycan münasibətlərinin inkişafında mühüm nəticələr verə bilər?*

- Burada xatırlatmaq istərdim ki, Rusiyanın təşəbbüsü ilə 2025-ci il MDB-də nasizmə qarşı mübarizədə "Sülh və birlik ili" elan edilib. Tezliklə bütün birlik ölkələri bizim İkinci Dünya müharibəsində ümumi Qələbəmizin 80 illik yubileyini qeyd edəcəklər. Ötən iclasda bu məsələyə çox diqqət yetirildi. Rusiya və Azərbaycanı artıq bir çox birgə yubiley tədbirləri gözləyir, onların bir çoxu, məsələn, "Yaddaş qatarı" fəal şəkildə həyata keçirilir. Bundan əlavə, Moskvada keçirilən görüşdə MDB məkanında hərbi abidələrin ümumi reyestrinin yaradılması zərurəti kimi yeni təkliflər də səslənib. Azərbaycanda, hamımızın bildiyi kimi, İkinci Dünya müharibəsi qəhrəmanlarının xatirəsi müqəddəs şəkildə ehtiramla yad edilir. Biz bu istiqamətdə birgə fəaliyyət göstərməliyik. Bundan əlavə, Vladimir Putin MDB-də "Əmək Şöhrəti Şəhəri" fəxri adının təsis edilməsi və onun Böyük Qələbənin əldə olunmasında, müharibənin çətin vaxtlarında cəbhədə və dinc əhaliyə köməklik göstərilməsində xüsusi xidmətləri olan birlik şəhərlərinə verilməsi təşəbbüsü ilə çıxış edib. Tam əminəm ki, Bakı bu yüksək ada layiq görülən ilk şəhərlərdən biri olmalıdır. Müharibə illərində Bakı neftçiləri sadəcə əmək şücaəti deyil, əsl möcüzə göstərərək rekord neft hasilatını təmin ediblər. Bütün yanacağın demək olar ki, 80 faizi cəbhəyə Azərbaycan tərəfindən verilirdi, yəni, faktiki olaraq, hər on təyyarədən, tankdan, gəmidən səkkizi müharibə illərində Bakı neftinin məhsulları ilə işləyirdi. Bu, Azərbaycanın faşizm üzərində Böyük Qələbəyə həqiqətən əvəzsiz töhfəsi oldu və Rusiyada heç vaxt unudulmayacaq.

*- Rusiya ilə Azərbaycan arasında birgə böyük layihələrdən danışarkən, xüsusilə "Şimal-Cənub" nəqliyyat dəhlizinin inkişafını qeyd etməmək olmaz. Bununla bağlı hansı irəliləyişləri qeyd edə bilərsiniz?*

- Bu, çox böyük işdir və dayanmır. "Şimal-Cənub" nəqliyyat dəhlizinin inkişaf etdirilməsi mövzusu xüsusilə Moskvada Rusiya xarici işlər nazirinin müavini Andrey Rudenko ilə Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev arasında keçirilən işgüzar görüşdə əsas müzakirə mövzularından biri olub, həmçinin Azərbaycan nümayəndə heyətinin MDB Dövlət Başçıları Şurasının bu yaxınlarda keçirilmiş iclasında iştirakının bir hissəsidir. Görüşdə həm Azərbaycan-Rusiya-İran formatında, həm də Qafqaz dövlətləri və onların qonşularının birgə fəaliyyətini nəzərdə tutan "3+3" formatında mühüm əməkdaşlıq məsələləri müzakirə olunub. Həmin görüşdə Azərbaycan ilə Ermənistan arasında münasibətlərin nizamlanması üzrə danışıqlar prosesi də müzakirə olunub. Bu proses zamanı Azərbaycan və Rusiya bu gün də regionda sülhün və sabitliyin tezliklə möhkəmləndirilməsinin zəruriliyi barədə tam qarşılıqlı anlaşmaya malikdirlər.

*- Rusiya ilə Azərbaycan arasında parlamentlərarası əməkdaşlığın bugünkü perspektivlərini necə qiymətləndirirsiniz?*

- Bildiyiniz kimi, ötən ay Azərbaycanda növbədənkənar parlament seçkiləri keçirildi. Seçkilərin nəticələri hakim partiyanın xalq tərəfindən dəstəkləndiyini və bu kontekstdə ölkədə aparılan kursun, o cümlədən Rusiya ilə münasibətlərin daha da möhkəmləndirilməsinə yönələn siyasətin təsdiqi oldu. Elə bu günlərdə Azərbaycan Milli Məclisi parlamentlərarası əlaqələr üzrə işçi qrupların rəhbərlərini seçdi, Rusiya ilə əlaqələr üzrə qrupa isə Qarabağdan deputat seçilməzdən əvvəl 18 ildən artıq Azərbaycanın ölkəmizdəki səfirliyinə rəhbərlik etmiş Polad Bülbüloğlu başçılıq edəcək. Bu istedadlı diplomat, ictimai xadim və yaradıcı ziyalı həm öz Vətəninin əsl vətənpərvəri, həm də Rusiyanın səmimi dostudur və onun oktyabrın əvvəlində "Aleksandr Nevski" ordeni ilə təltif edilməsi bunun əyani sübutudur. Əminəm ki, Rusiya ilə Azərbaycan arasında parlamentlərarası əlaqələr bundan sonra da dinamik şəkildə inkişaf edəcək, bütün ümumi məsələlər üzrə mövqelərimizin yaxınlaşmasına töhfə verəcək.

# 13-14 oktyabr 2020-ci il

## ZƏFƏR gündəliyi

# İlham ƏLİYEV: "Bizi heç kim dayandıra bilməz"

### 13 oktyabr

**Humanitar atəşkəs rejiminə əməl etməyən Ermənistan silahlı qüvvələrinin bölmələri yenidən qruplaşma və yerdəyişmə apararaq cəbhənin bəzi istiqamətlərində kiçik qruplarla Azərbaycan Ordusunun mövqelərinə basqın etməyə cəhd göstərib. Oktyabrın 12-dən 13-nə keçən gecə cəbhənin Ağdərə-Ağdam və Füzuli-Hadrut istiqamətlərində ümumi vəziyyət gərgin olaraq qalıb.**

### Düşmənin 10 raket qurğusu, 2 zirehli texnikası, 3 PUA-sı məhv edilib



Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 3 ədəd BM-21 "Qrad" YARS, 1 ədəd "Tor-M2KM" ZRK, 1 ədəd ZSU-23-4 "Şilka" özüyeriyən zenit qurğusu, 2 ədəd PDM-2, 3 ədəd 2A36 "Qiasint-B" topu, 1 ədəd KS-19 zenit topu, 1 ədəd D-20 haubitsa topu, 3 ədəd PUA, bir neçə avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

### 100-ə yaxın erməni hərbçisi pusquya salınıb

Əldə olunan məlumata əsasən, döyüş əməliyyatları zamanı Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının müdafiə sahəsində mövqe tutan şəxsi heyəti məhv edilib.



1-ci motoatıcı alayın bir bölüyə qədər canlı qüvvəsi isə pusquya salınıb, hərəkətdə olan avtomobil texnikası sıradan çıxarılıb.

### Erməni terrorçu, "Körpə" ləqəbli Mqer Arutyunyan məhv edilib

Əsgəran istiqamətində hərəkət edən 4-cü motoatıcı alayın avtomobil texnikası kolonu və Ermənistanın Sisian yaşayış məntəqəsi istiqamətindən işğal olunmuş ərazilərimizə doğru hərəkət edən könüllülərdən ibarət bir qrup atəş zərbəsi ilə məhv edilib.

Döyüş əməliyyatları zamanı tanınmış erməni terrorçu, "Körpə" ləqəbli Mqer Arutyunyan da zərərsizləşdirilib. Müqaviməti qırılan düşmən bölmələrində kütləvi fərarilik halları müşahidə olunub. Humanitar atəşkəs rejiminə əməl edən qoşunlarımız bütün cəbhəboyu əməliyyat üstünlüyünü saxlayıb.

### Tərtər və Ağcabədi atəşə tutulub, 100-dən çox ev dağıdılıb





Humanitar atəşkəs rejimini kobudcasına pozan Ermənistan silahlı qüvvələri səhər saatlarından etibarən Tərtər və Ağcabədi rayonlarının ərazisini yenidən atəşə tutub.

Sentyabrın 27-dən bəri Tərtər şəhərində, rayonun qəsəbə və kəndlərində sakinlərə məxsus 100-dən çox ev dağılıb, 500-dək evə, 51 çoxmənzilli yaşayış binasına, 60 yardımçı tikiliyə, 18 sosial, 7 istehsal, 27 ticarət obyektinə, 14 inzibati binaya ziyan dəyib. Mülki şəxslər arasında ölən və yaralananlar var.

Ağcabədi rayonunun yaşayış məntəqələrində isə 11 ev tamamilə dağılıb, 150-yə yaxın evə, 1 uşaq bağçasına, 1 məscidə və 1 kitabxanaya ziyan dəyib.

### İlham ƏLİYEV: "Terror aktı Azərbaycan xalqının iradəsini qıra bilməz"



Prezident İlham Əliyev Türkiyənin "Haber Türk" televiziya kanalına verdiyi müsahibəsində Ermənistanın humanitar atəşkəs rejimini pozmasının səbəblərini açıqlayıb.

Prezident deyib ki, ermənilər hər zaman döyüş meydanında məğlubiyyətə uğrayanda belə çirkin əməllərə əl atırlar. Mülki şəxslərə, əliyalın insanlara qarşı qəddarlıq göstərmək Ermənistanın terrorçu rəhbərliyi üçün adi bir haldır. Azərbaycan xalqı bunu Xocalı soyqırımının timsalında görüb: "Ermənistanın bu xain hücumunun səbəbi odur ki, onlar bu münaqişənin coğrafiyasını genişləndirmək, üzv olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını münaqişəyə cəlb etmək istəyirlər. Məhz buna görə Ermənistan ərazisindən Azərbaycan torpaqlarını, mülki şəxsləri atəşə tuturlar və bizi cavab atəşinə təhrik edirlər".

Gəncəyə, Tərtərə raket zərbələrinin endirilməsini Ermənistanın növbəti terror aktı adlandıran Prezident əminliklə vurğulayıb ki, bu terror aktı Azərbaycan xalqının iradəsini qıra bilməz. Azərbaycan düşmənə qarşı daha böyük əzmlə, iradə ilə vuruşaraq öz torpaqlarını azad edəcək və bayrağını işğal edilmiş bütün ərazilərdə qaldıracaq.

Bu xain hücumlar zərrə qədər də bizi yolumuzdan döndərə bilməz. Ermənistanın məqsədi Azərbaycanı dayandırmaqdır. Onlar zənn edirlər ki, bu xain zərbələr Azərbaycanı dayandıracaq: "Bizi heç kim dayandıra bilməz. Çünki biz haqq yolundayıq, bu yolu davam edirik və uğurla davam edirik. Bayrağımızı qaldırırıq, torpaqlarımızı azad edirik və sona qədər bu yolu gedəcəyik".

### 14 oktyabr

### Ali Baş Komandandan növbəti müjdəli xəbər




Ali Baş Komandan İlham Əliyev rəsmi "X" səhifəsində paylaşım edərək xalqa növbəti müjdəli xəbəri verib:

"Rəşadətli Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu, Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndləri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

### Tərtər, Ağdam və Ağcabədinin ərazisi artilleriya atəşinə tutulub

Səhər saatlarından başlayaraq Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazisi artilleriya atəşinə tutulub. Ordumuz tərəfindən adekvat tədbirlər görülüb.

Humanitar atəşkəs rejiminə əməl edən qoşunlarımız bütün cəbhəboyu əməliyyat üstünlüyünü saxlayıblar.

### Düşmənin ballistik raket kompleksi sıradan çıxarılıb



Səhər saat 08:36 radələrində düşmən tərəfindən Azərbaycanın işğal olunmuş Kəlbəcər rayonuna yaxın sərhədyanı ərazilərdə növbəti əməliyyat-taktiki ballistik raket kompleksinin start vəziyyətinə gətirildiyi müşahidə edilib.

Mülki insanlar arasında tələfata səbəb olmaq, mülki infrastruktura xələl yetirmək məqsədilə operativ-taktiki raketlər Gəncə, Mingəçevir və ölkəmizin digər şəhərlərinə doğru hədəflənib. Legitim hərbi hədəf kimi start vəziyyətində olan raketlər qabaqlayıcı dəqiq zərbə ilə sıradan çıxarılır.

### Bölmələrimiz əks-həmlə əməliyyatı həyata keçirib

Cəbhənin Ağdərə-Ağdam və Füzuli-Hadrut-Cəbrayıl istiqamətlərində vəziyyət gərgin olaraq qalıb.

Ermənistan silahlı qüvvələrinin bölmələri gecə ərzində cəbhənin bəzi istiqamətlərində Azərbaycan Ordusunun mövqelərinə basqın edib və görülən tədbirlər nəticəsində itki verərək geri oturdulub.

Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin 5 ədəd T-72 tankı, 3 ədəd BM-21 "Qrad" YARS, 1 ədəd "Osa-AKM" ZRK, 1 ədəd PDM-2, 1 ədəd KS-19 zenit topu, 2 ədəd D-30 haubitsa topu, bir neçə avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

### Düşmənin 3 ədəd "Elbrus" ballistik raket qurğusu məhv edilib

Hərbi İnformasiya Mərkəzində brifinq keçirilib. Azərbaycan Hərbi Hava Qüvvələrinin qərargah rəisi, general-mayor İkram Əliyev mülki əhalini hədəfə alan Ermənistan silahlı qüvvələrinə məxsus operativ-taktiki komplekslərin taktiki xüsusiyyətləri və onların imkanları barədə məlumat verib.

Qeyd edilib ki, 9K72 operativ-taktiki raket kompleksinin (OTZK) 8K14 raketi ilə birgə canlı qüvvəni, idarəetmə məntəqələrini, aerodromları və digər əsas obyektləri məhv etmək üçün təyin olunur. Bu kompleks silahlanmaya 1967-ci ildə qəbul edilib. Raketin atəş məsafəsi 50-300 kilometr, maksimal uzaqlığa uçma vaxtı 5 dəqiqə, start çəkisi 5862 kiloqram, doldurulmamış raketin çəkisi isə 2076 kiloqramdır. Uzunluğu 11 metr 164 santimetrdir. Korpusunun diametri 880 millimetrdir. Kompleksin ümumi çəkisi 37 ton, döyüş heyəti 8 nəfərdən ibarətdir.

Əgər bu raket atılsaydı, o, hətta Bakının da ətrafına düşə bilərdi. Yəni bu sistemlər Dağlıq Qarabağ ərazisinə keçsəydi, həmin sistemlərin atəş məsafəsi Bakıdan da uzağı hədəfləyərdi.

Brifinqdə o da vurğulanıb ki, gecə saat 01:00 radələrində iki ədəd və səhər 08:30 radələrində bir ədəd olmaqla, ümumilikdə, üç ədəd "Elbrus" ballistik raket qurğuları ordumuz tərəfindən aşkarlanaraq məhv edilib.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***



# Antiazərbaycançı şəbəkənin qəsd planı iflasa məhkumdur

**Dünyanın müxtəlif qütblərində baş verən toqquşmalar, müharibələr, terror təhlükələri, təhdidlər onu deməyə əsas verir ki, artıq beynəlxalq hüquq, insan haqları, ədalət prinsipləri yalnız sözdədir, əməldə bunu görmək olmur.**



## Azərbaycana təzyiq etmək əbəsdir

### İlham ƏLİYEV: "Qafqazda aparıcı dövlət bizik və bizimlə hər kəs hesablaşmalıdır"

Şükürlər olsun ki, hazırda dünyada ən sabit məkanlardan biri Cənubi Qafqazdır. Artıq bu regionda olan 30 illik müharibə, 200 illik münaqişə başa çatıb. İndi regionda yeni reallıqlar yaranıb. Bunun da müəllifi Azərbaycan Prezidenti İlham Əliyevdir.

İkinci Qarabağ müharibəsi və antiterror tədbirlərindən sonra Ermənistanla Azərbaycan arasında başlanan sülh danışıqları müsbət nəticəyə doğru gedir. Amma baş verən son hadisələr göstərir ki, 30 il regionda sülh olmasını istəməyən, status-kvonun olduğu kimi qalmasında maraqlı olan qüvvələr yenə də köhnə ssenarilərini işə salıblar. Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanması üçün vasitəçi rolunu oynamaq istəyən bəzi dairələr sadəcə olaraq prosesə öz maraqları çərçivəsində yanaşdıqları üçün hər dəfə danışıqlarda problemlər yaşandı. Amma qalib və məğlub məsələni baş-başa çözdükdə sərhədlərin delimitasiya və demarkasiya məsələsində ortaq məxrəcə gəlindi. Bu, bir daha həqiqəti üzə çıxartdı: vasitəçilər regionda sülhün təmin olunmasında maraqlı deyillər.

Son günlər isə bu prosesdə xüsusən ABŞ-nin yenə ikiüzlü siyasəti özünü büruzə verməyə başlayıb. Yenə də Azərbaycanı hansısa sanksiyaların tətbiqi ilə hədələmək niyyətindədirlər. Prezident İlham Əliyev oktyabrın 4-də Cəbrayıl şəhərində bununla bağlı həqiqətləri bir daha açıqlayaraq bəyan etdi ki, Amerika Konqresinin 60 ermənipərəst konqresmeni Azərbaycana növbəti sanksiyalar tətbiq etmək üçün hökumətə müraciət edib.

Bütün bunlar göstərir ki, bir tərəfdən guya bölgədə sülhün bərqərar olmasını istəyən ABŞ digər tərəfdən də Azərbaycanın əleyhinə çirkin kampaniya aparır.

Prezident İlham Əliyev oktyabrın 8-də Moskvada "Rossiya-1" televiziya kanalına müsahibəsində də bu məsələyə bir daha aydınlıq gətirib. İlham Əliyev bildirib ki, Azərbaycan hər zaman istənilən sanksiyalara qəti şəkildə qarşı çıxıb.

Tarixə nəzər salan dövlət başçısı ABŞ-nin 1992-ci ildə Azərbaycana qarşı tətbiq etdiyi sanksiyanı bir daha xatırladıb. Həmin vaxt guya Azərbaycana "Ermənistanı blokadada saxlayır" qondarma ittihamı tətbiq edilmişdi. Bu sanksiyalar 2001-ci ildə, ABŞ-nin öz yüklərini hava, quru və dəniz yolu ilə Azərbaycan ərazisindən Əfqanıstana tranzit daşımalı olduğu vaxt aradan qaldırılmışdı: "Partiya mənsubiyyətindən asılı olmayaraq, Birləşmiş Ştatların Prezidenti ABŞ Əfqanıstandan qaçana qədər hər il bu sanksiyaları öz qərarı ilə ləğv edirdi. Bundan sonra bizə qarşı həmin sanksiyalar yenidən tətbiq olundu. Mən onları nankorluqda ittiham edəndə, hesab edirəm ki, bu, həmin kontekstdə istifadə olunacaq ən sərt söz deyil".

Bununla İlham Əliyev Azərbaycana sanksiya tətbiq etmək istəyənlərə lazımi mesajlarını vermiş oldu. ABŞ öz xeyrinə olan prosesdə istənilən sanksiyanı ləğv edir, sonra yenidən öz çirkin əməlini bir daha həyata keçirir.

İndi yenə də həmin ssenari təkrarlanır. Bir tərəfdən Ağ Ev bəyan edir ki, tərəflər arasında sülhün əldə olunması üçün nə dəstək lazımdırsa, göstərməyə hazırdır, digər tərəfdən də Azərbaycanı sanksiyalarla hədələyir.

Bu proses özü də ölkəmizin mühüm beynəlxalq konfransa hazırlığı ərəfəsində baş verir. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının növbəti Tərəflər Konfransı ərəfəsində Vaşinqton toplantıya sədrlik edən dövlətə təzyiqi artırır. Bunu dünya görür və əsl qiyməti də verir.

Məsələn, Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova Moskvada keçirilən brifinqdə bildirib ki, Qərb ölkələri iqlim dəyişmələri mövzusundan siyasi rıçaq kimi istifadə edirlər, lakin Azərbaycana təzyiq etmək əbəsdir. Onun sözlərinə görə, hər il BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının növbəti Tərəflər Konfransı ərəfəsində Vaşinqtonun sədrlik edən dövlətə təzyiqi artırması klassik taktikadır: "Biz bunu 2022-ci ildə Şarm Əl-Şeyxdəki Tərəflər Konfransı ərəfəsində müşahidə etmişik. Həmin vəziyyət keçən il Dubayda da baş vermişdi. İndi biz uydurma bəhanə ilə Azərbaycana təzyiqin necə artdığını müşahidə edirik".

Rusiya XİN-in rəsmisi vurğulayıb ki, Azərbaycana təzyiq etmək əbəsdir. Müxtəlif məsələlərlə bağlı Azərbaycana dəfələrlə təzyiqlər göstərilib. Söhbət təkcə suveren dövlətlərə təzyiqin yolverilməzliyi ilə bağlı prinsipial mövqedən getmir, həm də ondan gedir ki, bu mövzu real olaraq mütəxəssislərin cəlb olunmasını tələb edir. Bu, ABŞ-nin sadəcə olaraq özünə faydalı olan bir qərarı qəbul etdirmək məqsədilə hər kəsin başına vuracağı növbəti siyasi "dəyənək" olmamalıdır. Ortaya atılmış bu cür xəbərlərdən iqlim dəyişmələri ilə bağlı populyar mövzu ətrafında süni şəkildə ajiotaj yaratmaq üçün istifadə olunur. M.Zaxarovanın fikrincə, reallıqda ABŞ və Qərb ölkələri iqlimin maliyyələşdirilməsi sahəsində yeni kollektiv kəmiyyət məqsədinə dair razılaşmanı, həmçinin beynəlxalq karbon vahidləri bazarının yaradılması məsələsi üzrə konsensusa nail olunmasını faktiki olaraq sabotaj edirlər.

Bütün bunların fonunda görünür ki, Ermənistan, başda Fransa olmaqla Qərb ölkələri, eləcə də ABŞ-nin dəstəyi ilə Cənubi Qafqazda yenidən xaos yaratmaq istəyirlər. Onların əsas niyyəti Azərbaycanın artan nüfuzuna xələl yetirmək və əldə etdiyi tarixi hərbi-siyasi Zəfərə kölgə salmaqdır.

Əlbəttə ki, bu hücumların, kampaniyaların heç bir təsiri olmayacaq. İlham Əliyevin də söylədiyi kimi, Azərbaycan Cənubi Qafqazın lider ölkəsidir və Bakının rəyi öyrənilmədən, maraqları nəzərə alınmadan bölgədə hər hansı addımın atılması mümkünsüzdür. Regionda söz sahibi Azərbaycandır.

İlham Əliyevin bu mesajını hər kəs yaxşı xatırlamalıdır: "Burada söz sahibi bizik, Qafqazda aparıcı dövlət bizik, iqtisadi, siyasi, hərbi, hər cəhətdən aparıcı dövlət bizik, bizimlə hər kəs hesablaşmalıdır. Həm Ermənistan, həm onun arxasında duran, onlara yalançı vədlər verən xarici dairələr bizimlə hesablaşmasalar, peşman olacaqlar".

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Məkrli oyunların arxasında ABŞ və Fransa var

## Azərbaycan COP29-a yüksəksəviyyəli evsahibliyi ilə onlara gözdağı verəcək

**"COP29 kimi mötəbər, beynəlxalq əhəmiyyətli tədbirin Azərbaycanda keçirilməsi, 200-ə yaxın ölkənin bu qərarı dəstəkləməsi ölkəmizə olan inamın, etibarın və etimadın təzahürüdür. Dünya ölkələri Azərbaycanın uğurlu inkişafını, tərəqqisini görür və bəyənir. Bu mənada ölkəmizin belə tədbirə evsahibliyi dost ölkələri sevindirməkdədir".**



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Vüqar İskəndərov deyib. Azərbaycanı sevməyən qüvvələrin olduğunu deyən siyasətçi qeyd edib ki, Ermənistan, havadarları, bəzi beynəlxalq təşkilatlar, antiazərbaycançı qüvvələr bu qlobal tədbir öncəsi aktivləşməyə başlayıblar.

Prezident İlham Əliyev çıxışlarında bu məsələyə toxunaraq söyləyib ki, COP29 konfransı yaxınlaşdıqca Azərbaycana qarşı təzyiqlər artacaq. Həqiqətən də, son vaxtlar Ermənistan başda olmaqla, havadarları bu və ya digər formada Azərbaycana təzyiqləri artırmağa başlayıblar. "Hazırda bu ölkələrin başında Amerika durur. ABŞ Dövlət Departamenti hər vəchlə Cənubi Qafqazın lider ölkəsi olan Azərbaycana təzyiq rıçaqlarını işə salmağa cəhd edir. Prezident İlham Əliyevin qətiyyəti, uğurlu siyasəti təsirlərin qarşısını almaqdadır. Son zamanlar ABŞ Konqresinin, Parlamentinin Dövlət Departamenti ilə məktublaşması, departamentin sifarişinin yerinə yetirilməsi Prezident İlham Əliyev tərəfindən də konkret faktlarla qeyd edilib. Bu məsələ, demək olar ki, ifşa olundu", - deyə o əlavə edib.

Deputat vurğulayıb ki, ABŞ-nin adətən COP konfranslarını təşkil edən ölkələrə müxtəlif formalarda təzyiqlər göstərdiyinin şahidi olmuşuq. Amerika bununla həm transmilli şirkətlərini qorumağa, həm də bu təsirlər vasitəsilə həmin ölkəni təzyiq altında saxlayaraq hər hansı qərarların verilməsində öz gücünü göstərmək və digər maraqlarını güdmək siyasətini həyata keçirir. Qərbin, ABŞ-nin son zamanlarda COP29-la bağlı Azərbaycana qarşı cəfəng fikirləri tirajlaması həm ABŞ deputatlarının, siyasilərinin, həm də Fransanın bu sahədə aktivliyində, konfransın keçirilməsi ilə bağlı cürbəcür dezinformasiyaların yayılmasında özünü açıq-aydın göstərir.

V.İskəndərov bildirib ki, ölkəmizi dəstəkləyən yüzlərlə dövlət var: "Azərbaycanın yanında olan dövlətlər, transmilli şirkətlər bu tədbirin də digərləri kimi ən yüksək səviyyədə təşkil olunacağını bilirlər. Ölkəmizin beynəlxalq tədbirlərin keçirilməsindəki təcrübəsi dünyaya yaxşı məlumdur. Biz də əminik ki, dövlət başçısının, vacib sahələrə rəhbərlik edən Birinci vitse-prezident Mehriban Əliyevanın təşkilat komitəsinin, yaradılan vacib institutların birgə fəaliyyəti nəticəsində COP29 indiyədək keçirilən tədbirlərdən daha yüksək səviyyədə hazırlığı ilə yadda qalacaq".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Haqlı və güclü olan Azərbaycandır

## İstənilən təxribata, qərəzli münasibətə layiqli cavab veriləcək

**Vətən müharibəsindən sonra Azərbaycana qarşı artan təzyiqlərdə, qarayaxma kampaniyalarında bəzi dövlətlər, təşkilatlar xüsusilə seçilirlər. Belə dairələr xüsusilə ölkədə keçiriləcək beynəlxalq, mötəbər tədbirlər ərəfəsində daha da fəallaşırlar.**



Bu baxımdan son zamanlar Qərbin, ABŞ-nin Azərbaycan əleyhinə addımları təəccüb doğurmur. Bu təzyiq siyasətində isə ABŞ Dövlət Departamenti aparıcı rol oynayır. Qarşıdan gələn beynəlxalq konfrans ərəfəsində Azərbaycanın imicini zədələmək, eyni zamanda Cənubi Qafqazla bağlı məqsədlərini həyata keçirmək istəyənlər bu dövrdən yararlanmağa çalışırlar.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin aparıcı məsləhətçisi, siyasi şərhçi Mətin Məmmədli bildirib ki, son zamanlar Qərb, xüsusilə ABŞ tərəfindən Azərbaycana qarşı təzyiqlərin artdığı müşahidə edilir. Onun fikrincə, bunlar təsadüfi deyil: "COP29 beynəlxalq tədbiri ərəfəsində müəyyən dövlətlər, dairələr bu dövrdən istifadə edərək ölkəmizə qarşı təzyiq göstərərək, nəticədə regionla bağlı hansısa cari məqsədlərinə nail ola biləcəklərini hesab edirlər. Yəni onların düşüncəsi bundan ibarətdir. COP29-la bərabər, ABŞ-də yaxınlaşan seçkilər dövrü də rəsmi Vaşinqtonun ölkəmizə qarşı təzyiqləri artırmasında böyük rol oynayır. Belə ki, Bayden Administrasiyası erməni diasporundan dəstək almaq üçün Azərbaycana qarşı təzyiqləri artırmaq siyasətini həyata keçirir. Düşünürlər ki, bu yolla Birləşmiş Ştatlarda güclü təsir imkanları olan erməni diasporunun səsini qazanacaqlar. Qeyd etdiyim kimi, COP29-un yaxınlaşması ilə bağlı məsələlər də mövcuddur, bəzi Qərb dövlətləri, ABŞ düşünürlər ki, bu dövrdən istifadə etməlidirlər", - deyə o əlavə edib.

O qeyd edib ki, bütün bunlarla bərabər, ABŞ-nin nəinki son zamanlarda regionda olan müəyyən geosiyasi maraqları, bütövlükdə İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanla ABŞ arasındakı ziddiyyətlərdə siyasi maraqları rol oynayır. Ancaq Azərbaycan hansısa dövlət tərəfindən təzyiqlərə, haqsız hücumlara məruz qalsa da, hər zaman qarşı tərəfə adekvat cavab verib. Eynilə bu dəfə də adekvat cavab verir.

Siyasi təhlilçi bildirib ki, ölkəmizlə diktə dili ilə danışmaq istəyənlər, nəhayət, anlamalıdırlar ki, bununla nəyəsə nail ola bilməzlər: "Azərbaycan həm haqlıdır, həm də güclüdür. Haqlı və güclü olan dövlətlə digər dövlətlər diktə və təzyiq dili ilə danışa və öz maraqlarını həyata keçirə bilməzlər".

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# COP29 yaxınlaşır, təzyiqlər artır

## Azərbaycan əleyhinə siyasətin formalaşmasında ABŞ Dövlət Departamenti aparıcı rol oynayır

**"ABŞ Konqresində ermənipərəst senator və konqresmenlərin Azərbaycana qarşı qərəzli, ikili standartlar siyasətinin dəfələrlə şahidi olmuşuq. Lakin son zamanlar antiazərbaycançı fəaliyyətdə ABŞ Dövlət Departamenti xüsusilə seçilir".**



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Elman Nəsirov deyib. O qeyd edib ki, hətta iş ora gəlib çatıb ki, ənənəvi olaraq Azərbaycan əleyhinə siyasətin formalaşmasında və istiqamətlənməsində ABŞ Dövlət Departamentinin aparıcı rol oynadığı üzə çıxır.

"Prezident İlham Əliyevin oktyabrın 4-də Cəbrayılda keçmiş məcburi köçkünlərlə görüşdə qeyd etdiyi kimi, 60-a yaxın konqresmen və senator ABŞ Dövlət katibinə müraciət edərək ölkəmizə qarşı sərt siyasətin, sanksiyaların tətbiqi kimi məsələləri gündəmə gətiriblər. Dövlət başçısı vurğuladı ki, Konqresdən gedən məktubun müəllifi də elə ABŞ Dövlət Departamentidir. Yəni bu cür - açıq-aşkar şəkildə Azərbaycana qarşı təzyiq siyasətini həyata keçirirlər. Bizim də "günahımız" odur ki, suverenliyimizi və ərazi bütövlüyümüzü bərpa etmişik. ABŞ-nin düşüncəsinə görə, onların icazəsi olmadan bunu etmişik", - deyə o əlavə edib.

E.Nəsirov bildirib ki, bəzi dairələr Azərbaycanın ərazi bütövlüyünü təmin etməsini Qarabağın işğalı kimi təqdim edir və ermənilərin könüllü şəkildə Qarabağdan çıxmasını isə etnik təmizləmə kimi beynəlxalq ictimaiyyətə sırımaq istəyirlər. Zamanı da təsadüfi seçməyiblər. Anti-Azərbaycan siyasətinin yeni məzmun, yeni keyfiyyət halına keçməsi COP29 tədbiri yaxınlaşdıqca daha çox hiss olunur. Müxtəlif istiqamətlərdən koordinasiya olunmuş təzyiqlərlə üz-üzəyik. ABŞ Dövlət Departamenti, Konqresi bir tərəfdən, digər tərəfdən Avropa Şurası Parlament Assambleyası payız sessiyasının ilk iclasında Azərbaycan əleyhinə bəyanatlar səsləndirir.

Deputat bildirib ki, Avropa Parlamentinin də analoji addımlarına dəfələrlə şahidlik etmişik: "Bu cür anti-Azərbaycan siyasət adətən ölkəmiz mühüm tədbirlərə evsahibliyi edərkən daha çox müşahidə edilir. COP29 ərəfəsində belə təzyiqlərin artma dinamikasını görürük. Dünyanın ürəyinin Bakıda döyünəcəyi bir zamanda onlar beynəlxalq ictimai fikrə öz yalanlarını, dezinformasiyalarını sırımağa çalışırlar. Amma bütün bunların heç bir nəticəsi olmayacaq. Əvvəla, bizim işimiz haqq işidir. İkincisi də Azərbaycan güclü dövlətdir, güclü lideri, ordusu, iqtisadiyyatı var. Bundan başqa, güclü müttəfiqlərimiz var. Səfərbər olmuş cəmiyyət və vətəndaş həmrəyliyi hökm sürür. Xalq-hakimiyyət birliyi monolitdir. Bu reallıqlar fonunda Azərbaycana qarşı istənilən təzyiqin həyatakeçmə əmsalı sıfra bərabərdir".

*Əsmər QABİLQIZI,*
*"Azərbaycan"*

# Niderland Parlamentində qəbul edilmiş sənədlər açıq-aşkar qərəzlidir və azərbaycanlılara qarşı ayrı-seçkiliyin nümayişidir

**COP29 yaxınlaşdıqca Azərbaycana qarşı vahid mərkəzdən idarə olunan hücumlar intensivləşməkdədir. Niderland Parlamenti tərəfindən oktyabrın 10-da qəbul edilmiş sənədlər və Niderland xarici işlər nazirinin həmin sənədlərin müzakirəsi zamanı ifadə etdiyi mövqe tamamilə qəbuledilməzdir. Bu barədə AZƏRTAC-a Qərbi Azərbaycan İcmasından bildirilib.**

Qeyd olunub ki, birincisi, bu sənədlərdə əks olunan iddialar böhtandır. Azərbaycanda saxlanılan məlum şəxslər hərbi əsirlər deyil, müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlərdə ittiham olunanlardır. Bu səbəbdən onların hərbi əsir kimi qələmə verilməsi hüquqa hörmətsizlikdir.

İkincisi, erməni mədəni irsinin təhlükə altında olması iddiaları da heç bir əsası olmayan uydurmadır. Azərbaycanın Şuşa şəhərində yerləşən Qazançı kilsəsinin yenicə başa çatdırılmış bərpasının da göstərdiyi kimi, Azərbaycanda heç bir "erməni abidəsi" təhlükə altında deyil. Azərbaycan dini və etnik mənsubiyyətindən asılı olmayaraq bütün mədəni irsin qorunmasını təmin etmişdir.

Bu və Niderland Parlamentinin Azərbaycana qarşı son dövrlər qəbul etdiyi çoxsaylı digər sənədlər açıq-aşkar qərəzlidir və azərbaycanlılara qarşı ayrı-seçkiliyin nümayişidir. Azərbaycanofob siyasət yürüdən Fransa, Litva, Kanada kimi, Niderland da Ermənistan tərəfindən bir milyon azərbaycanlıya qarşı etnik təmizləmə aparılmasına, Ermənistanda yüzlərlə məscidin və digər mədəni abidələrin dağıdılmasına, eləcə də vaxtilə işğal altında olmuş ərazilərdə Azərbaycan mədəni irsinə vurulan zərərə, yüzlərlə şəhər və kəndin dağıdılmasına biganə qalmışdır.

"Nəhayət vurğulamaq istərdik ki, qanlı müstəmləkə keçmişinə malik, islamofobiyanın geniş tüğyan etdiyi, Srebrenitsa soyqırımına görə məsuliyyət daşıyan və Boner, Sint Eustatius, Saba, Aruba, Kurasao və Sint Maarten kimi dəniz ərazilərində dekolonizasiya öhdəliklərini yerinə yetirməkdən imtina edən Niderlandın beynəlxalq hüquq və insan hüquqlarından danışmağa mənəvi haqqı yoxdur.

Biz Qərbi Azərbaycan İcması olaraq, Niderland hökumətindən və parlamentindən Azərbaycana qarşı ittihamları və hücumları dayandırmağı, azərbaycanlılara qarşı irqi ayrı-seçkiliyi dayandırmağı və Ermənistandan qovulmuş azərbaycanlıların öz evlərinə qayıtmaq hüququna hörmət etməyi tələb edirik", - deyə icmadan bildirilib.




# Azərbaycanda "yaşıl memarlıq" erası başlayır

## Beynəlxalq Maliyyə Korporasiyası ilə əməkdaşlıq bu prosesi daha da sürətləndirəcək

**Sentyabrın 30-dan oktyabrın 4-dək paytaxtımızda keçirilən ilk Bakı İqlim Fəaliyyəti Həftəsi (BCAW) planetimizin iqlim təqvimində mühüm dövr kimi tarixə düşdü. Tədbir adaptasiya olunan iqlim həllərini araşdırmaq və həll variantlarının tətbiqini sürətləndirmək üçün bütün dünyadan 700-dən çox insanı, o cümlədən dayanıqlılıq üzrə müxtəlif ekspert və siyasətçiləri, eləcə də özəl sektor və vətəndaş cəmiyyətinin üzvlərini bir araya gətirdi.**





BMT Baş Assambleyasının 79-cu sessiyası və Nyu York İqlim Həftəsindən sonra reallaşan Bakı İqlim Fəaliyyəti Həftəsi birmənalı şəkildə COP sədrliklərinin üçlüyü tərəfindən elan edilmiş 1,5°C hədəfinə aparan yol xəritəsi çərçivəsində həyata keçirilən işlərin daha geniş vüsət almasının təminatçısı və COP29 sədrliyinin fəaliyyət gündəliyinə dəstək oldu. London İqlim Fəaliyyəti Həftəsi ilə tərəfdaşlıq çərçivəsində baş tutan bu görüş və müzakirələrin hazırda daha aktual sayılan iqlim probleminə qabaqlayıcı yanaşmanı ehtiva edərək iqlim həllərinin inkişafı məsələsində beynəlxalq əməkdaşlıq və sinerjini daha da gücləndirəcəyi gözlənilir. COP29 ərəfəsində ölkəmizin regional liderliyini nümayiş etdirən və milli "yaşıl keçid" təşəbbüslərində aparıcı rol oynamaq öhdəliyini götürən bu toplantı həmçinin yerli və regional kontekstlərə əsaslanan "yaşıl keçid"lə bağlı müzakirələrin təşviqi üçün mühüm dönüş nöqtəsi kimi dəyərləndirilə bilər.

Xəbər verildiyi kimi, builki tədbirin əsas mövzuları "Enerji keçidi", "Şəhərlər - Urbanizasiya olunmuş mühitlər", "Su təhlükəsizliyi", "Qida və kənd təsərrüfatı", "Kiçik və orta biznes müəssisələri" və "Yaşıl bacarıqlar" olmuşdur. Bu çərçivədə toplantıda müxtəlif mövzular üzrə məruzələr dinlənilmiş, müzakirələr aparılmışdır. Tədbirdə həmçinin Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə Beynəlxalq Maliyyə Korporasiyası (IFC) arasında "Azərbaycanda "yaşıl binalar"ın inkişaf konsepsiyasına dair yol xəritəsinin hazırlanması üçün əməkdaşlıq haqqında" Anlaşma Memorandumu imzalanmışdır. Azərbaycan hökuməti ilə beynəlxalq maliyyə qurumları arasında möhkəm və səmərəli əməkdaşlığın rəmzi olan bu sənəd yalnız "yaşıl binalar"ın inkişafını deyil, eyni zamanda iqtisadiyyatın müasir standartlara uyğunluğunu və davamlı inkişafını əhatə edir. "Yaşıl binalar" enerji səmərəliliyi, ətraf mühitin mühafizəsi və insan sağlamlığına təsir edən tikililərdir. Belə tikililərin inşası müasir şəhərsalma anlayışında önəmli yer tutur. Yol xəritəsi enerji istehlakını azaltmağı, su qaynaqlarını qorumağı və ekoloji tarazlığı təmin etməyi hədəfləyir. Bu yanaşma Azərbaycanın infrastruktur layihələrinin davamlılığını artıracaq və şəhər mühitini daha yaşıl və sağlam edəcək. Yol xəritəsi müvafiq normativlərin və texniki standartların hazırlanmasını nəzərdə tutur ki, bu da "yaşıl binalar"ın inşasını və istismarını asanlaşdıracaq. Çünki kütləvi şəkildə belə tipli inşaatın ərsəyə gəlməsi, yaşayış massivlərinin salınması bahalı prosesdir. Söz düşmüşkən, hazırda Bakıda günəş enerjisindən istifadə edilən bir bina (Ağ Şəhərdə yerləşir) mövcuddur və COP29 ilə bağlı tədbirlərdən birinin də orada keçirilməsi nəzərdə tutulur.

"Yaşıl texnologiyalar"dan istifadə dünyanın bir çox ölkəsində xeyli aktual mövzuya çevrilib. Bərpaolunan, günəş və bioenerjilərdən istifadə həm ekologiyaya zərər vermir, həm də maksimum ucuz başa gəlir. Amma belə binalarda idarəetmə xərcləri minimum olsa da, ərsəyəgəlmə xərcləri bir o qədər bahadır. Avropanın özündə elə texnologiyalara malik binalar tikilir ki, onlar heç bir kommunikasiya planına qoşulmur. Həmin binaların fasadları günəşdən enerji toplayır. Yağış suyu yığılaraq daxildə istifadə edilir. Hətta o binalar kanalizasiya xətlərinə belə qoşulmur. Çirkli sular binanın zirzəmisinə axıdılır. Zirzəmidə çirkli maye molekulyar səviyyədə təmizlənərək təkrar içməli və texniki su kimi mənzillərə ötürülür" - bunları əmlak və inşaat məsələləri üzrə ekspert Elnur Azadov deyir. Ekspert onu da bildirir ki, ölkəmizdə hələlik sözügedən texnologiyaların tətbiqi ilə bağlı şəhərsalma tələbləri və digər normativlər yoxdur. Buna baxmayaraq, o, nikbindir: "Azərbaycan həm siyasi, həm də iqtisadi cəhətdən regionda söz sahibidir. Belə tərəqqi müstəqil, suveren respublikamızın yaxın gələcəkdə dünyanın aparıcı dövlətləri sırasında olacağını təmin edəcək və "yaşıl binalar"dan ibarət böyük massivlərimiz tikiləcək. Amma bu gün regionlarda fərdi evlərdə günəş enerjisindən istifadə tam mümkündür. Bu, çoxmənzilli binalara nisbətən fərdi evlərdə çox baha başa gəlmir. Fərdi evlərdə "yaşıl enerji"dən istifadə daha tez reallaşa bilər. Həm ana xətdən gələn elektrik enerjisi, həm də günəş panelləri vasitəsilə "yaşıl enerji"dən istifadə etmək olar. Hazırda dünyanın bir çox ölkəsində fərdi evlərin dam örtükləri panellərdən hazırlanır. Və il boyu bu panellərin əldə etdiyi enerjiən istifadə edilir. Bu məsələyə daha köklü yanaşmaq lazımdır. İlk olaraq bu texnologiyaların istehsalı yüksək səviyyədə qurulmalı və dövlət tərəfindən nəzarət olmaldır".

Göründüyü kimi, dünya üzrə iqlim dəyişikliyinin problemlərinə qarşı mübarizənin zəruriliyi günbəgün daha önə çıxır. Bu baxımdan Azərbaycanın iqlim öhdəliklərini yerinə yetirmək naminə hər cür təşəbbüsləri mühüm əhəmiyyət kəsb edir. "Yaşıl binalar"ın inkişaf konsepsiyasına dair yol xəritəsi" də ölkənin qlobal iqlim məqsədlərinə çatmasına yardımçı olacaq. İqlim maliyyəsinə yeni yanaşmalar Azərbaycanın beynəlxalq səviyyədəki nüfuzunu artıracaq və müasir "yaşıl iqtisadiyyat"a keçidini sürətləndirəcək. Beynəlxalq Maliyyə Korporasiyası ilə əməkdaşlıqda ölkəmizin iqlim dəyişikliklərinə qarşı mübarizədə daha fəal olmasına geniş imkanlar yaradacaq.

*Qurban MƏMMƏDOV,*
*"Azərbaycan"*

# *Xəzər İBRAHİM:* "COP29 çərçivəsində ABŞ ilə Azərbaycan arasında çox yaxşı əməkdaşlıq mövcuddur"

**"COP29 çərçivəsində ABŞ ilə Azərbaycan arasında çox yaxşı əməkdaşlıq mövcuddur". Bu sözləri AZƏRTAC-a açıqlamasında Azərbaycanın ABŞ-dakı səfiri Xəzər İbrahim deyib. Onun sözlərinə görə, bu əməkdaşlıq həm texniki, həm siyasi, həm də bürokratik səviyyədədir.**



"Gündəlik olaraq bu istiqamətdə müzakirələr aparılır. Biz ABŞ tərəfinin COP29 mövzusuna çox müsbət yanaşmasının şahidi oluruq. Bunun səbəblərindən biri də ondan ibarətdir ki, Azərbaycan özü məsələdə liderlik edir, mövzular üzrə öz iradəsini ortaya qoyur və bunu Prezident İlham Əliyev də öz müraciətində bildirib. Yəni bir tərəfdən ABŞ böyük dövlət olaraq bu mövzulara diqqət ayırır, digər tərəfdən Azərbaycanın da çox fəal və tutarlı tərəfdaş olduğunu anlayaraq bu addımları atır", - deyə səfir əlavə edib.

Diplomatın sözlərinə görə, Azərbaycanın gücü ondan ibarətdir ki, COP29-a gedən yolda liderlik edərək hər kəsi bir araya gətirir və dünya üçün müsbət nəticələrin əldə olunmasına çalışır.

# İsveç və Danimarka qəzetlərində Azərbaycanın COP29-dakı təşəbbüsləri haqda məqalələr dərc olunub

**İsveç və Danimarkanın eyniadlı "Altinget" qəzetlərində Azərbaycan Respublikasının Norveç, İsveç, Finlandiya və Danimarkadakı səfiri Zaur Əhmədovun BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) və sədrlik edən ölkə kimi Azərbaycanın təklif etdiyi təşəbbüslərə həsr olunmuş məqalələri dərc olunub.**




AZƏRTAC xəbər verir ki, məqalələrdə diplomat qeyd edir ki, iqlim konfransının Bakıda keçirilməsi regionda ən son nailiyyətləri, o cümlədən Azərbaycanın COP29-a evsahibliyi etmək istəyini dəstəkləyən Ermənistanla münasibətləri normallaşdırmaq səylərini göstərir.

Geosiyasətin iqlim fəaliyyətinə kölgə sala biləcəyi ilə bağlı narahatlıqlar fonunda Azərbaycan Paris Sazişinin məqsədlərinə nail olmaq üçün diqqəti konkret tədbirlərə yönəltməkdə qərarlıdır.

Z.Əhmədov vurğulayıb ki, Azərbaycan ev sahibi kimi bütün maraqlı tərəflərin, o cümlədən yerli xalqların, gənclərin və vətəndaş cəmiyyətinin səsini və ehtiyaclarını nəzərə alan inklüziv iqlim idarəçiliyinin təşviqinin tərəfdaşıdır. Köhnəlmiş 100 milyard dollarlıq hədəfi əvəz edəcək iqlim maliyyəsi üçün yeni kollektiv kəmiyyət məqsədinin müəyyən edilməsi isə əsas prioritetdir.

Bu məqsəd inkişaf etməkdə olan ölkələrə dəstəyi gücləndirməyə kömək olacaq və iqlim böhranı şəraitində ən mühüm ehtiyacların ödənilməsi üçün resursların səfərbər edilməsini təmin edəcək. Bundan əlavə, Azərbaycan ən həssas icmaların ehtiyaclarını daha yaxşı ödəmək məqsədilə itkiləri və zərərləri kompensasiya etmək üçün fond tətbiqinin vacibliyini vurğulayacaq.

Diplomat həmçinin sədr ölkə kimi Azərbaycanın konfransın keçirilməsi zamanı atəşkəs, "İqlim üçlüyü"nün yaradılması və iqlim maliyyələşdirilməsi üzrə İqlim Fəaliyyət Fondunun təsis edilməsi kimi təşəbbüslərindən yazır.

"Müasir Azərbaycan bərpaolunan enerji mənbələrinin inkişafına və qazıntı yanacağından asılılığı azaltmaq üçün enerji səmərəliliyinə üstünlük verərək, əhəmiyyətli "yaşıl keçid" dövrü yaşayır. Bu strategiyanın mühüm hissəsi Qara dənizin dibi ilə kabel vasitəsilə Avropaya "yaşıl elektrik enerjisi"nin ixracı planıdır ki, bu da Avropanın təmiz enerjiyə artan tələbatını ödəməyə kömək edəcək", - deyə Z.Əhmədov yekun olaraq yazıb.

# COP29-un keçiriləcəyi Bakı Olimpiya Stadionunda ərazi bölgüsünün necə aparıldığı açıqlanıb

**COP29-un əsas məkanı - Bakı Olimpiya Stadionu 5 zonaya bölünüb. Zona A qeydiyyat üçün nəzərdə tutulub.**



Zona B yan tədbirləri, İqlim Dəyişmələrinə Qarşı Mübarizə Sammiti, COP29 iqlim çempionlarının tədbirləri, ikitərəfli görüşlər üçün nəzərdə tutulmuş məkanları əhatə edir. Zona C nazirlər səviyyəsində keçirilən iclaslar, COP29 sədrliyinin təşəbbüsləri üçün məkanlar, nümayəndə heyətlərinin ofisləri və restoranları əhatə edir.

Zona D-də VİP otaqlar, ikitərəfli görüşlər üçün otaqlar, birinci və ikinci plenar otaqlar, Media Mərkəzi, mətbuat konfransı otağı, Zona E-də isə pavilyonlar, QHT-lər, restoranlar yerləşir. AZƏRTAC xəbər verir ki, bunu Pre-COP29 çərçivəsində keçirilən COP29 Azərbaycan Əməliyyat Şirkətinin logistika brifinqində COP29 Əməliyyat Şirkətinin İdarə Heyətinin sədri və Əməliyyatlar üzrə baş icraçı Nərmin Carçalova deyib.

COP29 tədbiri üçün 49 hektarlıq ərazinin ayrıldığını diqqətə çatdıran N.Carçalova bütün rəsmi tədbirlərin keçiriləcəyi məkan olan "Mavi Zona"nın, eləcə də müxtəlif tərəfləri innovativ iqlim yanaşmaları üçün bir araya gətirəcək "Yaşıl Zona"nın qurulması barədə ətraflı məlumat verərək, işlərin plana uyğun şəkildə davam etdirildiyini söyləyib. "Ötən aylar ərzində komandamız COP29-a hazırlıq prosesi çərçivəsində əzmkarlıqla çalışıb", - deyən N.Carçalova fikrinə yekun vurub.

# Vaşinqtonda COP29 çərçivəsində "yaşıl maliyyə"yə həsr olunmuş konfrans keçirilib

**Vaşinqtonda yerləşən Cons Hopkins Universitetində ABŞ-Azərbaycan Ticarət Palatası, Beynəlxalq Ticarət Administrasiyası və ABŞ Ticarət Departamentinin birgə təşkilatçılığı ilə COP29 çərçivəsində "yaşıl maliyyə"yə həsr olunmuş konfrans keçirilib. AZƏRTAC-ın məlumatına görə, tədbirdə Azərbaycanın ABŞ-dəki səfirliyinin nümayəndələri, ABŞ-nin dövlət və özəl sektorunun və akademik dairələrin təmsilçiləri iştirak ediblər.**



Açılışda çıxış edən ABŞ-Azərbaycan Ticarət Palatasının icraçı direktoru Natiq Baxışov bildirib ki, tədbirin keçirilməsində əsas məqsəd "yaşıl maliyyə"nin cəmiyyətin bütün təbəqələri tərəfindən inkişafı və elmi dairələrin araşdırmalarına əsasən, "yaşıl maliyyə" sahəsində qərarvermə mexanizmlərinin təşviqinin müzakirəsini aparmaqdır. Onun sözlərinə görə, bu müzakirələr Azərbaycanın COP29-a sədrlik etdiyi bir vaxtda həm Azərbaycan, həm də qlobal ictimaiyyət üçün aşağı karbonlu, davamlı gələcək naminə zəruri olan tərəfdaşlıq və strategiyaların qurulmasına kömək edəcək.

Daha sonra çıxış edən ABŞ Ticarət katibinin köməkçisinin müavini Hezar Evans bildirib ki, Ticarət Departamenti və ABŞ-Azərbaycan Ticarət Palatası arasında uzunmüddətli əməkdaşlıq mövcuddur. ABŞ Azərbaycanla 30 ildən artıq davam edən əməkdaşlığı yüksək qiymətləndirir və COP29 bu baxımdan ikitərəfli iqtisadi əməkdaşlıqda müsbət bir mərhələ ola bilər. ABŞ şirkətləri Azərbaycanın inkişafının bütün mərhələlərində vacib rol oynayaraq enerji, nəqliyyat və texnologiyalar sahəsində iqtisadiyyatın inkişafına və şaxələndirilməsinə kömək etmək üçün mühüm texnologiya və xidmətlər təqdim edib.

Ticarət Departamenti rəsmisi "yaşıl maliyyə" sahəsində ABŞ rəhbərliyinin gördüyü işlərdən danışaraq bildirib ki, ABŞ gələn ay Bakıda keçiriləcək COP29-u ABŞ sənayesinin yeniliklərini vurğulamaq, dövlət və özəl sektor arasında tərəfdaşlıqları inkişaf etdirmək, qlobal iqlim böhranının həllinə kömək etmək, Azərbaycan da daxil olmaqla, qlobal tərəfdaşlarla ticarət əməkdaşlığını dərinləşdirməyə davam etmək baxımından fürsət kimi nəzərdən keçirir.

Daha sonra çıxış edən Azərbaycanın ABŞ-dəki səfiri Xəzər İbrahim son zamanlar ABŞ-nin bir neçə ştatında baş verən qasırğaların iqlim dəyişikliyinin real nümunəsi olduğunu bildirib. O, iqlim dəyişikliyindən daha çox kiçik ada dövlətlərinin əziyyət çəkdiyini və bunun üçün beynəlxalq ictimaiyyətin birgə hərəkət etməli olmasının əhəmiyyətinə diqqəti çəkib. Səfir bu günlərdə Bakının uğurlu şəkildə Pre-COP tədbirinə evsahibliyi etdiyini xatırladıb və Azərbaycanın COP29 sədrliyinin əsas mövzusunun iqlim maliyyəsi ilə bağlı olduğunu vurğulayıb.

Daha sonra Azərbaycan energetika nazirinin müavini Elnur Soltanov Azərbaycanın COP29-un əsas mövzusu olan iqlim maliyyəsinin cəlb olunması, Kyoto Protokolu və Paris Sazişinin müddəalarının icrası istiqamətində görülən işlərdən danışıb. O, qlobal istiləşmənin iqlim dəyişikliyi və böyük təbiət hadisələrinin əsas səbəbkarı olmasını vurğulayaraq, 1,5 dərəcə Selsi hədəfinə nail olmağın əhəmiyyətini qeyd edib. Onun sözlərinə görə, iqlim fəaliyyətlərinin səmərəli olması üçün qlobal səylər, dövlət və özəl sektorun birgə irəliləməsi vacibdir.

Konfrans panel müzakirələri ilə davam edib. ABŞ Enerji Departamenti, ABŞ İxrac-İdxal Bankı, "Goldman Sachs", "Boston Consulting Group", "Carlyle", "Boeing", "Honeywell", "Leidos" və digər təşkilat və şirkətlərin təmsilçiləri, kiçik və orta biznes nümayəndələri və ekspertlər dayanıqlı layihələr üçün maliyyə resurslarının səfərbər edilməsi, dayanıqlılığın artırılması və maliyyə risklərinin azaldılması ilə aşağı karbon iqtisadiyyatına keçid və "yaşıl keçid"də elmi əsaslı qərarvermə mövzuları istiqamətində müzakirələrdə iştirak ediblər.




# Milli strategiyanın icrası ilə su ehtiyatlarından daha səmərəli istifadə olunacaq

**Azərbaycanda süni yağış texnologiyası və havadan suyun əldə edilməsi üzrə pilot layihələr icra olunacaq. Məqsəd ölkənin, xüsusən də işğaldan azad olunmuş ərazilərin su ehtiyatlarından səmərəli istifadə olunması, yeni texnologiyaların tətbiqi ilə su ehtiyatlarının artırılması və ümumilikdə su təsərrüfatının yaradılması və idarə edilməsidir.**



AZƏRTAC xəbər verir ki, bunu İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti sədrinin müşaviri Aydın Abbasov Prezident İlham Əliyevin sərəncamı ilə təsdiqlənmiş "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya"da əksini tapan hədəflərdən danışarkən bildirib.

Sənədin vaxtında hazırlanan strategiya proqramı olduğunu qeyd edən A.Abbasovun sözlərinə görə, elmi potensial, texnoloji təcrübələr, o cümlədən beynəlxalq təcrübədən istifadə edilərək Azərbaycanda bu sahənin ciddi inkişafının istiqamətləri araşdırılacaq.

"Su ehtiyatlarının artırılması, sudan səmərəli istifadə olunmasında mülayim hava qurşaqlarının rolu, ölkə ərazisində süni yağışların yağdırılması üçün beynəlxalq təcrübəyə əsasən texnologiyaların işlənilməsi metodikaları, elmi-tədqiqat və iqtisadi araşdırma işlərinin aparılmasına başlanılıb. Əsas məsələ su ehtiyatlarının qiymətləndirilməsinin düzgün aparılması, su ehtiyatlarının inteqrasiyalı istifadə edilməsi, içməli su ehtiyatlarının səmərəli bölgüsü, əhalinin su ehtiyatının böhran vəziyyətlərdə dayanıqlılığının təmin edilməsi metodologiyalarının hazırlanmasıdır. Su strategiyasının hədəflərindən biri də böhran vəziyyətində sel sularını qoruyub səmərəli istiqamətləndirməkdir. Bu istiqamətdə tədqiqatlar aparılmalıdır. Biz mövcud suyun düzgün idarə edilməsini bacarmalıyıq", - deyə Aydın Abbasov qeyd edib.

Milli Strategiyada nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirəcək. Mərkəzin icraçı direktorunun müavini Ayaz Müseyibov AZƏRTAC-a açıqlamasında bildirib ki, bu gün qlobal miqyasda su ehtiyatlarından səmərəli istifadə getdikcə daha çox əhəmiyyət kəsb edir. Çünki dünya iqlim dəyişmələri mərhələsindən keçir, su çatışmazlığı artır: "Su ehtiyatlarının daha səmərəli istifadə edilməsi, əhalinin təmiz suya tələbatının daha da yaxşılaşdırılması, su itkilərinin azaldılması, zəruri infrastrukturun gücləndirilməsi xüsusi əhəmiyyətə malikdir. Nəzərə alaq ki, Azərbaycanın digər region ölkələri ilə müqayisədə su ehtiyatları daha azdır. Qəbul olunmuş sənəd və onun icrası ilə əldə ediləcək nəticələrin xüsusi əhəmiyyəti olacaq. Bu sənədin icrası ilə Azərbaycanda su ehtiyatlarının daha səmərəli istifadə olunması və artırılması planlaşdırılır".

# "Yaşıl iqtisadiyyatda süni intellekt" mövzusunda hakaton keçirilir

**Azərbaycanın ən böyük hakaton tədbirlərindən biri olan "JunctionX Baku 2024" bu gün "Yaşıl iqtisadiyyatda süni intellekt" mövzusu ilə start götürüb.**



Bu barədə AZƏRTAC-a Təhsilin İnkişafı Fondundan məlumat verilib. Elm və Təhsil Nazirliyinin nəzdində olan Təhsilin İnkişafı Fondunun dəstəklədiyi və "EESTEC Baku"nun təşkil etdiyi tədbir süni intellektdən istifadə edərək ekoloji problemlərin həllinə yönəlib.

Tədbirdə çıxış edən UFAZ-ın icraçı direktoru Lətifə Nəsibova universitetin bu kimi tədbirlərin təşkilinə marağını və texnoloji ekosistemlə bağlı layihələrə dəstəyini vurğulayıb.

Hakatonun beynəlxalq və lokal təmsilçiləri "Junction X"dən Qlobal əlaqələr şöbəsinin rəhbəri Daniil Frieden və "EESTEC Baku"nun rəhbəri Adil Qasımov bu tədbirin Azərbaycanda ilk dəfə keçirilməsi ilə bağlı hazırlıq prosesindən bəhs ediblər.

Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibov rəhbəri olduğu qurumun bu tipli layihələrə hər zaman dəstək göstərdiyini və beynəlxalq miqyaslı layihələrin Azərbaycanda keçirilməsinə daha çox imkan yaradılacağını bildirib.

Tədbirdə Elm və Təhsil Nazirliyindən şöbə müdiri Səbuhi Rzayev, 4SİM-dən şöbə rəhbəri Əzizə Vidadi, Gənclər Fondundan şöbə müdiri Orduxan Qəhrəmanzadə, "Code Academy"nin marketinq direktoru Goktug Sarı, "PwC Azərbaycan"dan texnoloji menecer Zaur Mustafayev, "United Payment"dən şöbə rəhbəri Rauf Həsənov və ATL Akademiyanın rəhbəri Aydan Həşimova çıxış ediblər.

Çıxışçılar təmsil etdikləri qurumun bu sahəyə dəstəyindən danışıblar.

Hakatonun əsas mövzuları COP29 istiqamətlərinə uyğun olaraq müəyyən edilmiş şəhər iqlim dözümlülüyü, emissiyaların azaldılması və dövri iqtisadiyyat texnologiyalarını əhatə edir. İştirakçılar növbəti 36 saat ərzində süni intellekt əsaslı həllər hazırlayacaqlar, bir qalib isə Helsinkidə (Finlandiya) keçiriləcək əsas "Junction" tədbirində Azərbaycanı təmsil edəcək.

Bakıda keçirilən bu tədbir Finlandiyadakı qlobal "Junction" hakaton hərəkatının bir hissəsidir və gənc texnologiya həvəskarları arasında innovasiyanı təşviq edir.

"JunctionX Baku 2024" Azərbaycanda real dünya problemlərinə texnologiya əsaslı həllər yaratmaq üçün tələbələri, yenilikçiləri bir araya gətirir.

# Norveç qəzetində COP29 və Ermənistanla Azərbaycan arasında münaqişə haqqında məqalə dərc edilib

**Norveçin "Geopolitika" qəzetində ölkəmizin Norveç, İsveç, Finlandiya və Danimarkadakı səfiri Zaur Əhmədovun noyabrda Azərbaycanda keçiriləcək COP29, eləcə də Ermənistanla Azərbaycan arasında 30 illik münaqişəyə həsr olunmuş növbəti məqaləsi dərc edilib.**




AZƏRTAC xəbər verir ki, Azərbaycanda COP29-un keçirilməsinin tənqidçilərinə cavab olaraq Zaur Əhmədov məqaləsində bu ittihamlara daha geniş geosiyasi kontekstə məhəl qoyulmadığını, Azərbaycanın iqlim dəyişmələri ilə mübarizə və Cənubi Qafqazda sülhün təşviqi istiqamətindəki səmimi səylərinin gözardı edildiyini bildirir, böyük beynəlxalq tədbirə evsahibliyi etməklə bağlı standartın bütün ölkələrə eyni dərəcədə tətbiqinin vacibliyini vurğulayır.

Diplomat Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin təxminən 20 faizinin Ermənistan tərəfindən işğalı, bütün şəhər və kəndlərimizin dağıdılması, 700 minə yaxın azərbaycanlının öz yurd-yuvasını tərk etməyə məcbur qalması ilə nəticələnmiş Ermənistan-Azərbaycan münaqişəsini xatırladıb. Mülki əhali üçün təhlükə yaradan təqribən 1,5 milyon minanın işğalın acı nəticəsi olduğunu bildirib. Qeyd edib ki, minaların təmizlənməsi böyük maliyyə vəsaiti və zaman tələb edir.

Diplomat, həmçinin 2023-cü ilin sentyabrında Qarabağda antiterror tədbirlərindən sonra ermənilərin oranı könüllü surətdə tərk etmələrindən yazıb. Bildirib ki, bəzi tənqidçilər bunu "etnik təmizləmə" kimi qiymətləndirir, lakin 1980-ci illərin sonunda 300 minə yaxın azərbaycanlı Ermənistandan zorla qovulmuşdu. Bu tarixi fakt münaqişənin humanitar aspektlərinin müzakirəsi kontekstində mühüm rol oynayır.

"Azərbaycan ilə Ermənistan arasında sülh prosesində artıq nailiyyətlər əldə edilib və sülh sazişinin mətninin təxminən 80 faizi razılaşdırılıb. Lakin Ermənistanın Azərbaycana qarşı ərazi iddialarını öz konstitusiyasından çıxarmaqdan imtina etməsi ciddi maneə olaraq qalır. Buna baxmayaraq, Avropa Sülh Fondu kimi qüvvələr tərəfindən dəstəklənən Ermənistanın davamlı surətdə hərbiləşdirilməsi münaqişənin yenidən başlanması riski ilə bağlı narahatlıq doğurur. Bu, revanşist əhvali-ruhiyyəni gücləndirir və sülh prosesinə xələl gətirir", - deyə səfir əlavə edib.

O, həmçinin vurğulayıb ki, Azərbaycan xarici siyasətdə ardıcıl olaraq çoxtərəfli yanaşmaya sadiqdir, bütün qonşularla balanslaşdırılmış münasibətlər saxlayır. Ölkəmiz BMT Təhlükəsizlik Şurasına üzvlüyü və Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində beynəlxalq təhlükəsizliyə və sülhə mühüm töhfələr verib. Bu balanslaşdırılmış yanaşma bəzi region ölkələrinin uzunmüddətli hərbi ittifaqlardan asılılığı və onların ərazilərində xarici bazaların olması ilə ziddiyyət təşkil edir.

Zaur Əhmədov onu da diqqətə çatdırıb ki, Azərbaycan mühüm qazıntı yanacaq istehsalçısı olmasına baxmayaraq, bərpaolunan enerjiyə keçməyə çalışır, eyni zamanda karbon emissiyalarının azaldılması öhdəliyini vurğulayaraq, 2030-cu ilə qədər ümumi enerji tarazlığında bərpaolunan enerji mənbələrinin payını 30 faizə çatdırmağı qarşısına məqsəd qoyub.

Sonda diplomat əlavə edib ki, COP29 bütün tərəflər, o cümlədən Ermənistan üçün iqlim dəyişmələri kimi aktual qlobal problemlərdə əməkdaşlıq üçün nadir imkandır.

"Tənqidçilər mənfi ittihamlar yaymaq əvəzinə, COP29-u ümumi iqlim məqsədlərinə nail olmaq üçün qüvvələri birləşdirmək şansı kimi görməlidirlər", - deyə məqalədə qeyd olunur.

# "Euronews": Bakıda keçiriləcək COP29 iqlim sammitinin gündəliyi zəngindir

**"Euronews" telekanalının saytında Bakıda keçiriləcək COP29 iqlim sammitinin gündəliyi ilə bağlı məqalə dərc edilib.**




AZƏRTAC xəbər verir ki, məqalənin müəllifi Lottie Limb qeyd edib ki, Şərqi Avropada ölümcül daşqınlar və ABŞ-də qasırğalarla müşayiət olunan bir həftə ərzində iqlim böhranının onu sakitləşdirmək üçün göstərdiyimiz səylərdən kənarda artmaqda davam etdiyi ağrılı şəkildə aydındır. Liderlər noyabrın 11-dən 22-dək iki həftə ərzində dünya iqlim tədbirlərini gücləndirməyin yollarını axtaracaqlar.

Müəllif vurğulayıb: "COP29 "maliyyə COP-u" kimi təqdim olunur, çünki ölkələr üçün yeni qlobal iqlim maliyyəsi hədəfini müəyyən etməyin vaxtıdır. Gələn il Braziliyada keçiriləcək COP30-dan əvvəl onlar da daha güclü milli iqlim öhdəlikləri təqdim etməlidirlər. Keçən il Dubayda keçirilən COP28-də qazanılan bəzi uğurlardan, o cümlədən iqlim qurbanları üçün yeni itki və zərər fondunun rəsmi fəaliyyətə başlamasından sonra inkişaf etməkdə olan ölkələr əvvəllər götürülmüş öhdəliklərin yerinə yetirilməsinə və təkmilləşdirilməsinə can atırlar".

Məqalədə qeyd olunub ki, Yaxın Şərqdə dağıdıcı münaqişə və noyabrın əvvəlində ABŞ-də keçiriləcək seçkilər müxtəlif yollarla danışıqlara müəyyən dərəcədə təsir edəcək. Lakin UNFCCC prosesinə daxil edilmiş vaxt çərçivələrini nəzərə alsaq, burada sammitin gündəliyinin zəngin olduğu görünür. COP28-də 2015-ci ildən bəri qlobal iqlim fəaliyyətinə rəhbərlik edən Paris Sazişinin tələb etdiyi kimi, əsas nəticə ilk "qlobal səhmlər" olub. İlk dəfə olaraq, yekun mətn, əslində, qazıntı yanacaqlarının adını çəkib və bütün ölkələri tədricən onlardan imtina etməyə çağırıb. Bu tərəqqiyə baxmayaraq, qərar bir çoxlarının qlobal istiliyin 1,5 dərəcə Selsindən aşağıda qalması üçün lazım olan mərhələdən yayınıb. COP28, həmçinin ölkələri 2030-cu ilə qədər bərpaolunan enerji potensialının qlobal miqyasda üçqat artırılmasına töhfə verməyə çağırıb.

Analitik daha sonra yazıb: "Son 15 ildə ilk dəfə ölkələr "Yeni Kollektiv Kəmiyyət Hədəfi" (NCQG) kimi tanınan qlobal maliyyə məqsədilə razılaşmalı olacaqlar. Bu, inkişaf etmiş ölkələrin 2020-ci ilə qədər inkişaf etməkdə olan ölkələrə iqlim dəyişikliyinə təsirləri azaltmaq və uyğunlaşmaqda kömək etmək üçün ildə 100 milyard dollar (91,4 milyard avro) səfərbər etməyi vəd etdiyi 2009-cu ildə qoyulmuş hədəfi yeniləyəcək.

Böhranın güclənməsi ilə, inkişaf etməkdə olan ölkələrin hazırda ehtiyac duyduğu iqlim maliyyəsinin faktiki məbləğinin ildə 500 milyard dollardan 1 trilyon dollara qədər olacağı təxmin edilir.

Ümumi rəqəmlə yanaşı, COP29-da NCQG-nin şərtləri üzərində debatlar aparılacaq, o cümlədən donor bazası və resipiyentlər, dövlət və özəl mənbələrdən daxil olacaq vəsaitlər, onların qrant və ya kredit şəklində olması müzakirə ediləcək".

Avropa İttifaqının COP29 iqlim sammitində daha fəal iştirakının əhəmiyyətinə toxunan müəllif qeyd edib: "Aİ nazirləri bu həftənin əvvəlində iqlim maliyyəsi ilə bağlı əldə etdikləri nəticələri təsdiqləyərək, 2025-ci ilə qədər ildə 100 milyard dolları kollektiv şəkildə səfərbər etməyə davam etməyi və bundan sonra iddialı NCQG qurmağı öhdələrinə götürdülər. Aİ-nin COP29 üzrə yekun danışıqlar mandatını oktyabrın 15-də qəbul edəcəyi gözlənilir. Hazırda iqlim maliyyəsi mətnində vurğulanır ki, beynəlxalq dövlət maliyyəsi onun əsasını təşkil etməlidir və "töhfə verməyə qadir olan ölkələr də daxil olmaqla daha geniş ianəçilər bazası" tərəfindən təmin edilməlidir.

Avropa Parlamentindəki Yaşılların iqlim və sənaye siyasəti üzrə sözçüsü Maykl Bloss bildirib: "Ciddi aralıq hədəflərlə yumşaldılma, uyğunlaşma, itki və zərər arasında maliyyəni balanslaşdırmaq bizim əsas hədəflərimizdir. Qrantlar borc dövriyyəsini qırmaq və davamlı inkişaf üçün əsl potensialı açmaq üçün kreditləri əvəz etməlidir".

Məqalədə Avropanın müxtəlif iqlim ekspertlərinin COP29-un əhəmiyyəti barədə fikirləri də yer alıb.

# İtaliya nəşri COP29 ərəfəsi konfransından yazıb

**İtaliyanın "Notizie Geopolitiche" nəşrində Azərbaycanın evsahibliyi edəcəyi BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu (COP29) sessiyası barədə məqalə dərc olunub.**




AZƏRTAC xəbər verir ki, yazıda COP29 ərəfəsində Bakıda keçirilən "Ambisiyanı artırmaq və iqlim fəaliyyətinə təkan vermək" mövzusunda Pre-COP29 konfransının əhəmiyyətindən bəhs edilib. "Azərbaycan. COP29-a doğru" sərlövhəli yazıda Azərbaycan Prezidenti İlham Əliyevin konfrans iştirakçılarına müraciət ünvanladığı bildirilib. Prezident İlham Əliyevin müraciətində Azərbaycanın 2024-cü ili "Yaşıl dünya naminə həmrəylik ili" elan etdiyini, ölkəmizin milli səviyyədə "təmiz ətraf mühit və yaşıl artım" üzrə sosial-iqtisadi prioriteti uğurla reallaşdırdığını, işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurun "Yaşıl enerji" zonaları elan edildiyini vurğuladığı diqqətə çatdırılır. Dövlətimizin başçısının COP28, COP29 və COP30-un sədrləri qismində Birləşmiş Ərəb Əmirlikləri, Azərbaycan və Braziliya tərəfindən "İqlim Troykası" təsis edildiyini, sentyabrda Bakıda İtki və Zərərə Cavab Fondunun əməli fəaliyyətə başlaması istiqamətində irəliləyişin əldə olunduğunu, COP29-da "Bakı Sazişi"nin əldə edilməsinə ümidvar olduğunu qeyd etdiyi bildirilir.

Materialda eyni zamanda COP29-un müəyyən edilmiş prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayevin, BMT Baş katibinin birinci müavini Amina Mohammedin, BƏƏ-nin sənaye və qabaqcıl texnologiyalar naziri və COP28-in prezidenti Sultan Əl Cəbirin, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibi Saymon Stillin və Köməkçi icra orqanının sədri Nabil Munirin fikirlərinə yer verilib.

Konfrans çərçivəsində Azərbaycan ilə Braziliya arasında "Bakıdan Beleme (B2B) İqlim Tərəfdaşlığı" üzrə Anlaşma Memorandumunun imzalandığı da diqqətə çatdırılır.

# "COP29-da ölkəm üçün Azərbaycandan kömək istəyəcəyəm"

**Azərbaycanda COP29 çərçivəsində iqlim maliyyəsi mövzusunda kritik addımlar atılacaq.**

Bunu "Report"un ABŞ bürosuna müsahibəsində Kot-d'İvuarın (Fil Dişi Sahili və ya Fil Dişi Sahili Respublikası) ətraf mühit, davamlı inkişaf və ekologiya naziri Konan Jacques Assahore bildirib.

Nazir ölkəsinin iqlim dəyişkənliyinin fəsadları ilə mübarizə apardığını vurğulayıb və COP29-da Afrika ölkələri üçün Azərbaycandan və beynəlxalq ictimaiyyətdən dəstək istəyəcəyini deyib:

"Bütün dünya iqlim dəyişkənliyinin fəsadları ilə mübarizə aparır. Bu, günümüzün ən böyük problemidir. İqlim dəyişkənliyi bütün dünya ölkələrinin iqtisadiyyatını təsiri altına alıb və Afrika ölkələri bu prosesdən ən çox zərərçəkən bölgələr sırasındadır. İqlim fəaliyyəti üçün adekvat maliyyənin təmin edilməsi mühüm problem olaraq qalır.

Bu mövzuda müzakirələrdə və qərarların alınması prosesində iştirak etmək üçün Bakıda olacağıq və COP29-da Afrikanın narahatlığını dilə gətirəcək, qitə ölkələrinin iqlim dəyişkənliyi ilə mübarizəsinə köməklik üçün Azərbaycandan və beynəlxalq ictimaiyyətdən dəstək istəyəcəyik". Nazir qeyd edib ki, Azərbaycanda COP29-da iqlim maliyyəsi mövzusunda kritik addımlar atılacaq və COP29-da aparılacaq müzakirələr və qəbul olunacaq qərarlar bu baxımdan dönüş nöqtəsi ola bilər:

"Hamımız COP29-a hazırlaşarkən vahid mövqedən çıxış etməli, diqqətimizi Afrika üçün geniş miqyasda iqlim maliyyəsini səfərbər etməyə yönəltməliyik".

# REGİONLAR

## Şirvanda Vətən müharibəsi şəhidinin anım günü qeyd edilib

**Şirvanda Vətən müharibəsi şəhidi Xəqani Füzuli oğlu Məmmədovun anım günü tədbiri keçirilib.**



Şəhər icra hakimiyyətinin başçısı İlqar Abbasov, Dövlət Təhlükəsizliyi Xidməti Şirvan şəhər şöbəsinin rəisi Mehman Qasımov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Şirvan şəhər şöbəsinin rəisi Ramil Əhmədov, şəhid ailələri, müharibə iştirakçıları və ictimaiyyət nümayəndələrinin iştirak etdikləri tədbirdə öncə şəhid Xəqani Məmmədovun və digər şəhidlərin məzarları ziyarət edilib, ruhlarına dualar oxunub.

Çıxış edən İlqar Abbasov şəhidin ailəsinə belə vətənpərvər oğul böyütdükləri üçün minnətdarlığını bildirib. Qalib Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 27 sentyabr 2020-ci il tarixdə başlayan Vətən müharibəsinin Azərbaycanın tarixində dönüş nöqtəsi kimi qeyd olunduğunu bildirən və 44 günlük Vətən müharibəsi zamanı qəhrəmanlıq göstərmiş Azərbaycan Ordusunun şücaətindən danışan natiq vurğulayıb ki, bu zəfər torpaqlarımızın işğaldan azad olunması və ölkəmizin ərazi bütövlüyünün təmin olunması baxımından tarixi bir hadisədir. Qeyd olunub ki, Şirvan şəhəri də daxil olmaqla ölkəmizdə şəhid ailələri və müharibə əlilləri hər zaman dövlət başçısının hərtərəfli diqqət və qayğısı ilə əhatə olunub, onların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində zəruri tədbirlər görülüb.

Digər çıxış edənlər də tariximizə qızıl hərflərlə yazılan 44 günlük Vətən müharibəsindən, şəhidlərimizin qəhrəmanlıq nümunələrindən, Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə əlil olmuş oğullara və şəhid ailələrinə dövlət tərəfindən göstərilən yüksək diqqət və qayğıdan danışıblar.

Sonra şəhid Xəqani Məmmədovun adına açılan ehsan süfrəsində xatirəsi ehtiramla yad edilib.

Xəqani Məmmədov 2002-ci il martın 30-da Şirvan şəhərində dünyaya göz açıb. Şirvan şəhərində yerləşən Zəngilan rayon 3 nömrəli tam orta məktəbi bitirib. Vətən müharibəsi başlayan gündən ön sıralarda yer alan Xəqani Suqovuşan və Ağdam istiqamətlərində gedən döyüşlərdə iştirak edib, 10 oktyabr 2020-ci il tarixdə şəhidlik zirvəsinə ucalıb.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılaraq qarşıya qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün şəhid Xəqani Məmmədov Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

## Neftçalanın 11 yaşayış məntəqəsinin əhalisi yol sarıdan rahatlığa çıxdı

**Neftçala rayonunun Xanməmmədli-Qaçaqkənd-Qırmızıkənd-Xol Qarabucaq-Xəzər avtomobil yolunda Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən aparılan yenidənqurma işləri başa çatmışdır.**



Uzunluğu 42 kilometr olan avtomobil yolu uzun müddət təmir olunmadığından və təbii faktorların təsirindən yararsız vəziyyətə düşmüşdü. Yolun 30 kilometr uzunluğa malik Xanməmmədli-Xol Qarabucaq-Xəzər hissəsi yararsız asfalt örtük, uzunluğu 12 kilometr təşkil edən Qaçaqkənd-Qırmızıkənd hissəsi isə torpaq əsasdan ibarət idi. Bu səbəbdən əsaslı şəkildə yenidən qurulmasına və bərpasına ehtiyac yaranan yollar 4-cü texniki dərəcəyə uyğun təkmilləşdirilmiş, enləri 10 metrə qədər genişləndirilmişdir.

"İnşaat Norma və Qaydaları"nın tələblərinə əsasən, yolun yararsız örtüyü sökülmüş, yeni yol yatağı inşa edilmişdir.Yolun normativ eninin alınması üçün genişləndirmə və kipləşdirmə işləri görülmüş, yol əsasının tikintisi aparılmışdır.

Layihəyə uyğun olaraq, yolboyu suların ötürülməsini təmin etmək məqsədilə müxtəlif diametrlərə malik suötürücü borular quraşdırılmış, zəruri ərazilərdə istinad divarları inşa edilmişdir. Bununla yanaşı, layihənin Qaçaqkənd, Qırmızıkənd və Xol Qarabucaq hissələrində mövcud körpülər təmir olunmuşdur.

Layihənin sonuncu mərhələsində isə hərəkətin normal təşkili üçün yol nişanlarının, kilometr göstəricilərinin quraşdırılması, yolcizgi və yolgöstərici xətlərin çəkilməsi işləri həyata keçirilmişdir.

Avtomobil yollarının yenidən qurulması ilə 11 yaşayış məntəqəsində yaşayan 15 min əhali yol sarıdan rahatlığa çıxmışdır.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Ağcabədinin ağ boğçası

**Ana təbiət öz bərəkət boğçasını Qarabağda səxavətlə açıb. Geniş tarlalar başdan-başa ağ örpəyə bürünüb. Bar-bərəkət fəsli payız bolluq soraqlı gəlişiylə taleyi torpağa, halal zəhmətə bağlı insanların ovqatına nikbin notlar qatıb. Aylardan bəri çəkilən zəhmətin, axıdılan alın tərinin yetirdiyi bol sərvət kəndlinin sabahkı firavan həyatından, xoş güzəranından soraq verir. Şeirlərdə, nəğmələrdə uzun illər boyu "ağ qızıl" kimi tərənnüm edilən pambıq sözün həqiqi mənasında bu yerlərin qiymətli sərvətidir.**



Ölkəmizin qabaqcıl pambıqçılıq rayonu kimi şöhrət qazanmış Ağcabədidə bu sahənin inkişafına böyük önəm verilir, yeni hədəflərə çatmaq üçün zəruri tədbirlər görülür. Mütərəqqi texnologiyalardan, innovativ üsullardan, qabaqcıl təcrübədən, eyni zamanda mövcud potensialdan və əmək ehtiyatlarından səmərəli istifadə öz müsbət nəticələrini verir.

Ötən təsərrüfat ilində rayonun fermerləri 11492,7 hektar sahədə pambıq əkib-becərmiş, hər hektarın orta məhsuldarlığını 31,5 sentnerə çatdıraraq nəticədə 36250 ton pambıq istehsalına nail olmuşlar. Bu, ölkənin pambıqçılıq rayonları arasında ən yüksək nəticələrdən idi.

Ağcabədidə pambıqçılığın inkişafı üçün yaradılmış əlverişli şərait ölkədə bu sahə ilə məşğul olan şirkət və cəmiyyətlərdə böyük maraq doğurur. Cari təsərrüfat ilində "MKT-İK" MMC-nin Ağcabədi filialı üzrə 5040,5, "Azərpambıq" MMC-nin rayon filialı üzrə 3978, "P-Aqro" MMC-nin yerli müəssisəsi üzrə 2700, "MKT-İK" MMC-nin Ağcabədi innovasiya filialı üzrə 400 və "Cotton Trade" MMC üzrə 993 hektar olmaqla rayon üzrə bütövlükdə 13112 hektar pambıq əkilmiş, aqrotexniki qaydaların optimal müddətlərdə və keyfiyyətlə yerinə yetirilməsi sayəsində bol məhsul yetişdirilmişdir.

Rayonun təsərrüfatlarında pambıq yığımı yenicə start götürmüşdür. İlk günlərin nəticələri fərəhlidir. Böyük zəhmət bahasına hasilə gələn məhsulu tez və itkisiz yığıb təhvil vermək üçün bütün qüvvələr səfərbər edilmişdir. Ötən illər olduğu kimi, cari mövsümdə də məhsulun yığılmasında texnikaya üstünlük verilir. Məhsul yığımına 60 pambıqyığan kombayn cəlb olunacaq. Yığım kampaniyasına 334 lafet, 131 nəqliyyat traktoru, 36 çiləyici, 15 yükləyici qoşulmuşdur. Keçən illə müqayisədə əlavə olaraq 6 yeni pambıqyığan kombayn, 28 yeni lafet alınıb gətirilmişdir.

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov dövlət səviyyəsində pambıqçılığın inkişafına verilən böyük önəmin sosial-iqtisadi əhəmiyyəti ilə bağlı maraqlı fikirlər söyləyir:

- Prezident İlham Əliyev illər öncə ənənəvi kənd təsərrüfatı sahələrinin, o cümlədən pambıqçılığın inkişafı ilə bağlı qarşıya məsul vəzifələr qoydu, ciddi tapşırıqlar verdi. Dövlət başçısının uzaqgörənliyini bu gün zaman birmənalı şəkildə təsdiq edir. Bunu Ağcabədinin timsalında tam aydınlığı ilə görmək mümkündür. İndi rayonumuzun kəndlərində əhalinin böyük əksəriyyəti az qala pambıqçılıq üzrə mütəxəssisdir desək, mübaliğə olmaz. Hələ sovet dönəmində, kolxoz zamanında formalaşan əkinçilik mədəniyyəti, qazanılan zəngin təcrübə bu gün əməllibaşlı kara gəlir. Dövlət başçısı aqrar sektoru inkişaf etdirmək üçün yeni və mühüm tapşırıqlar verərkən, yeni hədəflər müəyyən edərkən təbii ki, bölgələrin spesifik xüsusiyyətlərini, kənd əhalisinin psixologiyasını, peşə vərdişlərini ciddi surətdə nəzərə almışdır. Bizim yolumuz bazar iqtisadiyyatıdır. Pambığın isə sabit və etibarlı bazarı vardır. Çünki pambıq strateji məhsuldur. Dəfələrlə şahidi olmuşuq ki, torpaq mülkiyyətçiləri soğan əkininə üstünlük verir, bəzən problemlərlə üzləşirlər. Çox əkildiyindən alıcı tapılmır. Nəticədə əkinçi ziyana düşür, növbəti təsərrüfat işlərini görməyə zəruri olan maddi imkanlarını itirir. Bunu təkcə soğan haqqında yox, qarpız, kartof, başqa tərəvəz məhsulları haqqında da demək olar.

Rafil Hüseynov söhbətinə davam edərək deyir ki, aqrar sektoru inkişaf etdirməyə çalışırıqsa, dünyanın qabaqcıl dövlətlərinin təcrübəsini öyrənməyə böyük önəm verməliyik: "Bu, seleksiya, toxumaçılıq, damazlıq, məhsuldar texnikaya, inovativ metodlara üstünlük verilməsi və bir sıra digər vacib məsələləri əhatə etməlidir. Torpaq mülkiyyətçisinə nə əkib becərməsi barədə dövlət sifarişi verilməsi ənənəsini yarada bilsək, bunun ümumi işimizə böyük səmərəsi olar. Kəndli arxayın olar ki, zəhmət bahasına, xərclədiyi xeyli vəsait hesabına hasil etdiyi məhsul əlində qalmayacaq. Etibarlı bazar kəndlinin gücünə güc qatacaq, onu daha həvəslə işləməyə ruhlandıracaqdır. Nəticə etibarilə məhsul bolluğu yaranacaq, ərzaq təhlükəsizliyi etibarlı şəkildə təmin olunacaqdır".

Payız şıltaq fəsildir. Bəzən hava bir anın içində dəyişir, külək əsir, yağış yağır. Əlverişli keçən hər gündən maksimum səmərəli istifadə etmək, tarlaların məhsulunu ən qısa zamanda yığmaq üçün Ağcabədi kəndlisi səfərbərdir. Sahələrin məhsulunu maşınla yığıma hazırlamaq üçün qrafik əsasında kolların yarpağını tökməkdən ötrü dərmanlama işləri aparılır. Bu zaman kolların inkişaf fazası və yığım texnikasının imkanları ciddi şəkildə nəzərə alınır.

Rayonun qabaqcıl fermerlərindən sayılan Abdulla Həsənovun sahəsində məhsul yığımının gedişi ilə tanış oluruq. Söhbət zamanı öyrənirik ki, fermer təsərrüfatının üzvləri keçən il 108 hektar pambıq əkib-becərmiş, 515 sentner məhsuldarlığa nail olaraq 557 ton məhsul istehsal etmişlər. Bu il isə əkin sahələrini genişləndirərək 120 hektara çatdırıblar. Abdulla Həsənov deyir ki, məhsul bu il də boldur, 600 tondan çox pambıq istehsal edəcəkləri realdır.

Ağcabədidə qabaqcıl pambıqçılardan söz düşəndə Məhəmməd İsmayılovun, Etibar Şirinovun, İsgəndər Hüseynovun, Əmir Quliyevin adları hörmət və ehtiramla çəkilir. Təkcə bir fakt: Əmir Quliyevin təsərrüfatında məhsulu yığılmış 5 hektar sahənin orta məhsuldarlığı artıq 54 sentnerdir.

Ağcabədidə pambıqçılığın inkişafı istiqamətində atılan hər uğurlu addım rayon iqtisadiyyatının möhkəmlənməsinə, əhalinin faydalı məşğulluğunun təmin edilməsinə, həyat səviyyəsinin yüksəlməsinə, gün-güzəranının yaxşılaşmasına əhəmiyyətli təsir göstərir. Əslində, dövlətin istəyi də elə budur. Ona görə bu istiqamətdə qayğı və diqqətini əsirgəmir. Ötən ilin nəticələrinə nəzər salsaq, fikirlərimiz daha da aydınlaşır. 2023-cü ildə tədarükçü şirkətlər rayonun təsərrüfatlarında 29 milyon manat dəyərində kondesya çəkidə pambıq qəbul etmişlər. Pambığın becərilməsində çəkilən xərclər çıxıldıqdan sonra fermerlerə 9,5 milyon manat vəsait ödənilmişdir. Buna dövlət tərəfindən pambıq istehsalına görə fermerlərə ödənilmiş 7 milyon manat məbləğində məhsul subsidiyasını da əlavə etsək, fermerlərin 16,5 milyon manat məbləğində xalis gəlir qazandığı aydınlaşar. Ümumilikdə, əldə olunmuş gəlirin 42 faizini dövlət tərəfindən verilən subsidiya təşkil edir.

Dövlətin güclü əlini kürəyində hiss edən Ağcabədi kəndlisi bu gün çox məmnundur və sabaha inamla baxır. İnanır kı, seçilən yol doğrudur. Bu yol taleyini torpağa, halal zəhmətə bağlayan hər kəsi təminatlı həyata qovuşdurur.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## Biləsuvarda da pambıq yığımına başlanılıb

**Bu il Biləsuvarda pambıqçılıqla məşğul olan fermerlər və torpaq mülkiyyətçiləri tərəfindən 6915,8 hektar sahədə pambıq əkilmişdir.**

Əkilən pambığın 2310 hektarı "Azərpambıq", 1927,8 hektarı "MKT İstehsal Kommersiya", 1528 hektarı "Cotton Trade", 1150 hektarı isə "P-Aqro" MMC-lərlə bağlanmış müqavilələr əsasında həyata keçirilmişdir.

Sahələrə lazımi aqrotexniki qulluq göstərilmiş, o cümlədən mineral gübrələr və su verilmişdir ki, bunların da nəticəsində bol məhsul yetişmişdir. Artıq bir neçə gündür ki, Biləsuvar pambıqçıları hərtərəfli hazırlıqdan sonra məhsulun toplanmasına başlamışlar.

Rayon icra hakimiyyətinin başçısı Faiq Qürbətov bu günlər pambıq sahələrinə baş çəkərək fermerlərlə iş başında görüşmüş, məhsul yığımının gedişi ilə maraqlanmışdır. Görüş zamanı aidiyyəti təşkilat rəhbərləri pambıq yığımı ilə əlaqədar görülmüş hazırlıq işləri barədə ətraflı məlumat vermişlər. Qeyd olunmuşdur ki, pambıq yığımının operativ, itkisiz və vaxtında yığılıb məntəqələrə çatdırılması üçün kombaynlara və traktorlara texniki baxış keçirilmiş, nasaz vəziyyətdə olan texnikaların təmiri başa çatdırılmışdır. Yığım zamanı kombaynlarda baş verəcək hər hansı nasazlığın aradan qaldırılması üçün şirkətlər tərəfindən operativ təmir briqadası yaradılmışdır.

Pambıq sahələrini gəzdikdən sonra RİH başçısı pambıq emalı zavoduna da baş çəkmiş, pambığın tez və itkisiz yığımının həyata keçirilməsi üçün göstəriş və tövsiyələrini vermişdir.

*S.CAVADOV,*
*"Azərbaycan"*

## Qəbələ Uşaq Reabilitasiya Mərkəzinin xidmətindən indiyədək 1000-dən çox azyaşlı yararlanıb

**Azərbaycan dövləti və xalqı daim bütün dünyada siyasi təzyiq və haqsızlıqlardan, müharibə alovlarından, təbii fəlakətlərdən, ikili standartlardan, sosial bərabərsizliklərdən əziyyət çəkən insanların yanındadır.**

Bu, ölkəmizin istinad etdiyi humanizm prinsiplərinə, bəşəri dəyərlərə yüksək qiymət verməsi ilə yanaşı, həm də dəfələrlə belə neqativ hallarla rastlaşması, torpaq ilhaqı və soyqırımları acıları yaşaması ilə bağlıdır.

Münaqişə zonalarında yaranmış acınacaqlı vəziyyətin aradan qaldırılması, günahsız mülki əhaliyə dəstək dövlətimizin sözügedən istiqamətdə həyata keçirdiyi siyasətinin prioritet istiqamətlərindəndir. Ukraynada müharibənin acısını yaşayan uşaqlara sosial-tibbi kömək və qayğı göstərmək də bu qəbildəndir. Bir neçə gün öncə müalicə və reabilitasiya məqsədilə ölkəmizə daha 30 ukraynalı uşaq gətirilmişdi. Onlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Qəbələ Uşaq Reabilitasiya Mərkəzində reabilitasiya xidmətlərinə cəlb olundular. Uşaqlar üçün peşəkar psixoloqlar tərəfindən fərdi konsultasiyalar, qrup terapiyaları, eləcə də yoqa və rəqs terapiya məşğələləri təşkil edildi. 10 günlük sosial reabilitasiya proqramı çərçivəsində azyaşlıların asudə vaxtlarının səmərəli təşkili, əyləncəli idman yarışları, həmçinin Qəbələdəki tarixi yerlərə, muzeylərə ekskursiyalar da yaddan çıxmadı.

Müasir cihazlar və tibbi-reabilitasiya avadanlıqları ilə təchiz olunmuş Qəbələ Uşaq Reablitasiya Mərkəzi 2021-ci ilin dekabr ayında istifadəyə verilib. Mərkəz tibbi, sosial, əmək reabilitasiya tədbirlərinin aparılması yolu ilə 18 yaşadək əlilliyi müəyyən edilmiş şəxslərin sosial statusunun bərpası və onların cəmiyyətə inteqrasiyası ilə məşğul olur. Müasir tələblərə uyğun şəraitin yaradıldığı 25 çarpayılıq mərkəzdə peşəkar tibbi personal çalışır. Bu günə qədər müəssisədə 1000-dən çox uşağa ambulator və stasionar xidmətlər göstərilib.

*Q.MƏMMƏDOV,*
*"Azərbaycan"*

## Kəndlinin etibarlı çətiri

### Şəki-Zaqatala bölgəsi üzrə fermerlərə 1,7 milyon manat sığorta ödənişi verilib

**İndiyədək Şəki-Zaqatala regionundakı hadisələr üzrə təsərrüfatlara və fermerlərə 1,7 milyon manata yaxın sığorta ödənişi edilib. Bu barədə Aqrar Sığorta Fondu Şəki Regional Filialından bildiriblər.**

Qeyd olunub ki, ölkədə təsərrüfatların çoxsaylı risklərdən sığortalanmasını həyata keçirən Aqrar Sığorta Fondu və qurumun filialları tərəfindən fermerlərə aqrar sığorta, onun imkanları barədə mütəmadi şəkildə geniş məlumat verilir.

Aqrar sığorta vasitəsilə 48 növ bitki, o cümlədən tarla bitkiləri, meyvə bağları, tərəvəz, bostan və texniki bitkilər sığortalanır. Eyni zamanda aqrar sığorta ilə südlük və ətlik mal-qara, davarları da sığortalamaq mümkündür. Sığorta haqqının 50 faizinin dövlət tərəfindən ödənilməsi nəticəsində fermerlər cüzi ödənişlə təsərrüfatlarını sığortalaya bilirlər.

Şəki-Zaqatala regionu da Azərbaycanda aqrar sığortadan faydalanan bölgələrdən biridir. İndiyədək bu regiondakı hadisələr üzrə təsərrüfat və fermerlərə 1,7 milyon manata yaxın sığorta ödənişi edilib. Regiondakı sığorta ödənişlərinin 1,2 milyon manatı Şəki, 253 min manatı Balakən, 126 min manatı Qax və digər rayonlarda həyata keçirilib. Bölgədə sığorta ödənişləri əsasən buğda, arpa, qarğıdalı, fındıq, pambıq, qoz, ərik və s. bitkilər üzrə reallaşdırılıb. Eləcə də heyvandarlıq sığortası üzrə bölgədə 91 min manat sığorta ödənişi olunub.



Qeyd edək ki, aqrar sığorta barədə məlumatlar nəinki bu regionda, ümumiyyətlə, bütün ölkə üzrə fermerlərin böyük marağına səbəb olub. Onlar aqrar sığorta haqlarının hesablanması, ödəniş prosesi, sığortanın əhatə etdiyi risklərlə bağlı quruma çoxsaylı suallar ünvanlayırlar və operativ cavab alırlar.

*Qurban MƏMMƏDOV,*
*"Azərbaycan"*

## Naxçıvanda 5345 yeni vergi ödəyicisi qeydiyyata alınıb

**Cari ilin yanvar-sentyabr aylarında Naxçıvan Muxtar Respublikasında 5345 yeni vergi ödəyicisi qeydiyyata alınıb.**

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Mətbuat xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, bunun 5121-i fiziki, 224-ü isə hüquqi şəxslər və digər təşkilatlar olub. Qeydiyyata alınmış vergi ödəyicilərinin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 23,2 faiz artıb.

Bu ilin 9 ayında kommersiya qurumlarının 81,2 faizi elektron qaydada, 18,8 faizi isə kağız daşıyıcısında müraciətlər əsasında qeydiyyata alınıb.





# Vətən deyəndə...





## ◆ Tarix yazan oğullar




# Susdurulan sonuncu hədəf

**Həyətdə dava-dava oynayan uşaqların səsindən qulaq tutulurdu…**

**Kimi qaçır…**

**Kimi "güllə yarası alıb" yıxılır…**

**Kimisi də "istehkam"ın arxasında gizlənib "düşməni vurmaq üçün" məqam gözləyir…**

**Arabir mübahisə də düşür: "Mən səni vurdum, amma sən ölmədin…"**

**"Mən xüsusi təyinatlıyam. Azərbaycanın xüsusi təyinatlıları terminator kimidirlər. Onları öldürmək mümkün deyil…"**

Yaşca bir az böyüyü isə "döyüş yoldaşı"na irad tutur: "Bizim əsgərlər ölmürlər, şəhid olurlar. Ölən ermənilərdir…"

"Savaşçı"lara yaxınlaşıb Vətən Müharibəsi Qəhrəmanı Ceyhun Həsənovun valideynlərinin ünvanını soruşuram.

Qarabuğdayı bir oğlan əlindəki "tapança"nı belindəki qobura yerləşdirib deyir: "Aydın əmigilin evlərinin yerini mən bilirəm. Mənim adım da Ceyhundur. Aydın əmi mənə deyir ki, sən Ceyhuna çox bənzəyirsən. Mən də böyüyəndə hərbi məktəbdə oxuyub Ceyhun əmi kimi qəhrəman olacağam. Şəhidlərimizin azad etdikləri torpaqları gözüm kimi qoruyacağam".

Bələdçimiz Ceyhunla ailə yataqxanasının ikinci mərtəbəsinə qalxıb qaranlıq dar dəhlizdən keçirik… Məndən irəlidə gedən Ceyhun qapını döyür…

Ağ saçları gümüş kimi parıldayan, ağlamaqdan gözləri qan çanağı kimi qızarmış bir xanım qapını açıb bizimlə salamlaşır. Kimliyimizi soruşmadan "Qapıda durmayın, keçin içəri" deyir.

Qaməti əyilib beli bükülmüş, çarəsiz baxışları ilə adamı duyğulandıran şəhid atası Aydın kişi mehribanlıqla salam verib bizə yer göstərir:

- Bağışlayın ki, qonaq qarşılamaq üçün normal şəraitimiz yoxdur. 1 nömrəli Evtikmə Kombinatında fəhlə işləyərkən veriblər buranı bizə. Ceyhun da bu 24 kvadratmetrlik mənzildə dünyaya gəlib.

İki darısqal otaqdan ibarət mənzilin hansı tərəfinə baxsan Vətən Müharibəsi Qəhrəmanı Ceyhun Həsənovun şəkillərini, şəxsi əşyalarını görürsən…

Ceyhun bu kiçik mənzildə böyüyüb, boya-başa çatıb. Canını fəda etdiyi Vətəni ilk dəfə bu mənzilin pəncərəsindən seyr edib, görüb, sevib…

Ceyhun böyüdükcə ürəyində yaralı bir Qarabağ dərdi, Xocalı acısı, Şuşa nisgili artırdı. Əslən Tovuz rayonunun Çeşməli kəndindən olsalar da, ömürlərinin bir gününü Qarabağda keçirməsələr də, valideynləri hər gün övladlarına Xocalıda, Kəlbəcərdə, Şuşada, Zəngilanda erməni cəlladlarının azərbaycanlı uşaqların başına gətirdikləri qanlı faciələrdən danışar, Vətənimizin gözəl bir hissəsinin işğalda olduğunu onların yaddaşına yazardılar. Beləcə, Xətai rayonunda yaşadıqları yataqxanadakı ikiotaqlı mənzilin pəncərəsindən bayıra baxanda xəyalı onu Şuşaya, Kəlbəcərə, Qubadlıya, Laçına aparardı…

Anası Səmayə xanım Ceyhunlu günlərini xatırlayıb deyir:

- Oğlumun qəhrəmanlığı ilə qürur duyuram, fəxr edirəm. Həyətə düşürəm, Ceyhunumun abidəsini görürəm. Bir az kənarda dövlətimiz Ceyhunun guşəsini yaradıb, həmin küçəyə də şəhidimin adı verilib. Xətai rayonundakı 48 saylı orta məktəb də Ceyhunun adını daşıyır. Ceyhunun şəhid olduğu yerdə Prezidentimiz tərəfindən böyük bir abidə ucaldılıb. Bütün bunlar bir ana üçün yaxşı təsəllidir, qürurdur… Amma ana üçün oğul itkisinin yerini heç nə ilə doldurmaq mümkün deyil. Kaş bunların heç biri olmayaydı, Ceyhunum sağ olaydı. Ceyhunum sağ-salamat qayıdıb məni yox, oğlanları Cavidanla, Cavidi bağrına basıb onların başını sığallayaydı. Nəvələrimin şəkillərə, abidələrə baxarkən atalarını xatırlayıb kövrələndə dözə bilmirəm…

Ceyhunun uşaqlıq şəkillərinə baxan Səmayə xanımın gözləri yol çəkir. Hansısa xatirə deyəsən onu çəkib aparır. Bir anlığa üzündəki qara cizgilər çəkilir. Sözünə davam etdi:

- Uşaqlıqdan çox mehriban və qayğıkeş idi. 1990-cı ildə 20 Yanvar faciəsi zamanı 5 yaşı var idi. Evdə oturub günahsız yerə qurban gedən şəhidlərimizi ağlayırdım. Ceyhun ağladığımı görüb, əli ilə gözümün yaşını sildi. Niyə ağladığımı soruşdu. Mən də olanları ona izah etdim. Qarşıma keçib, yumruğunu düyünləyib dedi: "Sən narahat olma. Böyüyüb, əsgər olacağam. Xalqımızın başına bu müsibətləri gətirənlərdən qisasımızı alacağam". O gündən 5 yaşında uşağın ağlına, düşüncəsinə yazıldı ki, böyüyəndə zabit olacaq… Elə bil Ceyhun qisas almağa tələsirdi…





Naxçıvanda xidmət edəndə hər şənbə günü evimizə gəlirdi. Bir dəfə dilimi dinc saxlamayıb dedim ki, bizim kişilərin danışmağa, yaşamağa haqları yoxdur. Mənə yaxınlaşıb düz gözümün içinə baxdı. Dedi ki, "ay ana, niyə elə deyirsən?" Dedim hamı söyləyir ki, erməni "qorxaqdır", "sayı azdır, bir ovucdur". Sayı az erməni illərdir ki, torpaqlarımızı işğal edib, yurdlarımızı viran qoyub. Onların qarşısına çıxıb durduran yoxdur. Dedi ki, "narahat olma. XXI əsrin zabitləri yetişir. Bir qarış da olsun torpağımızı işğalda qoyan deyilik". Doğrudan da, XXI əsrin zabitləri torpaqlarımızı işğaldan azad etdilər. Mən bunu həmişə deyirəm. 30 il işğal altında qalan torpaqlarımızı bu illərdə doğulub, yetişən oğullarımız xilas etdilər. Xalqımızın, dövlətimizin qəhrəmanlara olan münasibətini görəndə deyirəm ki, yaxşı ki, mən belə bir vətənpərvər oğul böyütmüşəm. Belə bir oğulun anasıyam. Ceyhun Fəxri xiyabanda dəfn edilib. Sentyabrın 29-da oğlumun dəfni zamanı orada demişəm ki, Allah Azərbaycan xalqına belə qəhrəman oğulları çox bəxş etsin.

Haqqında söhbət açdığımız Vətən Müharibəsi Qəhrəmanı Ceyhun Aydın oğlu Həsənov 1985-ci il oktyabrın 29-da Tovuz rayonunun Çeşməli kəndində anadan olub. Orta təhsilini 1992-2001-ci illərdə Bakı şəhəri, Xətai rayonu Ə.Abbasov adına 257 nömrəli tam orta məktəbdə alıb. Uşaqlıqda hərbçi olmaq arzusu onu Cəmşid Naxçıvanski adına Hərbi Liseyə aparıb. 2001-2003-cü illərdə hərbi liseydə təhsil alan Ceyhun Həsənov 2004-2008-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) motoatıcı ixtisası üzrə ali hərbi təhsilə yiyələnib. 2009-2019-cu illərdə Naxçıvanda xidmət edən Ceyhun Həsənov 2020-ci ildə xidmətini Beyləqan rayonunda yerləşən hərbi hissədə davam etdirib.

### Arxası dağ olanın başı göylərə ucalar

Atası Aydın kişi Ceyhunla bağlı xatirələrini bölüşür:

- Ceyhun əsl hərbçi idi. Heç vaxt işi, xidmət keçdiyi yeri, komandirləri haqqında evdə söhbət etməzdi. Əslinə qalsa, xidməti yerinin dəyişməsindən,



Beyləqana getməsindən də məlumatsız idim. Sən demə, əməliyyat şəraitini, yeri, yurdu öyrənmək üçün xidməti yerini dəyişibmiş.

Gözətçi işləyirdim. 2020-ci il sentyabrın 24-də Ceyhundan zəng gəldi. Telefonla danışanda da deyərdim ki, "atan gözlərinə qurban, necəsən?" Ceyhun hər zəng vuranda necə olduğumu soruşardı. Bu dəfə çox şən idi. Gülə-gülə danışırdı. Dönə-dönə necə olduğumu soruşdu. Hər dəfə də yaxşı olduğumu deyirdim. Sonra anası ilə maraqlandı. Dedi ki, nəvələrin necədirlər? Heç vaxt uşaqlarını məndən soruşmazdı. Aramızda pərdə vardı.

Hərdən danışanda deyirdim ki, arxası dağ olanın başı göylərə çatar. O sözdən çox xoşu gəlirdi. Yenə onu təkrarladım. Bir qəhqəhə çəkib güldü ki… Gördüm ki, Ceyhun bu dəfə əl çəkmir. Söhbəti uzadır. Xasiyyətini bildiyim üçün də heç nə soruşmurdum. Amma müharibə olacağı barədə söz-söhbət gəzdiyini eşitmişdim. Vəziyyətin necə olduğunu soruşdum? Dedi əladır. Söhbətdən yayınırdı: "Ata, sənə qurban olaram, vaxtım azdır. İmkan edib sənə zəng etdim ki, sizdən bir xəbər bilim".

Sonralar Ceyhunun döyüşdüyü yerlərə gedəndə əsgər yoldaşlarından öyrəndim ki, o, müharibə başlamamışdan 2 ay əvvəl komandir təyin edilibmiş. Gecələr kəşfiyyata gedib "Ohanyan səddi"nin "sirləri"ni öyrənirmiş.

### Zəfərə inanan qəhrəmanlar Zəfərin ilk cığırını açırlar

27 sentyabr 2020-ci il… Səhər saat 07:50 radələrində Füzuli, Cəbrayıl, Xocavənd istiqamətində şiddətli döyüş başlayır. Bu zaman Füzuli rayonunun Alxanlı kəndində ön cəbhədə olan kapitan Ceyhun Həsənov əsgərlərinə döyüş əmri verir. Cəsur komandir BMP hərbi maşınına minib özü sağ tərəfdə, sürücüsü Qərib Balacayev sol tərəfdə, tuşlayıcı Şahin Mehdiyev ortada, 5 əsgər isə arxada əyləşib, döyüşçülərə "ardımca" deyib irəliyə şığıyır. Beləcə, 7 BMP, 4 tank, bir neçə digər döyüş texnikası və 80 nəfər şəxsi heyəti ilə əks-hücum əməliyyatı başlayır. Ordumuzun əks-hücuma keçdiyini görən düşmən dayanmadan mövqelərimizi ağır artilleriyadan atəşə tutur. Döyüş getdikcə şiddətlənir. Ordumuzun isə əks-hücum əməliyyatı öz gücünü göstərməyə başlayır. Hərbi texnikalar işə düşür. Topların, silahların, raketlərin səsi bir-birinə qarışır. Hər tərəf tüstü, barıt qoxusuna bürünür… Düşmən ağır itkilər verir. Qəhrəman döyüşçü, cəsur kapitan Ceyhun Həsənovun döyüşçüləri irəlilədikcə düşmənin məhv edilmiş postları arxada qalır. Zəfərə inanan qəhrəmanlarımız canları ilə Zəfərin ilk cığırını salmağa müvəffəq olurlar. İllərdir torpaqlarımızda "keçilməz sədlər" qurub, ərazilərimizin hər qarışını minalayan mənfur düşmən ciddi müqavimət göstərirdi. Bir tərəfdən əks-hücuma keçən hərbi texnikalarımızı sıradan çıxarmağa çalışır, digər tərəfdən də güllə yağışı altında minatəmizləyənləri atəş altında saxlayırdılar. Ceyhun 5 yaşında "mən hərbçi olacağam" dediyi zaman sıxdığı yumruq indi bütün Azərbaycanda daha güclü düyünlənmişdi. Müzəffər Ali Baş Komandan sentyabrın 27-də o qəzəbli yumruğu düşmənə göstərib "Yetər!" demişdi. Elə qəzəblə demişdi ki, səsinə nəinki Ermənistanda, hətta onu himayə edib üstümüzə qaldıran böyük dövlətlərin baş saraylarında oturanlar diksinib əl-ayağa düşür, müharibənin dayandırılması barədə dövlətimizin başçısına ard-arda zənglər edirdilər. Əks-hücuma keçən igidlərimizin isə dilində bir şüar vardı: "Ölərik, geri dönmərik".

Düşmən gücünü toplayıb müqavimət göstərirdi. 70-ə yaxın piyada döyüşçünün mühasirəyə düşmək təhlükəsini görən kapitan Ceyhun Həsənov BMP-nin sürücüsünə "İrəli" əmrini verir. BMP-nin sürücüsü Qərib vaxt itirmədən zirehli maşınını keçilməz "Ohanyan səddi"nə tərəf sürür. Ceyhun Həsənovun olduğu BMP quş kimi irəliyə şığıyır. Ceyhun ekipaja sarı dönüb "Möhkəm olun, ya azadlıq, ya ölüm" deyir. Cəsur kapitanın bu taktikası əsgərlərimizi mühasirəyə düşməkdən xilas edir.

Komandir düşmənin koordinatları haqqında məlumatları tuşlayıcı Şahinə ötürdükcə qarşıdakı atəş mövqeləri birbir sıradan çıxırdı. İlk uğurlu hücum nəticəsində artıq bir neçə kənd azad olunmuş, düşmənin 7 postu ələ keçirilmişdi. Hava hücumundan, PUA-lardan istifadəyə ehtiyac duymayan Ceyhun sol cinahda qarşıya qoyulmuş döyüş tapşırıqlarını uğurla yerinə yetirirdi.

Müqaviməti davam etdirən ermənilərin sonuncu postunun da məhv edilməsinin vaxtı çatmışdı. Koordinatlar təyin edilib, BMP sağ tərəfə istiqamət alanda minaya düşür. Yaralanmış kapitan Ceyhun Həsənov tuşlayıcı Şahindən bircə bunu soruşa bilir: "Şahin, düşmənin sonuncu postunu da vura bildikmi?" Şahin: "Vurduq, komandir, vurduq!", - deyə sevinclə cavab verir. Elə bu an onlar ikinci dəfə minaya düşürlər. Füzuli rayonu Qaraxanlı kəndində Azərbaycana ilk qələbə sevinci yaşadan kapitan Ceyhun Həsənov şəhidlik zirvəsinə ucalır. BMP-nin üst hissəsində oturan tuşlayıcı Şahin Mehdiyev zərbənin təsirindən yerə yıxılır. Ağır yaralanmış sürücü Qərib Balacayev BMP-ni tərk etsə də, bir qədər sonra o da şəhid olur.

Tuşlayıcı Şahin döyüş meydanından dərhal təxliyə edilsə də, Azərbaycan Ordusunun ilk şəhidləri bir müddət döyüş mövqeyində qalır…

Sentyabrın 28-də şəhid olmuş əsgər və zabitlərimiz döyüş bölgəsindən çıxarılır…

Bu döyüşlərdə kapitan Ceyhun Həsənovun cəsurluğu, yüksək komandirlik bacarığı, döyüşçülərimizin göstərdiyi igidlik və qətiyyət nəticəsində Füzuli rayonunun 5, Cəbrayıl rayonunun isə 2 kəndi işğaldan azad edilir.

Kapitan Ceyhun Həsənovun və döyüş yoldaşlarının şəhid olduqları Qaraxanbəyli kəndi yaxınlığında abidə ucaldılıb. 2022-ci il sentyabrın 27-də abidənin açılışında iştirak edən Müzəffər Ali Baş Komandan İlham Əliyev deyib: "Şəhidlərimizin şərəfinə bu abidə - bu qaya parçası burada, Qaraxanbəyli kəndinin yaxınlığında ucaldılıb. Qaraxanbəyli kəndi və digər beş kənd İkinci Qarabağ müharibəsinin ilk günündə azad edilmişdir. Qaraxanbəyli, Qərvənd, kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı - Füzuli rayonunun kəndləri və Cəbrayıl rayonunun kəndləri - Böyük Mərcanlı və Nüzgar kəndi müharibənin ilk günündə azad edilmişdir. İlk şəhidləri biz məhz burada, bu yerdə vermişik. Bu abidənin yanında düşmənin səngəri yerləşirdi. Bu istiqamətdə beş-altı müdafiə xətti mövcud idi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bu müdafiə xəttini və bundan sonrakı müdafiə xətlərini yarmaq üçün ölümə gedirdi. Sözün əsl mənasında ölümə gedirdi, öz canını fəda edirdi ki, üçrəngli bayrağımız Şuşada və o vaxt işğal altında olan digər bütün torpaqlarda dalğalansın. Öz canını fəda edirdi ki, Azərbaycan xalqı ləyaqətini bərpa etsin, ədaləti bərpa etsin və xalqımız öz torpaqlarına qayıtsın".

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində göstərdiyi qəhrəmanlığa görə kapitan Ceyhun Həsənov ölümündən sonra Azərbaycan Prezidentinin sərəncamı ilə "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb.

Bacısı Xatirə xanım deyir ki, qardaşımın yoxluğu bizim üçün ağır itkidir. Bir bacı üçün bundan böyük faciə, dərd ola bilməz. Amma qardaşımın və digər qəhrəman oğullarımızın döyüş şücaəti, Vətən uğrunda fədakarlığı nəticəsində 30 il işğal altında olan torpaqlarımızın azad edildiyini düşünəndə qürur duyuram, təsəlli tapıram. Fikirləşirəm ki, vətənpərvər bir zabitin həyatla vidalaşması da qəhrəmanlıqla yekunlaşmalı idi. Ən vacib amil odur ki, Ceyhun Vətəni necə sevmək lazım olduğunu gözəl bilirdi.

Ceyhun arzuladığı ömrü yaşadı. Bu küçələrdə həmişə hərbçilərin paradı olardı. İzdiham yaşanardı. Hamımız hərbi geyimdə olan insanlara hörmətlə, bəzən də həsrətlə baxardıq. Ceyhun xalqımızın hərbçiyə olan sevgisini görüb hərbçi olmuşdu. Son mənzilə də böyük bir izdihamla, qəhrəmana olan sevgi və hörmətlə yola salındı.

Dərs dediyim sinif qardaşımın adını daşıyır. Hər sinfə girəndə Ceyhunu xatırlayıram. Şagirdlərimin mənə zillənən baxışlarını, bir qəhrəmanın bacısına olan hörməti hiss etdikcə qürur duyuram. Həm də bu bir məsuliyyətdir. Çalışıram ki, canını vətəninə qurban verən bir Vətən Müharibəsi Qəhrəmanının adına yaraşan insan, müəllim olum.

***Elşən QƏNİYEV, "Azərbaycan"***

# Şəhid Nicatın xatirəsi məzarı başında anıldı

## Zaqatalanın Muğanlı kəndindən Goranboyun Gülüstanına gedən möhtəşəm yola bir daha nəzər salındı

**Vətən müharibəsi şəhidi Nicat Xəlillinin cənnətdəki ömrünün dördüncü ili tamam oldu. Vətənin igid oğlunun anım mərasimi doğulub böyüdüyü və torpağa tapşırıldığı Zaqatalanın Muğanlı kəndində - müqəddəs məzarı önündə keçirildi.**





Tədbirə rayon icra hakimiyyətinin Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Anar Seyidov, Yeni Azərbaycan Partiyası Zaqatala təşkilatının sədri Fərid Ramazanov, Şəki-Zaqatala Regional Gənclər və İdman İdarəsinin sektor rəhbəri Araz Əliyev, şəhid ailələri, ictimaiyyət nümayəndələri, din xadimləri qatılmışdılar.

Əvvəlcə Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban verənlərin xatirələri birdəqiqəlik sükutla yad olundu, ruhlarına dualar oxundu.

Çıxış edənlər dövlətin və xalqın 44 günlük haqq savaşında qazandığı nailiyyətlər, qəhrəman övladlarımızın şücaəti sayəsində erməni işğalındakı torpaqlarımızın azadlığa qovuşması, bu gün Qarabağ və Şərqi Zəngəzurda gedən bərpa-tikinti, quruculuq işləri, eləcə də şəhid Nicatın rəşadətli döyüş yolu haqqında söhbət açdılar. Zaqatala Rayon İcra Hakimiyyəti başçısının kənd üzrə nümayəndəsi Nazim Safquliyev şəhidin ailəsi adından qonaqlara təşəkkürünü bildirdi, Muğanlı gənclərinin daim Vətənin müdafiəsinə hazır olduqlarını vurğuladı.

Muğanlı tam orta məktəbinin şagirdləri vətənpərvərlik mövzusunda şeirlər söyləyib, gələcək həyatlarında Nicat kimi mərd oğullara bənzəməyə çalışacaqlarına söz verdilər. Sonda şəhidin evində ehsan süfrəsi açıldı.

Xatırladaq ki, Xəlilli Nicat Əli oğlu 1994-cü il dekabrın 9-da dünyaya göz açıb. Ailənin sonbeşiyi idi, orta məktəbi bitirib müxtəlif sahələrdə, əsasən də mebel sexində işləyib. Harada çalışmasından asılı olmayaraq, məqsədi Vətən torpaqlarının azadlığı uğrunda mübarizəyə qalxmaq idi. 2013-2014-cü illərdə milli ordu sıralarında həqiqi hərbi xidmət keçib, yüksək döyüş hazırlığına və bacarığına görə dəfələrlə komandanlığın təşəkkürnamələrinə, fəxri fərmanlarına layiq görülüb. Vətən müharibəsinə könüllü qoşularaq sentyabrın 30-dan ön xətdə döyüşlərə atılıb. Kəlbəcər, Ağdam, Ağdərə, Goranboy rayonlarının düşməndən təmizlənməsində fəal iştirak edib. 9 oktyabrda Goranboyun Gülüstan kəndi istiqamətində gedən döyüşlərdə şəhadət məqamına yüksələrək ertəsi gün doğulub böyüdüyü kəndin qəbiristanlığında dəfn edilib.

Şəhid Nicatın Vətən, xalq yolundakı qəhrəmanlıqları dövlət rəhbərliyi tərəfindən yüksək qiymətləndirilib, müvafiq sərəncamlarla "Vətən uğrunda", "Suqovuşanın azad edilməsinə görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunub.

***Qurban MƏMMƏDOV, "Azərbaycan"***

# Ağstafalılar Vətənimizin keşiyində dayanan əsgərlərə məktub ünvanlamışlar

**Müdafiə Nazirliyinin Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı və Ağstafa Rayon İcra Hakimiyyətinin dəstəyi ilə "Əsgərə məktub" layihəsi çərçivəsində işğaldan azad olunan ərazilərdə Azərbaycan Ordusunun sıralarında xidmət edən əsgərlərə inam, etibar, qürur hissi dolu məktublar ünvanlanmışdır.**




Ağstafa şəhəri Səməd Vurğun adına istirahət parkında təşkil olunan tədbirdə rayon icra hakimiyyətinin başçısı Seymur Orucov, Mədəniyyət Mərkəzinin bölmə rəisi Şəhla Abdullayeva, şəhid valideynləri, yeniyetmə və gənclər, ictimaiyyət nümayəndələri iştirak etmişlər.

Tədbirdə qeyd olunmuşdur ki, bir neçə ildir uğurla davam edən və ölkənin hər yerini əhatə edən bu layihə ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır. Əsas məqsəd ordu ilə xalqın əlaqəsinin möhkəmləndirilməsinə, vətənpərvərlik ruhunun daha da yüksəldilməsinə xidmət etməkdən ibarətdir.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin müdrik siyasi xətti ilə xalqımızı böyük zəfərlərə, qələbələrə qovuşduran Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında ölkəmizin əldə etdiyi tarixi nailiyyətlər, möhtəşəm uğurlar haqqında ətraflı məlumatlar verildikdən sonra tədbir iştirakçıları məktub yazaraq əsgərlərə yollamışlar.

***Sabir ƏLİYEV, "Azərbaycan"***





# Mədəniyyət





● Yurdumuz



# Laçın - Müstəqil Dövlətlər Birliyinin mədəniyyət paytaxtı

## Bu tarixi qərar Azərbaycanın regiondakı mədəni əhəmiyyətini artırmaqla yanaşı, beynəlxalq nüfuzunu da möhkəmləndirir

**Müstəqil Dövlətlər Birliyi Dövlət Başçıları Şurası regional əməkdaşlığın təmin edilməsinə xidmət göstərən platformadır. Şura MDB-yə üzv ölkələrin liderlərini bir araya gətirərək siyasi, iqtisadi və sosial sahələrdə birgə qərarların qəbul edilməsinə şərait yaradır. Bu platforma regional əməkdaşlığın dərinləşməsinə xidmət edir.**

Şuranın toplantıları çərçivəsində təhlükəsizlik və sabitliklə bağlı məsələlər müzakirə edilir ki, bu da bölgədəki münaqişələrin həlli, terrorizmə qarşı mübarizə və ümumi təhlükəsizlik strategiyalarının koordinasiyasına kömək göstərir. Azərbaycanın aid olduğu Cənubi Qafqaz bölgəsində sülh və sabitliyin qorunması da həmin müzakirələrin vacib tərkib hissəsidir. MDB ölkələri arasında hərbi və təhlükəsizlik sahəsində əməkdaşlıq Azərbaycan üçün regional sabitliyin təmin edilməsi baxımından çox vacibdir.

MDB Dövlət Başçıları Şurasının son iclasında Azərbaycan üçün əsas tarixi qərar Laçın şəhərinin 2025-ci ildə MDB-nin mədəniyyət paytaxtı elan edilməsi oldu. Bu, Vətən müharibəsindəki tarixi zəfərimizdən, ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpasından sonra azad yurdlarımızın bərpası və inkişafı istiqamətindəki səylərimizin beynəlxalq səviyyədə dəstəklənməsinin daha bir göstəricisidir. Laçın şəhərinin 2025-ci ildə MDB-nin mədəniyyət paytaxtı elan edilməsi Azərbaycanın regiondakı mədəni əhəmiyyətini artırmaqla yanaşı, beynəlxalq nüfuzunu da möhkəmləndirir.

MDB Dövlət Başçıları Şurasının iclasında çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev bu qərara xüsusi münasibət bildirərək dedi: "Laçın Azərbaycanın 30 ilə yaxın müddətdə Ermənistanın işğalı altında olmuş şəhərlərindən biridir və demək olar ki, tamamilə dağıdılmışdı. Bu gün Laçın artıq bərpa olunub. Burada yeni həyat başlayıb, keçmiş məcburi köçkünlər qayıdıblar. Laçının MDB-nin mədəniyyət paytaxtı elan edilməsi həm laçınlılar, həm də bütün Azərbaycan xalqı tərəfindən böyük minnətdarlıqla qarşılanıb".

MDB çərçivəsində mədəni əməkdaşlıq Azərbaycan üçün milli mədəniyyətinin tanıdılması və mədəni irsinin qorunması baxımından da mühüm əhəmiyyət daşıyır, quruma üzv ölkələrlə humanitar və mədəni əlaqələrin möhkəmləndirilməsini dəstəkləyir. Şura çərçivəsində humanitar və mədəni sahələrdə əməkdaşlıq isə yüksək səviyyədə inkişaf etdirilir.

### Zəfər onu təkcə qazanmaqla tamamlanmır

Tarixi qələbənin əlamətdarlığını qorumaq, milli vəhdəti daha da möhkəmləndirmək, yeni nəsilləri zəfər ruhunda tərbiyələndirmək üçün bu, çox mühüm məsələdir.

Azərbaycanın füsunkar məkanlarından olan Laçın ölkəmizin ərazi bütövlüyünün bərpasında xüsusi önəm daşıyır. Bu şəhərin azadlığı tarixi ədalətin təntənəsi, Azərbaycan dövlətinin, dövlət başçısının qətiyyətinin, siyasi iradəsinin, gücünün daha bir simvoludur. Vətən müharibəsində əldə etdiyimiz qələbə nəticəsində imzalanmış üçtərəfli Bəyanata əsasən, 2020-ci il dekabrın 1-də Laçın rayonu Azərbaycana təhvil verilmişdi.

Qələbədən sonra Şərqi Zəngəzurda, Qarabağda aparılan bərpa-quruculuq prosesi gedişində Laçında çox böyük işlər görüldü. Bu rayona böyük köç başladı. 31 illik həsrətdən sonra laçınlılar artıq öz doğma el-obalarına qayıdırlar. Böyük qayıdışı təmin edən dövlət proqramına əsasən, indiyədək Laçın şəhərində 552 ailə məskunlaşıb. Ümumilikdə isə Zabux və Sus kəndləri və Laçın şəhərinə 828 ailə, təxminən 3 mindən çox sakinin köçürülməsi təmin edilib. 2026-cı ilədək Laçına 12 min nəfər sakinin köçürülməsi planlaşdırılır.

Bölgədə son dərəcə böyük strateji önəm daşıyan Laçının azadlığı, işğaldan qurtuluşundan sonra yeni həyatına qədəm qoyması 1992-ci ilin mayında köksümüzə vurulan ağır yaranın zamanla sağalmasıdır. 32 il əvvəl Laçının, Şuşanın itirilməsi ən böyük fəlakətlərimizin başlanğıcı idi. İşğaldan sonra erməni vandalları burada da ağlagəlməz vəhşiliklər törətdilər. Rayonun əhalisi etnik təmizləməyə məruz qaldı. 300-dən artıq hərbi və mülki şəxs həlak oldu və itkin düşdü. Laçındakı 217 mədəniyyət, 101 təhsil, 142 səhiyyə müəssisəsi, 462 ticarət, 30 rabitə, 133 idarə və müəssisə, 5 musiqi məktəbi, 1 internat məktəbi, 1 orta texniki peşə məktəbi, 2 avtonəqliyyat və müxtəlif təyinatlı istehsal müəssisələri işğalçılar tərəfindən talan və məhv edildi. 54 dünya, 200-dən çox yerli əhəmiyyətli tarixi abidə vandalizmə məruz qaldı.

Rayonun ərazisində 300-ə yaxın tarixi, mədəniyyət və memarlıq yadigarları, onlarca kurqan, qala tipli arxeologiya baxımından faydalı olan abidələr, çoxlu sayda qəbirüstü abidələr, stellalar, at, qoç fiqurları, süjetli daşlar mövcud idi, eləcə də bu ərazi çoxlu təbii sərvətləri, qiymətli mineral suları ilə zəngindir. Ərazidə olan abidələrin əksəriyyəti Qafqaz Albaniyası dövrünün yadigarlarıdır. Alimlərimizin verdiyi məlumata əsasən, bu məkanda olan Qafqaz Albaniyası dövrü abidələrinin bir çoxu bizim eranın xristianlıqdan əvvəlki dövrünə aiddir. Doğma yurd yerlərimizin mürəkkəb relyefi, sərt iqlimi bir çox çay keçidində, yolların keçilməz hissələrində körpülərin inşasına səbəb olmuşdur. Onlar əsasən birtağlı və yaxud ikitağlı körpülərdir.

Laçının Ermənistan silahlı qüvvələri tərəfindən işğalı zamanı burada mövcud olan əksər tarixi, mədəni və dini abidələr dağıdılmışdır. Rayonun ərazisində həmin abidələrin yalnız 70 faizə qədəri qalmışdır...

Bu gün isə Laçın şəhərində aparılan bərpa-quruculuq işləri nəticəsində 411 fərdi yaşayış evi və 40 mənzil, eləcə də 75 qeyri-yaşayış binası inşa edilib. 510 şagird yerlik Laçın rayon 2 nömrəli tam orta məktəbi fəaliyyət göstərir.

Ötən il avqustun 25-də Laçın rayonunda "Hoçazfilm" yaradıcılıq studiyasının çəkiliş pavilyonunun açılışı olub. Şəhərdən bir qədər aralıda yerləşən Zerti kəndində böyük sənaye sahəsi yaradılıb. Orada əhalinin məşğulluğu üçün bir çox müəssisə fəaliyyət göstərir. Laçına geri qayıdan sakinlərin burada işlə təmin edilməsi prosesi reallaşır.

Əhalinin dövlət xidmətlərinə əlçatanlığının asanlaşdırılması üçün şəhərdə DOST və "ASAN xidmət" mərkəzlərinin yaradılması nəzərdə tutulub. 2025-ci ilin əvvəlində isə Qorçu hava limanının açılması gözlənilir.

### Prezidentin Laçına səfərləri

Laçının tikinti-quruculuq işlərini daim diqqətdə saxlayan Prezident İlham Əliyevin Laçına ilk səfəri 2021-ci il yanvarın 14-də olub. Həmin gün Güləbird kəndində Azərbaycan bayrağını ucaldan dövlət başçısı su-elektrik stansiyasının açılışını da edib. Prezidentin ikinci səfəri 2021-ci il avqustun 16-da olub. Həmin gün Laçın Beynəlxalq Hava Limanının təməli qoyulub.

2022-ci il iyun ayının 26-da Prezident Şərqi Zəngəzura səfəri çərçivəsində Kəlbəcər-Laçın avtomobil yolunun inşası prosesi, "Qorçu" elektrik yarımstansiyasında görülən işlər, "Həkəriçay" su anbarı layihəsi və Laçın Beynəlxalq Hava Limanında aparılan tikinti işləri ilə maraqlanıb. Növbəti səfərlərində Kəlbəcər-Laçın avtomobil yolunda yeni inşa edilən tunellə tanış olub, Laçın şəhərində Azərbaycan bayrağını ucaldıb, orada inşa ediləcək "Laçın" qovşaq yarımstansiyasının təməlqoyma mərasimində iştirak edib.

Ötən il Prezident "Azərenerji"nin "Mişni" və "Alxaslı" Kiçik Su-Elektrik stansiyalarının açılışını edib, Laçın Beynəlxalq Hava Limanında aparılan işlərlə tanış olub, mehmanxana kompleksinin təməlqoyma mərasiminə qatılıb.

Bu il dövlət başçısı mayın 10-da Laçına səfər edərək Sus kəndində olub, sakinlərlə görüşüb və həmçinin "Azərenerji" ASC-nin "Zabux" və "Qarıqışlaq" Kiçik Su-Elektrik stansiyalarının (KSES) açılışlarında iştirak edib. Bütün bunlar bir daha onu göstərir ki, dövlət başçısı Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması prosesini daim diqqətdə saxlayır və Böyük Qayıdış Konsepsiyasının tez bir zamanda reallaşmasına böyük səy göstərir.

### Laçın şəhəri möhtəşəmliyi ilə göz oxşayır

Yenidən qurulan Laçın şəhəri, həqiqətən də, möhtəşəmliyi ilə göz oxşayır. Torpağa əsl sahiblik ruhu Azərbaycan dövlətinin qısa müddət ərzində Qarabağda, Şərqi Zəngəzurda yaratdığı reallıqlardadır. Azad yurdlarımızda böyük sürətlə aparılan quruculuq işlərindədir. Bu ruh yenidən qurulmuş Laçın şəhərinin indiki gözoxşayan cənnət görkəmindədir. Bütün bunlar bir tərəfdən Azərbaycan xalqının quruculuq əzmini, tikib-yaratmaqla əsrlər boyu bəşər mədəniyyətinə verdiyi töhfələri, milli iradəsini göstərir, eyni zamanda bu torpaqların əsl sahibləri olduğumuzu bütün dünyaya nümayiş etdirir.

Laçın rayonunun timsalında biz dirçələn Azərbaycanı, dirçələn torpaqlarımızı görürük. İnsanlarımızın qayıdışı ilə doğma torpaqlarımızda başlanan yeni həyat, yurda dönmüş həmvətənlərimizin burada qürurla yaşaması, Şuşada, Laçında qurulan toy-büsat öz torpaqlarında haqq-ədalət uğrunda mübarizə aparan, ədalətli müharibədə qalib gələn, bütün çətinliklərə, keşməkeşlərə baxmayaraq, öz haqqını, özünə aid olanı almağı bacaran Azərbaycanın zəfərinin təntənəsidir. Dövlət başçısının da bəyan etdiyi kimi, bizim başqa ölkələrin torpağında gözümüz yoxdur, ancaq öz torpağımızı da heç kimə verən deyilik. Azərbaycan xalqı bundan sonra bu torpaqlarda sülh, əmin-amanlıq şəraitində yaşayacaq, doğma yurdlarımızda qurub-yaradacaq.

Bu gün Laçının MDB-nin mədəniyyət paytaxtı statusuna yüksəlməsi əlamətdar hadisədir. Biz davamlı inkişaf, quruculuq baxımından Böyük qayıdış mərhələsini məsuliyyətlə davam etdiririk. Bu status eyni zamanda qazanılan zəfərimizə ehtiram nümunəsidir, Qarabağda aparılan quruculuq işlərinə böyük marağın olmasıdır. Sevinirik, Laçın əvvəlki əzəmət və qürurunu bərpa etməkdədir!

*İradə ƏLİYEVA, "Azərbaycan"*




● Yaradıcı gənclik

# Zəfər abidəsi gənclərin gözü ilə

**Üstündən illər, əsrlər keçsə də, xalqların tarixində baş vermiş böyük əhəmiyyətə malik hadisələr heç vaxt unudlumur, yaddaşlara həkk olunaraq daim yaşayır və yaşadılır. Zaman keçdikcə bu tarixi hadisələr haqqında bir-birindən qiymətli kitablar yazılır, dəyərli tarixi filmlər çəkilir, möhtəşəm abidələr ucaldılır. Xalqın taleyində böyük rol oynamış həmin hadisələr bu kitablarda, bu filmlərdə, bu abidələrdə əbədi olaraq tarixləşir.**




27 sentyabr 2020-ci ildə erməni təxribatı nəticəsində başlanan 44 günlük Vətən müharibəsinin Zəfərlə başa çatması hamımızın qəlbində böyük qürur hissi oyatdı. Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi altında 30 ilə yaxın davam edən işğala birdəfəlik son qoydu. 19-20 sentyabr 2023-cü ildə Azərbaycan Ordusunun Qarabağda uğurla həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində Xankəndi, Xocalı, Ağdərə, Xocavənd, Əsgəran və başqa şəhərlər, qəsəbələr illərdən bəri bu bölgədə kök salmış erməni separatçılarından və Ermənistan silahlı qüvvələrinin tör-töküntülərindən təmizləndi. Təbiidir ki, qələbə asanlıqla qazanılmadı. Torpaqlarımızın azadlığı uğrunda cəsur oğullarımız şəhid oldular. Zəfər Azərbaycan dövlətinin və xalqının gücü, qüdrəti, sarsılmaz birliyi ilə əldə olundu. Azərbaycanın dövlət suverenliyi tam bərpa olundu. Buna görə də inamla demək olar ki, İkinci Qarabağ müharibəsində qazanılan Zəfər Müzəffər Ali Baş Komandanın şah əseridir. Bu zəfər nəticəsində xalqımız çoxdan gözlədiyi arzusuna çatdı. 44 günlük Vətən müharibəsi haqqında zaman-zaman kitablar yazılacaq, filmlər çəkiləcək, abidələr ucaldılacaq.

Təbiidir ki, bu kitabların yazılmasında, filmlərin çəkilməsində və abidələrin ucaldılmasında cəmiyyətimizin aparıcı qüvvəsi olan gənclər də fəal iştirak edirlər. Bakı Mühəndislik Universitetinin Dizayn-memarlıq fakültəsinin 3-cü kurs tələbələri Kənan Behbudzadə və İbrahim Mahmudov düşmən üzərində qazanılan Zəfərə öz töhfələrini veriblər. Bu tələbələrin ikisi də müharibə nə olduğunu çoxlarından yaxşı bilirlər. Çünki Kənanın da, İbrahimin də ataları Qarabağ müharibəsinin od-alovundan keçiblər.

Gənclərin bacarıqlarını nəzərə alan modelləşdirmə fənnini tədris edən müəllim Rasim Qurbanov onlara Zəfər günü ilə bağlı sərgi üçün eksponat hazırlamağı tapşırıb. Təbiidir ki, sərgiyə yüksək peşəkarlıqla hazırlanmış əsərlər təqdim edilməliydi. Bunu ürəklərində, qəlblərində duyan tələbələr işə böyük məsuliyyətlə yanaşaraq, bacarıqlarını ortalığa qoyub bir-birindən fərqli eskizlər çəkir, mövzuya uyğun müzakirə və təhlillər aparırdılar. Əsərlərinin bəyənilməsi, başqalarından seçilməsi üçün ən yaxşı formaya üstünlük verirdilər. Yaxşı əsərlərin yaranması, meydana gəlməsi üçün yüksək təfəkkür tələb olunur. Bu günə qədər yaradılan bütün dəyərli əsərlərin arxasında bacarıq, gərgin zəhmət və zəngin təcrübə dayanıb. Hər iki tələbədə Zəfər günü üçün bəyəniləcək, diqqətləri cəlb edəcək eskiz yaratmağa kifayət qədər təfəkkür və bacarıq var idi. Elə ona görə də qısa müddət ərzində ortaya çox maraqlı əsər qoydular.

İkinci Qarabağ müharibəsinin tarixinə dərindən bələd olan gənclər döyüşlərin davam etdiyi günlərin sayının rəmzi olan 44 rəqəmini yaratdıqları əsərin fabulası kimi təqdim ediblər: Yan tərəflərdən 44, üst tərəfdən 8 rəqəmləri isə Azərbaycan gerçəkliyinin, 8 Noyabr - Zəfər Gününün simvoludur. Eskizdən aydın göründüyü kimi, 44 rəqəmi 8 rəqəmi ilə üzvi şəkildə bir-birinə bağlıdır. Quruluşuna görə 8 rəqəmi həm də sonsuzluğu, yəni zəfərimizin, qələbəmizin əbədiliyini göstərir. Tələbələr bu eskizləri ilə demək istəyirlər ki, 44 gün davam edən və noyabrın 8-də qazanılan Zəfər xalqımızın yaddaşında daim qürurla yaşadılacaq, iftixarla xatırlanacaq! Tələbələrin Zəfərimizə töhfələri olan bu əsəri qürurun abidəsi adlandırmaq çox düzgün olardı.

Bakı Mühəndislik Universitetinin müəllimləri, tələbələri Kənanla İbrahimin Zəfərimizə həsr etdikləri əsərinə çox böyük heyranlıqla baxırlar. Ali təhsil ocağına gələn rəsmi qonaqlar da tələbələrin təfəkkürlərinin məhsulu olan eskizləri yüksək qiymətləndirirlər. Göründüyü kimi, 44 günlük Vətən müharibəsində misilsiz qəhrəmanlıqlar göstərən gənclik Zəfər abidəsinin hazırlanmasına da öz töhfələrini verir.

Kənan Behbudov bizimlə söhbətində dedi ki, sərgiyə hazırlaşanda xeyli müzakirədən sonra məhz 44 və 8 rəqəmlərini həm ayrılıqda, həm də vəhdətdə təqdim etmək fikrinin üstündə dayanıblar. İbrahimlə birgə zəfərimizə layiq əsər hazırlamaq üçün müxtəlif eskizlər üzərində işləyiblər. Nəhayət ki, axtarışlar müsbət nəticə verib: "Əsərimizin bəyənildiyini eşidəndə sevindik. İbrahimlə düşünürük ki, bu, yalnız başlanğıcdır. Biz gələcək fəaliyyətimizdə də Zəfərimizə böyük töhfələr verəcəyik, maraqlı və dəyərli eskizlər hazırlayacağıq".

*Vahid MƏHƏRRƏMOV, "Azərbaycan"*

# Sahib PAŞAZADƏ: "Pakistanda festivalda iştirakımız kifayət qədər məhsuldar oldu"

**Pakistanın Kəraçi şəhərində ilk dəfə təşkil olunan Dünya Mədəniyyət Festivalında Azərbaycanı Beynəlxalq Muğam Mərkəzinin (BMM) direktoru, Əməkdar artist, tarzən Sahib Paşazadə və BMM-in solisti, Əməkdar artist, nağara ifaçısı Kamran Kərimov təmsil ediblər.**



Festivalla bağlı təəssüratlarını AZƏRTAC-ın müxbiri ilə bölüşən Sahib Paşazadə bildirib ki, "Art Council Pakistan"ın təşkilatçılığı ilə oktyabrın 30-dək davam edəcək festivalda 40 ölkədən 450-dən çox sənətçi çıxış edəcək. Festival çərçivəsində musiqi, teatr və rəqs tamaşaları, təsviri incəsənət nümayişləri, sənətin müxtəlif sahələrini əhatə edən panel müzakirələri və seminarlar təşkil olunur.

"Festivalda iştirakımız kifayət qədər məhsuldar oldu. Açılış günü zəngin proqram təqdim etdik. Kəraçidə yerləşən İncəsənət Universitetində Azərbaycan alətləri və musiqisi ilə bağlı ustad dərsi keçdik. Yüksək səviyyədə təşkil edilən festivalda Azərbaycan muğamı və musiqi alətlərimiz böyük sevgi və maraqla qarşılandı. Festivalın təşkilat komitəsi və musiqiçilər Azərbaycanın görkəmli muğam ifaçısı Alim Qasımovun sənəti haqqında bilgili olduqlarını diqqətə çatdırdılar. Biz həmçinin Pakistanın görkəmli ifaçısı Nüsrət Fateh Ali Xanın məşhur "Qavvali" əsərini ifa etdik".

# Bakıda rus bəstəkarın 180 illiyi qeyd ediləcək

**Oktyabrın 17-də Bakıdakı Rus evində dahi rus bəstəkarı Nikolay Rimski-Korsakovun anadan olmasının 180 illiyinə həsr olunmuş konsert və sərgi keçiriləcək.**

Rusiya İnformasiya və Mədəniyyət Mərkəzinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, tədbir Bakıdakı Rus evi, Rusiya Milli Musiqi Muzeyi və Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının birgə təşkilatçılığı ilə keçiriləcək.

Dahi bəstəkarın yubileyi üçün Rusiya Milli Musiqi Muzeyi "Nağılların çarı" adlı unikal sərgi hazırlayıb. Tədbir çərçivəsində sərginin eksponatları təqdim olunacaq.

Keçmişdən bu günə

# Çörəyi dəmirdən çıxanlar...

**Çalışırdı ki, gücü çatdıqca zindanın üstündəki metala zərbəni bərk vursun. Əlindəki ağır gürzü qaldırıb hər zərbə vuranda alnındakı tər dənəcikləri döyəcləyib düzəltmək istədiyi alətin üstünə tökülürdü...**

Gürzü hər başı üzərinə qaldıranda ucadan "Ya Allah", zərbə endirəndə isə "Bismillah" deyirdi...



Hərəkət etdikcə alnının damarları boru kimi şişib o həddə çatırdı ki, sanki bu dəqiqə damarları partlayıb yerindən çıxacaq...

Kənardan baxanda əlinin üstündəki damarların yarpağı tökülmüş qoca palıd ağacı kimi şaxələndiyini görmək olur...

Ovcunun içindəki şişib qaratuluq olmuş qabarlar isə zərbəyə tab gətirməyib partlayır, barmaqlarının arasından qara qan süzülürdü...

Zərbə vurduqca da "əzib suyunu çıxardığı" metal parçasından da heç gözünü çəkmirdi...

Bir azdan əlindəki dəmir parçası bıçaq, qiyməkeş, dəhrə, balta, məngəl olacaq...

Ağır-ağır nəfəs alan dəmirçiyə baxdıqca ürəyimdə deyirəm: "Mən səni yaxşı tanıyıram. Sən tarixin o üzündən, minilliklərdən yol alıb gələn həmin halal kişisən..."



Çörəyini tərinə batırıb yeyən kişi...

Oturub dincini alanda əlinin qabarını, döyənəyini oyan kişi...

Qara polad üz qılıncı düzəldib mərd oğulları düşmən üstünə uğurlayan kişi...

Təri ilə yovurub, canından can, qolunun təpərindən güc verdiyi alətlərə doğma balası kimi baxan kişi...

Düzəltdiyi qılınc namərd əlinə düşəndə "Mənim düzəltdiyim qılınc məni kəsməz", - deyən usta...



"Keçmişdən bu günə" rubrikasının qəhrəmanı, xalq sənətinin qədim yadigarlarını yaşadan Zərdab şəhər sakini, dəmirçi Qadir Soltan oğlu Babayevdir...

### Nəsilliklə dəmirçiyik

Söhbətə Qadir Babayev özü körpü salır. Özü də lap əvvəldən başlayır...

Əslimiz Dağıstanın İğır kəndindəndir. İğır dağların əhatəsində, keçilməz qayalıqların başında yurd olmuş bir kənd idi. Böyüklərimdən eşitdiyimə görə, tarixən kəndimizin bütün əhalisi dəmirçiliklə məşğul olub...

İğır camaatının keçilməz qayalıqların, dağların başında məskunlaşmasının əsas səbəbi də kəndimizin kişilərinin dəmirçi olması ilə bağlıdır. Ulu babam Ağaqulu, babam Şamil yaxşı qılınc, qalxan, nizə, dəbilqə ustası olublar... Düşmən sənətkarların yerini bilməsin, o dağları qalxıb silah-sursatı ələ keçirməsin, sənətkarları əsir alıb aparmasın deyə, onlar keçilməz İğırı özlərinə yaşayış məskəni seçiblər. Sovet hökuməti qurulandan sonra kolxoz quruculuğu illərində kəndimizi nisbətən rahat yerə köçürüb adını Yeni Quruş qoyublar. Köç zamanı iğırlıların bir hissəsi Qəbələ rayonunun Durca kəndinə köçərək öz sənətlərini burada davam etdiriblər.





Ağdaşda, Göyçayda, Ağcabədidə, Kürdəmirdə olan dəmirçilər bizim nəsildəndirlər... Bir-birilərinə mane olmasınlar deyə, dəmirçi ailələri hərəsi bir rayonu seçiblər.

Dəmirçilik ağır işdir. Amma halal işdir... Bir dəmirçinin oğurluq etməsinə, kimsənin malına göz dikməsinə tarixən rast gələ bilməzsiniz...

Sovet vaxtı işimiz çox olurdu. Kolxozların ağır ağac malalarını dəmirçilər düzəldərdilər. Baramaçılar dəhrələrini ovxarladardılar. Yeni dəhrə düzəltdirənlər də heç az olmazdı. Kolxozlardan hər il at nalı düzəltmək üçün xeyli sifariş alardıq...

### Maşınlar tarlaya, kətmən muzeyə...



Dəmirçilik ömrünü başa vurmaqda olan sənətdir. Hər aşiqin bir dövranı olduğu kimi, dəmirçi sənəti də yerini müasir texnologiyaya təhvil verməkdədir. Atam mənə dəmir döyməyi, körük basmağı, gürz vurmağı, dəmiri suya salmağı öyrədərdi. Dəmirçilik ağır iş olduğu, həm də tələbat olmadığı üçün mən bunu oğluma öyrətmədim.

Artıq ətraf rayonlarda - Ucarda, Kürdəmirdə, Ağcabədidə də dəmirçi yoxdur.



İşin ağırlığı bir yana, dəmirçilərin düzəltdiyi alətlərə tələbat azalıb. Kolxozlar fəaliyyətdə olanda ildə nə qədər kətmən düzəldirdiksə, sayını belə unudurduq.

Müasir texnologiya inkişaf etdikcə bizim kustar üsulla düzəltdiyimiz alətləri işlədənlərin sayı azalır. Yeni dəmirçi nəsli yetişmədiyi üçün dəmirçilik sənəti də tarixiləşir. Necə deyiblər, "maşınlar tarlaya, kətmən muzeyə".

Əvvəllər hətta uşaq beşikləri sifariş verənlər də olurdu. İndi yalnız dəhrə, bıçaq, qiyməkeş, az sayda da qara dəryaz, məngəl, nal, qapı cəftəsi sifariş verən olur.

Adından da göründüyü kimi, çörəyimizi dəmirdən çıxarırıq. Dəmirçi iş görmək üçün gərək keyfiyyətli dəmir seçə.

Dəmirə çəkic vuran kimi onun içində nə var görə bilərsən. Dəmirdə polad qarışığı olanda yaxşı işləməli olur. Düzəltdiyin əmək aləti də çox keyfiyyətli olur. Dəhrə, əl baltası, qara dəryaz düzəltdirənlər az deyil. Adətən, biz material kimi maşın resorlarından istifadə edirik.

Onu da deyim ki, dəhrə ilə qara dəryazın heç vaxtı zavodu olmayıb. Bu alətləri həmişə dəmirçilər düzəldiblər.

### Dəmirçinin bilməli olduğu əsas iş

Dəmirçilik sənətinin canı dəmiri suya verməkdir. Şərt deyil ki, dəmiri döyüb, əzib istədiyin görkəmə salasan. Əgər dəmiri qaydasınca suya verməsən gördüyün işi öz əlinlə hədərə vermiş olursan. Su az veriləndə dəmir əyilir, çox veriləndə qırılır... Dəmir su almayanda ağzı ağarır, suyunu normal alan dəmir göyərir. Bu zaman əmin olursan ki, düzəltdiyin alət mükəmməl olacaq. Normal alətin ağzı da yaxşı kəsir...

Dəmirçinin özünün işlətdiyi alətlər də gərək rahat ola. Dəhrənin, baltanın, dəryazın sapı yaxşı işlənməyəndə müştəri narazı qalır. Əli qabar bağlayır. Yaxşı dəmirçi gərək yaxşı da dülgər olsun. Bazardan hazır aldığım sapları törpü ilə yenidən yonub hamarlayıram. Yaxşı oxlovlar da düzəldirəm... Bıçaq, qiyməkeş ovxarladanlar da az deyil. Atalar gözəl deyib ki, əli işləyənin ağzı ac qalmaz. Çox şükür dolanırıq, çörək üçün heç kimə ağız açmırıq.

Qadir Babayevlə xudahafizləşib yola rəvan olmaq istəyəndə ərklə emalatxananın qapısını bağlayıb "Bakıdan bura gəlib, dəmirçi çörəyi yemədən sizi çıxmağa qoymaram. Çörəyimiz qara undan hazırlansa da, üzümüz ağdır. Çörəyimiz də halal çörəkdir. Payızın ilk günü dəmir üstə qızdırılmış çörəyimizi yeyin, dadından sonra danışarsınız", - deyir.



Halallıqla qazanılan dəmir çörəyi bal dadırdı. Dadı hələ də damağımızda qalıb...

*Elşən QƏNİYEV,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*




## Elektrik enerjisi istehsal edən süni bitki



**ABŞ-nin Binhemton Universitetinin tədqiqatçıları elektrik istehsal edən süni bitki hazırlayıblar. Layihə əvvəlcə bakteriya ilə çalışan biobatareyaları əhatə edirdi.**

Alimlər əvvəlcə beş bioloji günəş batareyasından və fotosintetik bakteriyalardan istifadə edərək süni yarpaq istehsal ediblər. Daha sonra bu yarpaq daha geniş tətbiq sahələri olan bitkiyə çevrilib. Süni bitkinin karbon dioksid udma qabiliyyəti və oksigen istehsalı test edilib. Nəticədə bitkinin "fotosintez prosesi"ni həyata keçirərək olduğu məkanın hava keyfiyyətini yaxşılaşdırdığı təsdiqlənib. Belə ki, o, fotosintezi gücləndirmək üçün daxili məkan işığından istifadə edir və karbon səviyyəsini 90 faiz azaldır.

Süni bitki hazırda 140 mikrovat dəyərində güc istehsal etsə də, tədqiqatçılar bu göstəricini 1 millivatdan çox artırmağı hədəfləyirlər. Onlar, həmçinin dizayna litium-ion batareyaları və super kondensatorlar kimi enerji saxlama sistemini də əlavə etməyi planlaşdırırlar.

## Yuxulararası əlaqə

**İnsanın yuxu gördüyünü dərk etdiyi yuxulara lusid və ya şüurlu yuxu deyilir. Şüurlu yuxu ilə bağlı tədqiqatlar aparan "REMspace" şirkəti xüsusi hazırlanmış avadanlıqlar istifadə edərək 2 şəxsin uğurla lusid yuxu gördüyünü və bu müddət ərzində bir-birilərinə mesaj göndərdiklərini iddia edir.**



Şirkətin təsisçisi Maykl Raduga ötən ilin mayında öz kəllə sümüyünə mikroçip yerləşdirərək yuxularını idarə etmək məqsədilə bir təcrübə aparmış və bu hadisə dünya miqyasında böyük maraq doğurmuşdu. O, çipin beynin yuxu zamanı motor korteksini stimullaşdırmaq üçün hazırlandığını bildirir.

Şirkət təcrübələri bir-birindən uzaqda olan 2 iştirakçı üzərində həyata keçirib. Server ilk iştirakçıya yuxu gördüyü zaman təsadüfi bir söz göndərib və iştirakçı da bu sözü yuxusunda təkrarlayıb. Təkrarlanan söz və cavab server tərəfindən qeydə alınıb. 8 dəqiqə sonra ikinci iştirakçı lusid yuxusunda bu mesajı qəbul edib və təsdiqləyib. Bununla da ilk dəfə yuxuda söhbət aparılıb.

"REMspace" yuxular zamanı aşkar edilə bilən yuxu dili inkişaf etdirdiyini açıqlayıb. "Remmyo" adlanan bu dilin elektromioqrafiya sensorları vasitəsilə yuxu zamanı yaranan səslərin tutularaq ünsiyyət üçün istifadə edilə biləcəyi irəli sürülür. Bu texnologiya elmi cəhətdən hələ təsdiqlənməyib.

Şirkət daha mürəkkəb ünsiyyət formalarına imkan verəcək texnologiyalar üzərində işlədiyini və gələcəkdə yuxu zamanı tam söhbətlərin aparılmasının mümkün olacağını iddia edir. Mütəxəssislər önümüzdəki bir neçə il ərzində yuxu ünsiyyətinin geniş yayılacağını proqnozlaşdırırlar.

## Görmə məhdudiyyətli futbol həvəskarları üçün innovativ cihaz

**Görmə qabiliyyəti məhdud olan idmansevərlər üçün yeni cihaz hazırlanıb. COVID-19 karantini zamanı 3 dost tərəfindən yaradılan startap qısa müddətdə böyük maraq doğurub.**



Planşetə bənzəyən və toxunma ilə əks əlaqə verən "Field of Vision" stadiondakı xüsusi kameralar vasitəsilə oyunu izləyir, süni intellektdən istifadə edərək önəmli anları müəyyənləşdirir və yığdığı məlumatları istifadəçiyə titrəmə vasitəsilə ötürür. İstifadəçilər cihaz üzərindəki maqnit halqa vasitəsilə oyunun cari vəziyyətini hiss edə bilir. O, təxminən yarım saniyə ərzində oyunun vəziyyətini istifadəçiyə çatdırmaq xüsusiyyətinə malikdir. Cihazda olan qulaqlıq girişi sayəsində stadiondakı səsli təsvirləri də dinləmək mümkündür.

"Field of Vision"ın sınaqları Mançester Sitinin Etihad Stadionu və Melburndakı Marvel Stadionu kimi böyük stadionlarda həyata keçirilib və nəticə uğurlu olub.

## Günəş enerjisi ilə uçan pilotsuz təyyarə

**ABŞ və Yapon şirkətləri yüksək hündürlükdə platforma stansiyası kimi xidmət edəcək təyyarə hazırlayıblar. Günəş enerjisi ilə çalışan "Horus A" 78 metrlik qanada sahib pilotsuz uçuş aparatı 68 kiloqrama qədər yük daşıya bilir.**

Sınaq uçuşu həyata keçirilən hava vasitəsi yüksək hündürlükdə əlaqə, naviqasiya, kosmik sahə məlumatlılığı, kəşfiyyat, müşahidə və nəzarət üçün nəzərdə tutulub. Sınaq "Horus A"nın çoxlu yük daşıma qabiliyyəti və stratosferik uçuş imkanlarının Müdafiə Nazirliyinin tələblərinə uyğun olduğunu uğurla nümayiş etdirib.

Cihazın əlverişsiz və turbulanslı hava şəraitində effektiv manevretmə, təhlükəsiz enmə və gələcəkdə daha uzunmüddətli tapşırıqlar üçün stratosferə geri qayıtma qabiliyyəti də sınaqdan keçirilib. Uçuşa yararlılıq sertifikatını alan "Horus A" önümüzdəki aylarda fəaliyyətə başlayacaq.



## Kapitansız elektrikli qayıqlar

**İsveçdə avtonom dəniz nəqliyyatı istiqamətində mühüm addım atılıb. Ötən il Stokholmda ilk dəfə olaraq elektrikli qayıq bölgədəki adalar arasında sərnişin daşımalarında istifadə olunmuşdu. İndi isə qayıq 600 kilometr məsafədən idarə olunaraq daha bir uğura imza atılıb.**




"MF Estelle" katamaranı 12 metr uzunluğuna və 25 sərnişin daşıma gücünə malikdir. Dörd ədəd itələyici mühərrik və 188 kilovatlıq batareya ilə təchiz edilmiş elektrikli nəqliyyat vasitəsi saatda 11 km/saat sürətlə gündə 15 saata qədər çalışa bilir. Norveç Elm və Texnologiya Universitetinin tədqiqatçıları tərəfindən inkişaf etdirilən texnologiya və süni intellekt sayəsində qayıq radar, kamera, ultrasəs sensorları, 5G texnologiyası və GPS-dən istifadə edərək ətrafını skan edərək suyun üzərində hərəkət edir. İndiyədək sərnişinlərin təhlükəsizliyini təmin etmək və lazım gəldikdə idarəetməni ələ almaq üçün qayığın göyərtəsində bir ekipaj üzvü olurdu. Son testlərdə isə heç bir ekipaj olmadan da qayığın işləyə biləcəyi göstərilib.

## Minaların yerini təyin edən sistem

**ABŞ-nin Karnegi Mellon Universitetinin mütəxəssisləri minaların yerini təyin edə bilən süni zəka əsaslı sistem hazırlayıblar. "RELand" adlı sistem bu və ya digər ərazinin coğrafi özəllikləri barədə məlumatları analiz edərək potensial təhlükənin harada olduğunu bildirir.**



"RELand" sisteminin hazırlanmasına Mateo Dulce Rubio adlı mütəxəssis rəhbərlik edib. O, minalardan əziyyət çəkən ölkələrdən biri olan Kolumbiyada doğulub və böyüyüb. "RELand" da ilk növbədə məhz Kolumbiyada test edilib. Nəticədə sistem bir neçə ərazidə mina təhlükəsini düzgün şəkildə təyin edə bilib. Mütəxəssislər bu sistemin təkmilləşdirilməsi üzərində çalışmağa davam edəcəklər.

## "Vatsap"ın daha bir yeni funksiyası

**"Vatsap" tərtibatçıları mesencer üçün yeni funksiya təqdim ediblər. Təqdim edilmiş funksiyalar mesenceri daha çox sosial şəbəkəyə çevirir. Belə ki, bundan sonra istifadəçilər öz kontaktlarının "Status" paylaşımlarını bəyənə və öz "Status" paylaşımlarında kontaktlarını qeyd edə biləcəklər.**



Yeni funksiya sayəsində bu paylaşımlar seçilmiş kontaktlar üçün sərgilənəcək. Seçilmiş kontaktlar bu barədə bildiriş əldə edəcək və "Status" paylaşımını repost etmək imkanına sahib olacaqlar. Üstəlik, bu paylaşımlara bəyənmə düyməsi əlavə edilib. Şirkətin verdiyi məlumatda bəyənmə sayının göstərilməyəcəyi bildirilir.

Yeni funksiya istifadəçilər arasında tədricən istifadəyə verilir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Aİİ-də seminar təşkil olunub

**İlahiyyat İnstitutunda "Azərbaycanda müasir ekologiya problemləri və onların həlli yolları" mövzusunda seminar keçirilib. Tədbir Aİİ tələbələrinin iştirakı ilə baş tutub.**





İlahiyyat fakültəsinin dekanı, seminarın moderatoru, dosent Elnurə Əzizova sözügedən mövzuda təlimlərin keçirilməsinin zəruriliyini diqqətə çatdırıb. Dekan ekoloji problemlərin insan həyatının bütün sahələrinə təsir etdiyini vurğulayıb, həmçinin bu səpkili seminar və təlimlərə tələbələrin fəal surətdə qatılmasını tövsiyə edib.

Milli Aerokosmik Agentliyi Ekologiya İnstitutunun direktoru, texnika elmləri doktoru, professor Bəhram Əliyev "Azərbaycanda müasir ekologiya problemləri və onların həlli yolları" mövzusunda çıxış edib. Məruzəçi dünyada yaranan ekoloji problemlərə diqqət çəkib, qlobal iqlim dəyişmələri, torpaqların deqradasiyası, ərzaq təhlükəsizliyi və onların yaratdığı fəsadlar barədə ətraflı söhbət açıb.

B.Əliyev Azərbaycanda mövcud və gözlənilən ekoloji problemlər haqqında bəhs edib, onun həlli yolları ilə bağlı danışıb. Məruzəçi şəhralaşma, ərzaq təhlükəsizliyi kimi problemlərin ölkəmizdən də yan keçmədiyini, artıq su qıtlığı problemi ilə qarşılaşdığımızı bildirib. O, ekoloji problemlərin düzgün və səmərəli həllinin maariflənmədə olduğunu vurğulayıb.

Seminar müzakirələrlə davam edib.

Seminar Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında sərəncamından irəli gələn tədbirlərə uyğun olaraq təşkil olunub.

*"Azərbaycan"*


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

### "AZƏRBAYCAN" *qəzetinə*

***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (**Tel.: (012) 539-59-33**) zəng vura bilərsiniz.*


# Martinikdə etirazlar səngimir

## İqtisadi, sosial və irqi bərabərsizlik əhalini qəzəbləndirir

**Fransanın idarə etdiyi Karib dənizindəki Martinik adasında etirazçıların hava limanının binasına girməyə çalışaraq uçuş-enmə zolağına çıxmasından sonra aeroport qısa müddətə bağlanmaq məcburiyyətində qalıb. Yüzlərlə sərnişin çətin vəziyyətə düşüb. Yerli rəsmilər uçuşlar gecikərsə, sərnişinləri məlumat üçün öz aviaşirkətləri ilə əlaqə saxlamağa çağırıb.**





Hava limanı səhər saatlarında fəaliyyətini bərpa edib. Fransanın daxili işlər naziri Bruno Retayyo deyib ki, fransız səlahiyyətliləri yaşayış xərclərinin artmasına qarşı son etirazda nümayişçilərin hədəfinə çevrilən hava limanına nəzarəti bərpa ediblər.

Nazir əlavə edib ki, adaya əlavə qüvvələr göndərilir: "Biz asayişi bərpa edəcəyik. Amma qiymətlərin baha olması ilə bağlı yerli narazılığı da nəzərə almalıyıq".

Neçə gündür ki, Martinikdə nümayişlər davam edir və qiymətlərin artması ilə bağlı təşkil olunan bu etirazlar iğtişaşlara çevrilir. Nümayişçilərin polis məntəqəsini, avtomobilləri və yollardakı təkər istehkamlarını yandırması və polislə toqquşması nəticəsində azı bir nəfər həlak olub. Yaralılar və saxlanılanlar barədə dəqiq məlumat verilmir.

Etirazçılar adanın paytaxtı Fort-de-Fransdakı hava limanının ərazisinə daxil olublar. Sosial şəbəkələrdə yayılan videoya görə, onlar yüzlərlə sərnişinin sığındığı əsas girişə keçməyə çalışıblar.

Girişi qoruyan polis nümayişçilərə qarşı gözyaşardıcı qazdan istifadə edib. Uçuşlar dayandırılıb. Martinikin yerli prefekturasından verilən açıqlamada deyilir ki, təxminən 1000 sərnişini daşıyan üç təyyarə qonşu Qvadelupa adasına yönəldilib.

Xəbərdə deyilir ki, həmin reyslərə minməli olan daha 500 sərnişin Fort-de-Frans hava limanında qapalı şəraitdə qalıb.

Prefektura hava limanına yürüşün materikdən yüzlərlə fransız polisinin əhaliyə divan tutmaq üçün göndərilməsi ilə bağlı sosial mediada yayılan xəbərlərdən sonra başladığını bildirib.

Hökumət komendant saatını bərpa edib və adanın magistral yollarında nümayişlərin keçirilməsinə qadağa qoyub.

Bu, Fransanın adaya xüsusi çevik qüvvələr göndərməsinə səbəb olan sentyabrın əvvəlində başlayan etirazların sonuncusudur.

Martinik və Qvadelupa son illərdə oxşar etirazlara şahid olub. Nümayişçilərin vurğuladığı kimi, etirazların əsas səbəbləri iqtisadi, sosial və irqi bərabərsizlikdir. Əhali həmçinin Fransanın adalarda həyata keçirdiyi müstəmləkəçi və ekspansionist hərəkətlərindən qəzəblidir.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Şəhid övladları Şəkidəki "ABAD" Keramika və Tətbiqi Sənət Mərkəzində olublar

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin təşkilatçılığı ilə oktyabrın 12-də şəhid övladlarının və ailə üzvlərinin Şəki "ABAD" Keramika və Tətbiqi Sənət Mərkəzinə ekskursiyası təşkil edilib. Ekskursiya Vətən müharibəsi şəhidlərinin övladlarının və ailə üzvlərinin asudə vaxtının səmərəli təşkili məqsədi daşıyıb.**



AZƏRTAC xəbər verir ki, tədbirdə Şəki, Qax, Zaqatala, Balakən, Oğuz və Qəbələ rayonlarından 44 günlük Vətən müharibəsində şəhid olan qəhrəmanlarımızın 40-a yaxın övladı iştirak edib.

Məlumat verilib ki, mərkəzin açılışı Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın 2018-ci il oktyabrın 29-da Şəkiyə səfərləri çərçivəsində reallaşıb. "ABAD" Keramika və Tətbiqi Sənət Mərkəzi keramika sənətinin inkişaf etdirilməsi sahəsində fəaliyyət göstərir.

Diqqətə çatdırılıb ki, Azərbaycanda keramika sənətinin çox qədim tarixi var. Keramika sənəti qədim dövrlərdən başlayaraq Azərbaycanda ən geniş yayılmış sənət sahələrindən biri olub. Sənətkarlar diyarı kimi tanınan qədim Şəkidə keramika sənəti də inkişaf etdirilib, bu günə qədər öz əhəmiyyətini qoruyub saxlayıb. Bu qədim diyarın zəngin tarixi-mədəni irsinin qorunub saxlanmasında, ata-babalarımızdan bizə miras qalmış keramika sənəti ənənələrinin davam etdirilərək gələcək nəsillərə ötürülməsində "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğunun ərazisində fəaliyyət göstərən "ABAD" Keramika və Tətbiqi Sənət Mərkəzinin xüsusi rolu və əhəmiyyəti var. Mərkəzin məqsədi eyni zamanda müxtəlif çeşidli Azərbaycan gilinin dünyada tanıdılmasıdır. Bildirilib ki, dünyada mövcud olan 128 gil növündən 98-nə Azərbaycanda rast gəlinir.

Ekskursiya iştirakçıları mərkəzin sənətkarlarının hazırladıqları keramika işləri ilə yaxından tanış olublar. Sonra iştirakçılar üçün gildən müxtəlif əşyaların hazırlanması və rənglənməsi üzrə ustad dərsi təşkil edilib.


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

### ASCO-nun tabeliyindəki idarələrə tələb olunan avtoşinlərin satın alınması məqsədilə

### MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 18 oktyabr 2024-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**
**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.**

***Tender komissiyası***


# Yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var

Azərbaycanda bu günə gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 15-19° isti, gündüz 19-22° isti olacaq. Atmosfer təzyiqi 764 millimetr civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 55-65 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 12-17°, gündüz 17-22° isti, dağlarda gecə 3-8°, gündüz 10-15° isti olacağı ehtimal edilir.

# İstefalar Ermənistanı yeni xaosa sürükləyir

## Revanşist keşişin başçılıq etdiyi etirazlar istənilən effekti vermir

**Ermənistanda son günlərdə baş tutan istefalar bu ölkədə ictimai-siyasi proseslərin daha gərgin mərhələyə qədəm qoyduğunu göstərir. Yerli mətbuatın yazdığı xəbərə görə, Ermənistanda yüksəkvəzifəli şəxslərin istefası hələ də davam edəcək.**

Xatırladaq ki, bir müddət əvvəl keçmiş ədliyyə naziri Qriqor Minasyanın müavini Sirvard Gevorqyan istefa verdiyini açıqlayıb. Gevorqyan qərarını iki müxalif siyasi düşərgənin təzyiqi və manipulyasiyası ilə izah edib və qeyd edib ki, o öz mövqeyini qorumaq üçün dostlarını və həmkarlarını təhlükəyə atmağa hazır deyil. Gevorqyanın istefası hakim fraksiya deputatlarının istefasını tələb etdiyi ədliyyə naziri Qriqor Minasyana təzyiqlər fonunda baş verib.

Oktyabrın 1-də isə Ermənistanın ədliyyə naziri Qriqor Minasyan istefa vermişdi. Bu ayın 11-də isə Ermənistanın ərazi idarəetmə və infrastruktur nazirinin müavini Akop Vardanyan tutduğu vəzifədən istefa ərizəsi yazıb. Vardanyan bu vəzifəni 2018-ci ilin iyun ayından tutub və əvvəllər Ermənistanın Elektrik Şəbəkələri, Tashir Group və Yüksək Gərginlikli Elektrik Şəbəkələri şirkətlərində rəhbər vəzifələrdə çalışıb. Oktyabrın 10-da Dövlət Xidmətlərinin Tənzimlənməsi Komissiyasının sədri Qaregin Baqramyanın da istefa verdiyi məlum olub.

Ermənistanda istefa zəncirinin növbəti halqası isə iqtisadiyyat nazirinin müavini Narek Teryan olub. Teryan da tutduğu vəzifədən istefa ərizəsi yazıb. Teryan 2021-ci ilin aprelində baş nazir Nikol Paşinyanın qərarı ilə iqtisadiyyat nazirinin müavini təyin edilib. Bu günlərdə həmçinin Ermənistan parlamentində elektrik təchizatı ilə bağlı dinləmələr keçirilib və bu sektora cavabdeh şəxslər kəskin tənqid edilib.

Erməni analitik Manvel Levonyan istefalar fonunda hesab edir ki, Paşinyan və komandasının həll etməsi vacib olan ciddi problemlər var: "Müharibədəki məğlubiyyətdən sonra Paşinyanı çevriliş yolu ilə hakimiyyətə gətirən cəmiyyət ondan inqilabi islahatlar və Ermənistanı böhran bataqlığının içindən çıxarmağı gözləyir. Lakin erməni ekspertlər bu barədə pessimistdirlər. Hesab edilir ki, Nikol Paşinyanın komandası tərəfindən konkret nəticələrin əldə edilməsinə hesablanmış təbliğat tezisləri praktikada müsbət nəticələrin əldə edilməsinə imkan verməyəcək. Hesab edilir ki, Paşinyan vəd etdiyi islahatları yerinə yetirmək əvəzinə keçmiş hakimiyyətin siyasətini davam etdirsə, Ermənistanda daha böyük problemlər yaranacaq".

İndi sual olunur, hazırda hakimiyyətdə olanlar xalqın istədiklərini onlara verə bilmək bacarığına malikdirlərmi? Gedən istefalar və daxili qarşıdurma fonunda belə görünür ki, yox. Belə olan təqdirdə aydın məsələdir ki, xalqın tələbləri yerinə yetirilməyəcək. Yəni Ermənistanda yoxsulluq, korrupsiya, işsizlik əvvəlki qaydasında davam edəcək.

Bu arada Ermənistanda revanşistlər baş nazir Nikol Paşinyanı hakimiyyətdən uzaqlaşdırmaq üçün dəridən-qabıqdan çıxsa da, hələ ki, heç bir nəticəyə nail ola bilmirlər. Keçmiş hərbi xunta iqtidarın xarici siyasətinin ölkəni uçuruma sürüklədiyini, dövlətçiliyin itirilməsi ilə üz-üzə olduğunu iddia edir. Bütün bunlar isə, əslində, yenidən qarşıdurma yaratmaqla ölkədə növbəti xaos yaratmaq məqsədi güdür. Belə ki, son günlərdə Azərbaycanla sülh müqaviləsinin imzalanması ilə bağlı gedən müzakirələr fonunda keçmiş hərbi xuntanın revanş istəyi vəziyyətin daha da qarışacağını göstərir.

Hələ ki, keşiş Baqrat Qalstanyanın başçılıq etdiyi "Müqəddəs mübarizə" adlı təşkilatın etirazları istənilən effekti vermir. Kifayət qədər kütləvilik təmin edilmədiyindən revanşistlərin növbəti planları da fiaskoya uğramaqdadır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4173**
**Sifariş 2287**

**Qiyməti 60 qəpik**